

# Türkiyə Prezidentindən birlik mesajı

*Dünən Bakının Azadlıq meydanında Vətən müharibəsində qələbəyə həsr olunan Zəfər paradında çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bir daha Azərbaycanın yanında olduqlarını bəyan etdi. "Unikal" xəbər verir ki, Türkiyə Prezidenti çıxışı zaman həm Azərbaycan cəmiyyətinə, həm də dünyaya növbəti dəfə birlik mesajı verdi:*

Səh.2


UNİKAL

№42 (2037) 11 dekabr 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev   www.unikal.org   unikal-1@mail.ru




# Sahil Babayev üçün "təhlükə zəngləri"

## Yeni nazir köhnə problemlərin öhdəsindən gələ bilmir

*Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına yardım fondu ("YAŞAT" Fondu) yaradılıb. Bu qərar cəmiyyətdə təqdirlə qarşılanıb. Elə həmin təqdirin nəticəsidir ki, "YAŞAT"ın yarandığı ilk gündən bu yana Fonda ictimaiyyətdən böyük dəstək müşahidə edilir. Lakin bu yazıda məsələyə başqa prizmadan baxmaq istəyirik. Belə ki, bir çox ekspertlər haqlı olaraq düşünürlər ki, sözügedən Fondun təsis edilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) fəaliyyəti ilə bağlı axır vaxtlar səslənən tənqidlər fonunda kifayət qədər maraqlı addımdır. Bir az da dəqiqləşdirsək, "YAŞAT"ın funksiyaları əslində Sahil Babayevin rəhbəri olduğu nazirliyin birbaşa səlahiyyətlərinə daxildir.*

Səh.12

Səh.5



# Bakıda möhtəşəm Zəfər paradı keçirildi

## "Vətəndaşlara pul paylamaqdan başqa yol yoxdur"



*Məlum olduğu kimi, koronavirus pandemiyası ilə əlaqədar yenidən sərtləşdirilmiş karantin tətbiq olunmağa başalanılıb. Qərara görə bir sıra müəssisələrin fəaliyyəti dayandırılıb. Təbii ki, bu da ciddi iqtisadi problemlərə səsbəb olur. "Unikal" qəzetinə müsahibə verən Real Patiyanın icra katibi...*

Səh.4

## Azərbaycan-Türkiyə müttəfiqliyi regionda yeni dönəm açır



*Məlum olduğu kimi, 44 gün davam edən İkinci Qarabağ müharibəsində Türkiyə Azərbaycana həm mənəvi, həm siyasi-diplomatik dəstək verdi. Hətta müharibədən öncə də, Türkiyə və Azərbaycan Ordularının birlikdə hərbi təlimləri həyata keçirilmişdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan...*

Səh.13

## Ziya Məmmədovun yeni ümidi...



*Gələn ilin yanvar ayının 20-də Donald Tramp Ağ Evi ABŞ prezidenti kimi tərk edəcək. Prezident seçkilərində rəqibi Co Baydenə məğlub olan Trampın yenidən fəal biznesə qayıdacağı gözlənilir. Tramp hələ prezident kimi toxunulmazlığını saxlasa da, onun hakimiyyətdən çəkiləndən sonra xüsusilə, vergilərdən yayınmaqla bağlı ciddi...*

Səh.6

# Mətanət İsgəndərlinin ailəsində qalmaqal - Oğlu ayrılıb, gəlin kirayə pulunu ödəyə bilmir



***Əməkdar artist Mətanət İsgəndərlinin ailəsində qalmaqal yaşanıb.***

Axşam.az-ın əldə etdiyi məlumata görə, müğənninin oğlu Kərim həyat yoldaşı Cananadan ayrılıb. Hazırda cütlük rəsmi boşanmasa da, ayrı evlərdə yaşayır. Canana əvvəldən yaşadıqları kirayə evdə, Kərim isə anasının yanında qalır.

Mübahisəyə səbəb də elə buradan başlayıb. Belə ki, Kərim və Canananın əvvəl yaşadıqları evin olduğu ərazi tikinti şirkətlərindən biri tərəfindən alınıb. Onlara veriləcək yeni mənzil hazır olana qədər cütlüyün yaşadığı evin kirayə haqqını şirkət ödəyib. Hazırda isə M.İsgəndərli şirkətdən pulu alaraq, onu kirayə tutulan evə vermək istəmir. İsgəndərli gəlininə əvvəlcə onun yanına köçməsini deyib, sonra isə imtina edib.

Canana hazırda uşaqları ilə birlikdə kirayədə tək yaşayır və maddi sıxıntıları var. Kərim təkcə kirayə pulunu yox, həyat yoldaşına heç bir maddi dəstək göstərmir. Əvvəl gözəllik salonu olan Canana hazırda oradan da gəlir əldə edə bilmir.

Qeyd edək ki, Kərim və Cananının 3 övladı var.

# Azərbaycanda koronavirusa yoluxan və vəfat edən məşhurlar

***Bütün dünyanı cənginə alan koronavirus epidemiyasından Azərbaycanda da təəssüf ki, yoluxan və ölənlərin sayı artmaqdadır. Hazırda ölkə ərazisində ümumi yoluxma sayı 146679, sağalan 88497, 1632 ölüm halı və 56550 aktiv koronavirus xəstəsi var.***

"Unikal" baku.ws-ə istinadən Azərbaycanda koronavirusa yoluxan məşhurların siyahısını təqdim edir:

Koronavirusa yoluxan Xalq artisti Teymur Mustafayev 11 iyunda dünyasını dəyişib.

AzTV-nin Kinoproqramlar və dublyaj redaksiyasının bas? redaktoru, əməkdar incəsənət xadimi Etibar Kamal og?lu Babayev COVİD-19-un qurbanı olub.

Xalq artisti Arif Babayev koronavirusa yeni yoluxub. 82 yaşlı xanəndə ev şəraitində müalicəsini davam etdirir.

Xalq artisti Nəzakət Teymurova koronavirusa yoluxub, xəstəxanada müalicə olunan ifaçı epidemiyaya qalib gəlib.

Əməkdar artist Bəhram Bağırzadə koronavirusu ağır keçirən insanlar siyahısında olub. Uzun müddət aparatla nəfəs alan aktyor sonda virusa qalib gəlib.




Əməkdar artist Lalə Məmmədova da koronavirusa yoluxub. L.Məmmədova ilə yanaşı, anası və övladları da virusa yoluxublar. Ev şəraitində müalicə aldıqdan sonra normal həyatlarına geri dönüblər.

Əməkdar artist Nailə İslamzadə koronavirusa yoluxub. Simptomları özündə hiss edən N. İslamzadə ev şəraitində müalicə alır.

Gənc Tamaşaçılar Teatrının aktrisası, əməkdar artist Şəfəq Əliyeva və ailə üzvləri koronavirusa yoluxublar. Onlar müalicələrini davam etdirir.

Uzun illərdir xərçənglə mübarizə aparan tele-aparıcı Hacı Nuran da epidemiyaya yoluxanlar siyahısındadır. O ev şəraitində müalicəsini davam etdirir.

Müğənni Manaf Ağayev və ailəsi koronavirusa yoluxub. Onlar uzun müddətdir ki, müalicələrini davam etdirir.

Müğənni Xatun Əliyeva da koronavirusa yoluxub. O ev şəraitində müalicə alır.

Aparıcı Aydan Axundova da koronavirusa yoluxanlar sırasında olub. O müalicə olunduqdan sonra normal həyatına qayıdıb.

İş xanımı Ruhi Əliyeva da koronavirusa yoluxub. O müalicəsini ev şəraitində davam etdirir.



# Rəqqasə Rəna: "Türkiyəyə getmək üçün test verdim, virusa yoluxduğumu öyrəndim"

***Rəqqasə Rəna Ağamuradova (Renka) koronovirus tutmasından danışıb.***

"Unikal" xəbər verir ki, sənətçi bu haqda "MTV Azərbaycan"da qonaq olarkən deyib. O bildirib ki, xəstəliyə yoluxmasından xəbərsiz olub: "Xəstəliyin heç bir simptomu məndə yox idi. Türkiyəyə getməli idim, bilet aldım. Test verdim və pozitiv çıxdı. Gedəsi olmadım, 8 gün müalicə aldım. İndi qrip də çoxlaıb. İnsanlar çaşdırıb. Çoxları analiz verməyə də qorxur. Böyüklərinizi qoruyun. Mən atamı qoruya bilmədim. Ürəyi zəif idi, iki dəfə infark olmuşdu. Onu sağalda bilmədilər. Bir də qorxmaq lazım deyil. Qorxanda lap pis keçirisən. Hər yerin bağlanmasını, qaydaların sərtləşdirilməsini istəyirdim. Mənə də çox çətindir, ailə saxlayıram".

# "Evdəkilər məni küçəyə çıxmağa qoymurlar" - Əməkdar artist

***"Evdən küçəyə çıxmıram. Nəvələrim, ailəm evdədir, onlara görə özümü qorumalıyıq".***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri Əməkdar artist Yusif Mustafayev "Elgizlə izlə" proqramında deyib. Müğənni karantin günlərində evdən çıxmadığını söyləyib:

"Özümü qorumalıyam. Efirə gəlirəm, sonra qayıdıb oturuəam televizorun qabağında. Bazarlığı da evdəkilər edib gətirir. Deyirlər, evdən küçəyə çıxma, otur".

Y.Mustafayev "Nə yeyib-içirsiniz? Maddi imkanınız var" sualına "İnsan gərək hər dövrdə nəyəsə hazır olsun. Bu gün yeyim, sabah nə olur-olsun etmək olmaz" cavabını verib.

# "Həmin müğənnilər səhnənin təməlini abırsızlıqla qoydu" - Elza Seyidcahan

***Abır-həya ilə stili saxlamaq çətindir. Abırsızlıqla saxlamağa nə var ki....***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri Əməkdar artist Elza Seyidcahan "Xəbər-ətər" proqramında deyib. Müğənni şou-biznesdən gileylənib:

"Bəzi müğənnilər səhnənin təməlini abırsızlıqla qoyub. Utanmırlar onlar özlərinə xanım deyirlər? Eyni zamanda bəzi bəylər. Bir dəfə mənə dedilər ki, Elza xanım, hanı o günlər, şou getdi. Dedim, o şounun arxasıyca bir qara daş atın. Cəhənnəmə getdi, gəlməsin".





# Rektor Xəzər Enerji Forumunda məruzə ilə çıxış edib

***Dekabrın 8-də Rusiya Federasiyasının Xarici İşlər, Təbiət, Energetika, İqtisadi İnkişaf nazirlikləri, Rossotrudniçestvo agentliyi, Rusiya Elmlər Akademiyası (REA) və Ticarət-Sənaye Palatasının təşkilatçılığı və iştirakı ilə baş tutan "Xəzər dialoqu" Beynəlxalq İqtisadi Forumu çərçivəsində "Xəzər energetikasının inkişafı - innovativ əməkdaşlığın istiqamətləri" adlı Xəzər Enerji Forumu keçirilib.***

Unikal.org xəbər verir ki, "Xəzər enerji forumu-2020"-nin əsas məqsədi 2018-ci ilin avqustunda Avazada imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya və Xəzəryanı ölkələr arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş əsasında Xəzər regionu ölkələrinin enerji sahəsində səmərəli əməkdaşlığının inkişafına təkan verməkdir.

Forumda ekoloji vəziyyət, Xəzəryanı ölkələrin sənaye və enerji kompleksi obyektlərinin monitorinqi və texnoloji modernləşmə perspektivləri, geologiya və geofizika, habelə karbohidrogen ehtiyatlarının hasilatı və nəqlində texnologiya innovasiyalarının tətbiqi kimi məsələlər geniş müzakirə edilib.

Beynəlxalq forumda müxtəlif ölkələrdən olan nümayəndələrin iştirakçıları Rusiya Enerji Nazirliyinin nəzdində fəaliyyət göstərən "Rusiya Enerji Agentliyi" nin baş direktorunun müavini A.İ.Bednov, "Xəzərin Elmi və İnnovasiyası" Şurasının Rəyasət Heyətinin sədri, Rusiya Federasiyasının fövqəladə və səlahiyyətli səfiri V. İ. Kalyujnıy, Rusiya Elmlər Akademiyasının akademiki, REA Neft və Qaz Problemləri İnstitutunun elmi direktoru A.N.Dmitrievskiy, AMEA-nın birinci vitse-prezidenti akademik İbrahim Quliyev, ADNSU-nun rektoru professor Mustafa Babanlı və başqaları iştirak ediblər. ADNSU-nun rektoru, professor Mustafa Babanlı Forumda "Müasir dövrdə neft-qaz kompleksi üçün kadr hazırlığı" mövzusunda məruzə ilə çıxış edib.

# Göygöldə karantini pozan 1 nəfər həbs edildi

***Göygöl Rayon Polis Şöbəsinin əməkdaşları xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsinə nəzarət etmək məqsədilə gücləndirilmiş iş rejimində xidmət apararaq sakinlər arasında profilaktiki tədbirlər həyata keçirərək, mümkün qədər evdə qalmağı, zəruri hallarda evdən çıxdıqda isə tibbi maska, dezinfeksiyaedici vasitələrdən yararlanmağı tövsiyə edirlər.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə şəhərindəki regional qrupundan Unikal.org-a verilən məlumata görə, görünən tədbirlərə baxmayaraq, xüsusi karantin rejimin tələblərinə biganə yanaşan sakinlərə də rast gəlinir.

Polis əməkdaşlarının apardıqları araşdırmalarla xüsusi karantin rejiminin tələblərini pozan 10 nəfər vətəndaş barəsində müvafiq qanunlara uyğun olaraq tədbir görülüb. Ümumilikdə karantin dönəmində 339 nəfər məsuliyyətə cəlb olunub ki, onlardan 1 nəfər inzibati qaydada həbs edilib, 2 nəfər barəsində isə cinayət işi başlanıb.

# Sahil Babayev üçün "təhlükə zəngləri"

## Yeni nazir köhnə problemlərin öhdəsindən gələ bilmir

***Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına yardım fondu ("YAŞAT" Fondu) yaradılıb. Bu qərar cəmiyyətdə təqdirlə qarşılanıb. Elə həmin təqdirin nəticəsidir ki, "YAŞAT"ın yarandığı ilk gündən bu yana Fonda ictimaiyyətdən böyük dəstək müşahidə edilir.***



Lakin bu yazıda məsələyə başqa prizmadan baxmaq istəyirik. Belə ki, bir çox ekspertlər haqlı olaraq düşünürlər ki, sözügedən Fondun təsis edilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) fəaliyyəti ilə bağlı axır vaxtlar səslənən tənqidlər fonunda kifayət qədər maraqlı addımdır. Bir az da dəqiqləşdirsək, "YAŞAT"ın funksiyaları əslində Sahil Babayevin rəhbəri olduğu nazirliyin birbaşa səlahiyyətlərinə daxildir.

Lakin reallıq onu göstərir ki, ƏƏSMN son zamanlar onunla bağlı gözləntilərin öhdəsindən gəlməkdə çətinlik çəkir və bu mənada ictimaiyyət arasında bir çox narazılıqların səbəbkarı qismində çıxış edir. Məsələn, COVİD-19 pandemiyası ilə bağlı əhalinin aztəminatlı təbəqəsinə dəstək məqsədilə 190 manat həcmində müəyyənləşdirilən yardımların verilməsində Babayevin nazirliyi əməlli-başlı səbatsızlıq nümayiş etdirib, ortaya çoxsaylı şikayətlərin çıxmasına rəvac verib.

Hətta iş o yerə çatıb ki, 190 manatla bağlı Milli Məclis üzvləri də giley-güzarlarını meydana gətirmişdilər.

Sahil Babayevlə bağlı narazılıqlar bununla da kifayətlənmirdi.

ƏƏSMN-in özünəməşğulluq proqramının icrası ilə bağlı da çoxsaylı yanlışlıqlara yol verdiyi zaman-zaman konkret faktlarla ortaya qoyulurdu. Bir sözlə, gedişat belə deməyə əsas verirdi ki, cənab Babayev ilk baxışda "islahatçı" təsir bağışlasa da, əslində öz varislərindən köklü şəkildə fərqlənmir. Onun rəhbərlik etdiyi nazirliyi mühüm məqamlarda üzərinə düşən vəzifənin layiqincə gəlməkdə çətinlik çəkdiyi göz önündə idi.

İş o yerə çatmışdı ki deputatlardan biri dözə bilməyib demişdi: "Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev gəncdir, çox gözəl, amma artıq yuxarıdan gedir". Elə bir çox başqalarının da fikrincə, o, ictimai tənqid və iradlara dırnaqarası yanaşır, laqeyd münasibət bəsləyir, atdığı hər addımın qeyd-şərtsiz doğruluğuna inanır. Bu isə nəticədə neqativ tendensiyaları qüvvətləndirir.

Yuxarıda xatırlatdığımız bütün tənqidi fikirlərin fonunda gedişat adıçəkilən nazirin indiki vəzifəsində uzun müddət qalacağına dair ehtimalların reallaşacağına şübhə yeri qoymur. Xüsusilə ƏƏSMN mövcud olduğu halda "YAŞAT"ın yaradılması Babayevə azalan inamsızlığın kulminasiya nöqtəsinə çatdığından və belə davam edəcəyi halda çox keçmədən kreslosu ilə vidalaşacağından xəbər verir. Bir az da dəqiqləşdirsək, onun barəsində "təhlükə zənglərinin" səslənməyə başladığını deməyə əsas yaradır.

Buna əmin olmaq üçün adıçəkilən Fondun yaradılması ilə bağlı fərmandakı bir məqama diqqət yetirək. Bildirilir ki, Fond a) Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailələrinin üzvlərinə; b) işğaldan azad edilmiş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, habelə hərbi əməliyyatlar bitdikdən sonra onun nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş dövlət orqanlarının (qurumlarının) əməkdaşlarına və ya həlak olmuş əməkdaşların ailə üzvlərinə, şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi (maliyyə yardımlarının göstərilməsi və digər dəstək tədbirlərinin həyata keçirilməsi) üçün şəffaf, effektiv və əlçatan platformanın formalaşdırılması məqsədilə yaradılır.

Bundan başqa, fərmanda qeyd olunur ki, Fondun vəsaitinin sərəncamçısı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir.

Hər iki məqamı xüsusilə maraqlı edən odur ki, sözügedən funksiyaları çox rahatlıqla ƏƏSMN də yerinə yetirə bilərdi.

Lakin "YAŞAT"ın ayrıca Fond kimi təsis olunması Sahil Babayevin rəhbərlik etdiyi nazirliyin indiyədək üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyinə dair cəmiyyətdə qəti qənaətə çevrilmiş şübhələri möhkəmləndirir. Aydın görünən odur ki, 2018-ci ilin aprelində ƏSMN-in rəhbərliyinə gətirilən 40 yaşlı Babayev ona bəslənən ümidləri doğrultmaqda çətinlik çəkib. Bu mənada onun əvəzlənməsi indi, demək olar, şübhə doğurmur.

***Orxan Həsənli***

# Elektron ticarət üzrə fəaliyyətdən vergi ödəmələri

***"Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanununun 1.0.1-ci maddəsinə əsasən, informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi (o cümlədən internet şəbəkəsi vasitəsilə elektron kitabların, musiqinin, audio-video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənməsi, reklamların yerləşdirilməsi, digər analoji iş və xidmətlər) üzrə həyata keçirilən fəaliyyət elektron ticarət qaydasında aparılan əməliyyat hesab edilir.***




Dövlət Vergi Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsinə görə vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən bu maddə ilə müəyyən edilmiş qaydada qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı və ödənilməlidir.

Elektron ticarət qaydasında işlərin və xidmətlərin alıcısı, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin iştirakçısı vergi orqanlarında uçotda olmayan şəxs olduqda, ödənişi aparan yerli bank və ya xarici bankın Azərbaycandakı filialları tərəfindən hesablanan ƏDV alıcının vəsaiti hesabına büdcəyə köçürülür. Buna əsasən, xarici foreks brokerlərinin xarici ölkələrdə olan depozit hesablarına fiziki şəxslər tərəfindən vəsait qoyulduqda, həmin vəsaitdən 18 faiz dərəcə ilə ƏDV tutulub dövlət büdcəsinə ödənilir.

Həmçinin foreks əməliyyatlarından gəlir əldə edən şəxs vergi orqanlarında uçota alınmaqla VÖEN əldə etməli və əldə edilən gəlirdən 14 faiz dərəcə ilə gəlir vergisi hesablayaraq növbəti ilin mart ayının 31-dən gec olmayaraq gəlir vergisi bəyannaməsini vergi orqanına təqdim etməklə dövlət büdcəsinə ödəməlidir.

# Azərbaycan-Türkiyə müttəfiqliyi regionda yeni dönəm açır

***Məlum olduğu kimi, 44 gün davam edən İkinci Qarabağ müharibəsində Türkiyə Azərbaycana həm mənəvi, həm siyasi-diplomatik dəstək verdi.***

Hətta müharibədən öncə də, Türkiyə və Azərbaycan Ordularının birlikdə hərbi təlimləri həyata keçirilmişdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və digər dövlət rəsmiləri bu haqlı mübarizədə Azərbaycanın yanında olduqlarını bəyan etdilər. 10 noyabr bəyanatının əsasında Türkiyənin rəsmən Dağlıq Qarabağ münaqişəsinin həllində iştirakı təsdiqləndi. Qarabağda Rusiya-Türkiyə Birgə Monitorinq mərkəzinin yaradılması və türkiyəli hərbçilərin orada olması Azərbaycan üçün olduqca müsbət hal hesab olunur. Bütün bunlar Azərbaycanla Türkiyənin qarşıdakı dövrdə də siyasi-hərbi əkəmdaşlığı daha da dərinləşdirəcəyini deməyə əsas verir.

Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a açıqlamasında deyib ki, iki tərəf arasında hərbi saziş var və sazişə görə, tərəflərdən birinə asi əməkdaşlığın belə formasına rast gəlmək mümkün deyildir".

Yüksəliş Partiyasının sədri Anar Əsədli bizimlə söhbətində deyib ki, Qarabağ Azərbaycana, Azərbaycan isə Qafqaza aiddir, Türk ordusunun Qarabağa gəlişi Qafqaza gəlişidir, daha doğrusu, qayıdışıdır. Onun sözlərinə görə, bu torpaqlar və ətrafında milyonlarla kvadrat kilometrlərlə ərazilər minillər boyunca Türkün at mindiyi, yurd saldığı Asiya qitəsidir: "Türk Asiyadan heç getmədi ki. Asiyanın keşikçisidir Türk ordusu. Azərbaycan üçün Türk ordusu yad ordu deyil. Canı canımızdan, qanı qanımızdan olan bir ordudur. Azərbaycan üçün Türk ordusu qurtuluşun qapısıdır. Bu ordu qədimdə atalarımız tərəfindən birlikdə qurulmuşdur. Gələcəkdə övladlarımız tərəfindən birlikdə idarə olunacaq. Bir millətin ordusu da tək olmalıdır. Türkiyə ilə əməkdaşlıq sadəcə hərbi sahə ilə çərçivəli qalmamalıdır. Ümumtürk dövlətçilik ənənəsinin yaşadığı yer Türkiyədir. Türkiyənin quruculuğunda bütün Türk xalqlarının əlaqələr qurmuşlar. Azərbaycan həmin xarici məzunlardan Azərbaycanın dostları platformasını quraraq ölkəmizə yüzminlərlə dost qazana bilər".

Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə isə bildirib ki, 'Azərbaycanda keçiriləcək qələbə paradında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etməsi Türkiyə-Azərbaycan əlaqələrinə yüksək inkişafına səbəb olmaqla yanaşı , Türkiyənin Azərbaycana verdiyi dəstəyin siyasi nümunəsidir. Müsahibimiz deyib ki, Ərdoğanın gəlişi dünyaya Ankara-Bakı arasında yüksək əməkdaşlığın mesajı olacaqdır. Onun sözlərinə görə, Ərdoğanın bu səfəri ikitərəfli hərbi əməkdaşlığın yeni mərhələsi olacaqdır: "Burada sülhməramlıların Qarabağda fəaliyyəti və monitorinq mərkəzinin iş prinsipi də müzakirə ediləcəkdir. Bundan əlavə Ermənistan ilə növbəti mərhələdə sülh danışıqlarının müzakirəsi, Mehri dəhlizi barədə danışıqlar aparılacaqdır. Həmçinin Bakı-Naxçıvan-Qars dəmir yolu xəttinin tikintisi



**Qabil Hüseynli: "Türk əsgərlərinin paradda iştirakı Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının yeni mərhələyə qədəm qoymasını göstərir"**



**Anar Əsədli: "Bir millətin ordusu da tək olmalıdır, Türkiyə ilə əməkdaşlıq sadəcə hərbi sahə ilə çərçivəli qalmamalıdır"**



**Məhəmməd Əsədullazadə: "Türkiyə-Azərbaycan əlaqələrinin inkişafı Qarabağla bağlı qaranlıq qalan bütün məsələlərin həllinə rəvac verəcək"**

edilmiş hücum və hərbi təcavüz digər tərəfə edilən hücum və təcavüz kimi başa düşülür. Onun sözlərinə görə, hazırda daha irimiqyaslı hərbi sazişin imzalanması da gündəmdədir: "Hər halda indiyə kimi imzalanmış anlaşmalar Türkiyə və Azərbaycanın bir-birinə lazım olan hərbi yardım göstərmələrinə imkan verir. Bu gün türk əsgərlərinin hərbi paradda iştirak etməsi Türkiyə və Azərbaycanın hərbi əməkdaşlığının yeni bir mərhələyə qədəm qoymasını göstərir. Bu, iki ordunun bir-birilə bir növ qucaqlaşmasıdır, birgə fəaliyyətidir. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bu paradda iştirakı, Türkiyə xarici işlər nazirinin, Milli Müdafiə nazirinin parada qatılması bu hərbi parada əlavə bir rəng qatırdı. Cəsarətlə demək olar ki, iki ölkə arasındakı münasibətlər xeyli dərəcədə inkişaf edir. Siyasi, iqtisadi və ticarət əlaqələri ilə yanaşı, hərbi əməkdaşlıq, birgə hərbi istehsal daha geniş sahələri əhatə etməkdədir. Dünyada ölkələr arasında hərbi və siy-

nümayəndələri iştirak etdiyi kimi, yeni müstəqillik qazanmış Türk dövlətlərinin quruculuğunda Türkiyənin iştirakı təbiidir və zəruridir. Ona görə də hərbi qulluqçularımızın vahid standartlarla yetişməsi və idarə olunması vacib olduğu qədər, dövlət qulluqçularımızın da eyni standartlarla fəaliyyət göstərməsi önəmlidir. Qısa zamanda Dövlət Qulluğu haqqında qanun Türkiyənin Kamu personeli qanunu ilə eyni standarta gətirilməlidir. Türkiyə bu gün müasir təhsil deməkdir. Ona görə də Azərbaycan Türkiyənin təhsil və texnologiyalarda qətt etdiyi yolu öyrənməli və tətbiq etməlidir. Türkiyə azadlıq deməkdir. Bu mənada azad universitet modelini Türkiyənin qabaqcıl universitetlərindən əxz etməkdə fayda var. Ona görə də Qarabağda Azərbaycan-Türkiyə ortaqlığı ilə universitetin qurulması məqsədəuyğundur. Nəhayət, dünyanın yüzdən çox ölkəsində Türkiyədə təhsil almış insanlar var. Onların bir çoxu tələbəçilik illərində Türkiyədə təhsil alan azərbaycanlılarla dostlaşmış, yaxın

məsələsi də müzakirə ediləcəkdir".

Politoloq bildirdi ki, Türkiyə Cənubi Qafqazda mövqeyini möhkəmləndirir. Türkiyə Azərbaycan əlaqələrinin inkişafı regionda separatizm, işğalçılıq və həmçinin Qarabağla bağlı qaranlıq qalan bütün məsələlərin həllinə rəvac verəcəkdir. ''Son vaxtlar Rusiyalı sülhməramlı missiyasından kənar addımlar atan Qarabağda separatizmlə məşğul olan erməni dəstələrinə qarşı Bakı-Ankara arasında müəyyən sistem formalaşdırılacaqdır. Bu məqsədlə də Rusiya ilə müəyyən danışıqlar həyata keçiriləcəkdir. Dağlıq Qarabağda özünümüdafiə dəstələrinin hərbi birləşmələrinin ləğvi istiqamətində müəyyən işlər görüləcəkdir. Qeyd edim ki, aparılacaq bu müzakirələr Azərbaycanın lehinədir. Müharibədən sonra Ərdoğanın Bakıya səfəri yeni bir siyasi mərhələyə qədəm qoymaqla bərabər Azərbaycanın xeyrinə regionda müsbət dəyişikliklərə səbəb olacaqdır".

***Z.Məmmədli***



## "İtiqovan", "Bayraktar" və "Harop" nümayiş olundu

***Vətən müharibəsində qələbəyə həsr olunan Zəfər paradında pilotsuz uçuş aparatları (PUA) nümayiş etdirilib.***

Unikal.org xəbər verir ki, PUA-ları daşıyan avtomobillər Azadlıq meydanında tribunanın önündən keçib. Paradda Azərbaycanın istehsal etdiyi "İtiqovan" zərbə PUA-ları nümayiş olunub.

Daha sonra Vətən müharibəsində düşməni lərzəyə salan, düşmənə sarsıdıcı, dağıdıcı zərbələr vuran ən müasir PUA-lar olan "Bayraktar" və "Harop" Azadlıq meydanına daxil olub.

## DSX, Daxili Qoşunlar və Milli Qvardiyanın hərbçilərinə onlar rəhbərlik etdi

***Vətən müharibəsində qələbəyə həsr olunan Zəfər paradında Dövlət Sərhəd Xidmətinin (DSX), Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularından ibarət parad heyətləri keçid edib.***

Unikal.org xəbər verirki, Dövlət Sərhəd Xidmətinin parad heyətləri general-mayor Rəsul Tağıyevin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının parad heyəti general-mayor İnqilab Muradovun, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularından ibarət parad heyəti isə mayor Eldar Quliyevin rəhbərliyi ilə mətin addımlarla Azadlıq meydanına daxil olublar.

Sonra general-mayor Füzuli Salahovun rəhbərliyi ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyəti, general-mayor Bəkir Orucovun başçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursant və zabitlərinin keçidi olub.

Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına Hərbi Liseyin kursantları ilk dəfə olaraq Azadlıq meydanında keçirilən paradda iştirak ediblər. Parad heyəti general-mayor Məhəmməd Həsənovun başçılığı ilə tribuna önündən keçiblər.

Vətən müharibəsində Qələbəyə həsr olunan Zəfər paradına Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri dənizdən dəstək verib. Dənizdə fəxri keçid edən hərbi gəmilərimiz yüksək döyüş hazırlığı nümayiş etdirib.

# Əliyevlə Ərdoğan şəhidləri ziyarət etdilər



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 10-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.***

"Unikal"ın xəbərinə görə, dövlət başçıları Ulu Öndərin məzarı önünə əklillər qoyublar.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə Şəhidlər xiyabanını ziyarət edib. Prezidentlər "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar və şəhidlərin ruhuna dualar oxuyublar.

# Azərbaycan və Türkiyə prezidentləri təkbətək görüşdü

***Dekabrın 10-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.***



"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.

# Şentop Azərbaycan xalqını təbrik etdi



***Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop Zəfər paradı münasibətilə Azərbaycan xalqını təbrik edib.***

"Unikal" xəbər verir ki, bu barədə Şentop "Tvitter" hesabında yazıb.

"Bir Vətən Hərəkatında böyük zəfər əldə edən Can Azərbaycanın Zəfər gününü təbrik edir, Qarabağa Azərbaycan türkünün bayrağını asmaq, zülmə və işğala son qoymaq üçün şəhadətə ucalan 2783 qəhrəmanımıza Allahdan rəhmət diləyirəm", - deyə TBMM sədri vurğulayıb.

# Türkiyə Prezidentindən birlik mesajı

## Ərdoğan: "Türkiyə və Azərbaycan çiyin-çiyinə verdikcə çətinlikləri aşmağa, uğurlar əldə etməyə davam edəcək"

***Dünən Bakının Azadlıq meydanında Vətən müharibəsində qələbəyə həsr olunan Zəfər paradında çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bir daha Azərbaycanın yanında olduqlarını bəyan etdi.***

"Unikal" xəbər verir ki, Türkiyə Prezidenti çıxışı zaman həm Azərbaycan cəmiyyətinə, həm də dünyaya növbəti dəfə birlik mesajı verdi:

"Cənab Prezident, əziz qardaşım, Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman mənsubları, azərbaycanlı can qardaşlarım, sizi ürəkdən salamlayıram. Bu Zəfər Günündə sizinlə bir yerdə olmaqdan xoşbəxtlik duyuruq. Qardaşım cənab İlham Əliyevə dəvəti və qonaqpərvərliyinə görə təşəkkür edirəm. Azərbaycanın 44 gün çəkən mübarizəsində şəhid olan igidlərə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm".

Ərdoğan daha sonra deyib: "Qarabağı 30 illik həsrətdən sonra ana Vətənə qovuşduran Azərbaycan Ordusunun mənsublarını təbrik edir, onları dualarla cəbhəyə göndərən anaların əllərindən öpürəm. 20 Yanvarda şəhidlərin qəbirlərinə qoyulan qərənfillər necə müstəqilliyi xatırladırsa, indi də Dağlıq Qarabağ bölgəsinə xas xarıbülbül Azərbaycan ərazilərinin azadlığının simvoluna çevrilib. Azərbaycanın həm hərbi, həm diplomatik sahədə əldə etdiyi bu uğurda ən böyük pay sahiblərindən biri, şübhəsiz ki, qardaşlarımdan biri cənab Prezident İlham Əliyevə aiddir...

Əziz Azərbaycan xalqı, Türkiyə Azərbaycanın apardığı mübarizəyə lap əvvəldən bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanında olub. Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə həmişə böyük öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutmuşuq. Qazi Mustafa Kamal Atatürkün təbirincə, "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir". Bu anlayışla Qarabağı 30 il boyunca sinəmizdə yara etdik. Bu gün bu yaranın sağalmasının sevincini paylaşmaq üçün birgəyik. Azərbaycanın ərazilərini işğaldan azad etməsi mübarizənin bitmiş



mənasına gəlmir. Bu günədək siyasi və hərbi sahədə aparılan mübarizə bundan sonra çox fərqli cəbhələrdə davam edəcək".

Ərdoğan daha sonra qeyd edib ki, "Qardaşım İlham Əliyev beləliklə mərhum Heydər Əliyevin vəsiyyət etdiyi arzusunu da yerinə yetirib. Bu vəsilə ilə güclü Azərbaycanın təməllərini atan ümummilli lider Heydər Əliyevi buradan rəhmətlə anıram. Azərbaycan qardaşım İlham Əliyevin liderliyi altında dastan yazmağa davam edəcək.

İllərdir doğulduğu yerlərdən uzaq qalan, məmləkət həsrəti ilə yanan 1 milyon qaçqın və məcburi köçkün qardaşımız artıq doğulduqları ərazilərə qayıtmaq üçün səbirsizlənir".

İnşallah, ən qısa müddətdə bu qardaşlarımızın həsrətinin sona çatacağına inanırıq. Əziz qardaşlarım, Dağlıq Qarabağa dağıntı, qətliam və göz yaşından başqa heç nə gətirməyənlərin də artıq ağıllarını başına yığması lazımdır. Erməni rəhbərlər xalqın resurslarını Azərbaycanın ərazilərini işğal altında saxlaya bilmək üçün istifadə edib. Halbuki bu resurslar mənasız müdafiə xətlərinə, silahlara, gözlərini kin və qan bürümüş rəhbərlərin ehtiraslarına xərclənməmiş olsaydı, bu dəqiqə mənzərə tamam fərqli olardı. Erməni siyasətçilərin bunu yaxşı təhlil edərək sülh və sabitliyin əsasında gələcəyini qurması yolunda cəsur addımlar atacağına ümid edirik. Ermənistan xalqının da özlərini keçmişin yalanları ilə başını qatan, kasıblığa məhkum edən diasporun əsarətindən qurtulmasını diləyirik. Qərb imperialistlərinin dəstəkləməsi ilə heç nəyə nail olunmayacağı görülməli, düşmənçilik yerinə mehriban qonşuluq əsasında münasibətlər yenidən müzakirə olunmalıdır. Ermənistan xalqı Qarabağda yaşananlardan dərs çıxararsa, bu, bölgədə yeni bir dövrün başlanğıcı olacaq.

Qardaşım İlham Əliyev Azərbaycan xalqının yaşadığı bu qədər kədərinə rəğmən, daimi sabitlik üçün təqdirəlayiq duruş sərgiləyir.

Şəhidlərimizin fədakarlığı nəticəsində Azərbaycan ərazi bütövlüyünü yenidən təmin edib. Artıq Azərbaycan əraziləri illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşub. Şuşanın başındakı duman artıq dərdli deyil. Əsir xarıbülbül artıq azaddır və daha parlaq açacaq. Köndələn çayı artıq daha coşqun axacaq, Araz mahnısını daha yaxşı oxuyacaq, Qarabağ şikəstəsini oxuyan nəfəslər daha güclü çıxacaq. Arazı ayırdılar, qum ilə doyurdular. Mən səndən ayrılmazdım, zülm ilə ayırdılar. Ay Laçın, Can Laçın, mən sənə qurban Laçın! Gözəlliyinə qurban olduğumuz Laçın artıq azaddır. Laçın kimi, Şuşa kimi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər də artıq azaddır.

Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru Paşanın, Ənvər Paşanın, Qafqaz İslam Ordusunun igidlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür.

Bu gün burada ürəkdən bir daha təkrarlamaq istəyirəm. Qarabağ Azərbaycandır. Qarabağ artıq Ana Vətəni ilə qucaqlaşıb. 30 illik həsrət sona çatıb. Bundan sonra Türkiyə və Azərbaycan olaraq hədəfimiz bu əraziləri daha zəngin, daha inkişaf edilmiş, uşaqlarımız üçün daha yaşanılası yer halına gətirmək üçün mübarizə etməkdir. Türkiyə və Azərbaycan çiyin-çiyinə verdikcə çətinlikləri aşmağa, uğurlar əldə etməyə davam edəcək".

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirildi

***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.***

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası İnzibati



Xətalar Məcəlləsinin və "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun bəzi müddəalarının şərh edilməsinə dair Xətai Rayon Məhkəməsinin müraciətinə baxılaraq, icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Müraciətə mahiyyəti üzrə tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun yanvarın 7-nə təyin edilmiş iclasında baxılacaq.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur
Sifariş 252.
Tiraj:2500

# Koronavirusa yoluxanların sayı azaldı - 38 nəfər öldü

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına daha 4219 yeni yoluxma faktı qeydə alınıb, 3562 nəfər sağalaraq evə buraxılıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 38 nəfər vəfat edib. Azərbaycanda COVID-19-a yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar aparılan testlərin sayı açıqlanıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, ölkədə son sutka ərzində 18006, hazırkı dövrədək isə 1902584 test aparılıb.

# İlham Əliyevdən Ermənistana xəbərdarlıq

## Prezident: "Zəngəzur, Göyçə, İrəvan mahalı da bizim torpaqlardır"



***Xəbər verildiyi kimi, Bakının Azadlıq meydanında Vətən müharibəsində qələbəyə həsr olunan Zəfər paradı keçirilib. Paradda çıxış edən Prezident İlham Əliyev Azərvaycanın möhtəşəm qələbəsi ilə bağlı önəmli mesajlar verib. Ölkə başçısı deyib ki, 44 gün ərzində Azərbaycan öz istədiyinə nail oldu, ədaləti bərpa etdi:***

"Hər gün Azərbaycan irəli gedirdi. 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkiləк. Biz Ermənistanın 30 ilə yaxın bir müddət ərzində qurduğu istehkamları yararaq keçmişdik. Bu istehkamlar elə qurulmuşdu ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi. Azərbaycan əsgər və zabiti böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, eyni zamanda Suqovuşan qəsəbəsi, Hadrut qəsəbəsi, Xocalı rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir hissəsi, Murovdağ silsiləsi, Laçın rayonunun cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi, orada Azərbaycan bayrağı qaldırıldı. Şanlı müharibəmizin yekunu da Şuşa şəhərində vuruldu...".

Prezident daha sonra deyib: "Ermənistan bizimlə rəqabət apara bilmədi. Mən dəfələrlə son 17 il ərzində demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan öz işğalçı qüvvələrini çıxarmasa hərbi yollarla biz bu məsələni həll edəcəyik. 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə bizim Konstitusiyamıza və müqəddəs "Qurani-Kərimə" əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Və bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi...

Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad olunan sonuncu şəhər oldu. Şuşa düşməndən azad olunandan sonra düşmənin beli qırıldı. Düşməni təslim olmağa məcbur etdik. Şuşanın azad edilməsi tarixi hadisədir. Bizim ordumuz - qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək qayalar vasitəsilə dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşdə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı...

Azərbaycan 30 ilə yaxın işğal altında yaşayırdı. 90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olub. Əslində, Ermənistanın aqresiv təcavüzkar siyasəti hələ 80-ci illərin sonlarından başlamışdı. O vaxt indiki Ermənistan respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb...

Ali Baş Komandan qeyd edib ki, dəfələrlə Azərbaycan xalqına müraciət edəndə biz daha güclü olmalıyıq deyirdi: "Və nəyi, necə, nə vaxt etmək lazımdır biz bilirik. Və həyat bunu göstərdi ki, vaxtı-vaxtında atılmış addımlar bütün gücümüzü səfərbər edib, bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Və bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycan müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi. Ermənistanı məğlub etdi. Ermənistan Ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə də eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq".

Ali Baş Komandan deyib ki, Azərbaycan 30 ilə yaxın işğal altında yaşayıb: "90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olmuşdur. Ermənistanın aqresiv, təcavüzkar siyasəti hələ 80-ci illərin sonlarından başlanmışdı. O vaxt indiki Ermənistan Respublikasında yaşamış yüz minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb. Ancaq Ermənistan rəhbərliyi o vaxt yüz minlərlə azərbaycanlını öz doğma torpaqlarından didərgin salmışdır. Ondan sonra Dağlıq Qarabağda eyni mənzərə müşahidə olunurdu. Ermənistan tərəfi zor gücü ilə Azərbaycanın dinc əhalisinə qarşı hərbi cinayət törətmişdir, Xocalı soyqırımı törətmişdir. Ondan sonra Şuşa şəhərinin 1992-ci ilin may ayında və Laçın şəhərinin işğala məruz qalması Ermənistanla

Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. 93-cü ili aprel ayında Kəlbəcər rayonunun işğal altına düşməsi bizim vəziyyətimizi daha da ağırlaşdırdı. Və faktiki olaraq sonrakı işğalçılıq siyasətinin davam etdirilməsinə səbəb oldu".

Prezident sonra "Qarabağ Azərbaycandır" məşhur ifadəsi ilə nitqini bitirib.

# Bu dövlət qurumlarında vakant vəzifələr var - SİYAHI



***Dövlət orqanlarında vakant inzibati vəzifələrin tutulması üçün ümumi müsahibə elan edilib.***

Dövlət İmtahan Mərkəzindən "Unikal"a bildirilib ki, ümumi müsahibədə iştirak etmək istəyən namizədlər 11 yanvar 2021-ci il saat 18:00-dək Mərkəzin internet portalına məlumatları daxil edərək qeydiyyatdan keçməlidir.

7 dövlət orqanında inzibati vəzifələrin 4-5-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib.

Mərkəzi icra hakimiyyəti orqanı və məhkəmə hakimiyyəti orqanlarında olmaqla elana çıxarılan vəzifələrin 6-sı dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər) və 14-ü B növü vəzifələrə (inzibati icraçı) aiddir.

Ümumi müsahibəyə çıxarılan vəzifələr arasında ən yüksək vəzifə inzibati vəzifələrin 4-cü təsnifatına uyğun olan Energetika Nazirliyində şöbə müdiri vəzifəsidir. Ümumilikdə isə, Ekologiya və Təbii Sərvətlər Nazirliyində 7, Hesablama Palatasında 3, Dövlət Statistika Komitəsində 3, Dövlət Turizm Agentliyində 3, Energetika Nazirliyində 2, Təhsil Nazirliyində 1, Şəki Apellyasiya Məhkəməsində 1 vəzifə olmaqla 20 vakant vəzifə ümumi müsahibə elanına çıxarılıb.

Ümumi müsahibə üzrə sənəd qəbulunun təkmilləşdirilməsi, vətəndaşların rahatlığının təmin edilməsi, vətəndaşların vaxt itkisinin və maliyyə xərclərinin qarşısının alınması məqsədilə Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi müsahibə üzrə sənəd qəbulu yalnız elektron qaydada həyata keçirilir.

Ümumi müsahibədə iştirak etmək istəyən namizədlər "Dövlət qulluğu üzrə müraciət Forması" vasitəsilə 10 dekabr 2020-ci il tarixindən 11 yanvar 2021-ci il saat 18:00-dək Mərkəzin internet portalına məlumatları daxil edərək qeydiyyatdan keçməlidir.

# İcmalar tarixi qələbə ilə bağlı bəyanatla çıxış ediblər



***Azərbaycandakı gürcü icması, Pakistan icması və Dünya Axıska Türkləri Birliyi Azərbaycan ordusunun əldə etdiyi tarixi qələbə münasibətilə bəyanatlarla çıxış ediblər.***

Bu barədə "Unikal"a Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib. Bəyanatlarda deyilir:

"Azərbaycan xalqını, Prezident İlham Əliyevi və Birinci vitse-prezident Mehriban Əliyevanı Zəfər Günü münasibətilə təbrik edir, Şəhidlərə Allahdan rəhmət, qazilərə şəfa diləyirik.

Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan ordusunun torpaqlarımızı Ermənistanın işğalından azad etməsi ilə qürur duyur və iftixar hissi keçirdiyimizi bildiririk".

Bəyanatda bütün dünyada sülhpərvər, mültikultural və tolerant ölkə kimi tanınan, haqlı və ədalətli mövqeyə malik olan Azərbaycanın beynəlxalq hüquqa əsasən Qarabağı işğaldan azad etdiyi, xalqımızın özünümüdafiə və ərazi bütövlüyünü təmin etmək hüquqlarını həyata keçirdiyi nəzərə çatdırılıb.

Sentyabrın 27-dən başlayan Vətən müharibəsi zamanı Azərbaycandakı bütün icmaların və diaspor təşkilatlarının Azərbaycana mənəvi dəstək olduqları vurğulanıb: "Vətən müharibəsi sübut etdi ki, Azərbaycan xalqı vahid, yenilməz və bölünməzdir".

# Bəzi deputatlar Zəfər paradına buraxılmayıb

***Milli Məclisin deputatları yenidən koronavirus testindən keçirilib. Ümumiyyətlə, hər plenar iclas öncəsi deputatların COVID-19 virusuna yoluxub-yoluxmamasını dəqiqləşdirmək artıq prosedur olub.***

Modern.az-ın əldə etdiyi məlumata görə, Zəfər paradına heç də deputatların hamısı qatıla bilməyib. Əsasən paradda komitə sədrləri və müavinləri iştirak edib.

Parada qatıla bilməyən komitə sədrləri arasında Siyavuş Novruzov da olub.

Zəfər paradında iştirak üçün Siyavuş Novruzova dəvət göndərilsə də, koronavirus testinin pozitiv çıxması onun tədbirə qatıla bilməməsi ilə nəticələnib. Ancaq bu virus səbəbiylə parada qatıla bilməyən deputat tək Siyavuş Novruzov deyil. Xeyli sayda deputat virusa yoluxduğundan Zəfər paradını, tarixi hadisəni canlı izləyə bilməyib. Qeyd edək ki, sabah, dekabrın 11-də Milli Məclisin növbəti plenar iclası keçiriləcək.

# “Vətəndaşlara pul paylamaqdan başqa yol yoxdur”

## Natiq Cəfərli: “Əgər bu 20-25 il ərzində dayanıqlı iqtisadi sistem qurulsaydı, indi belə bir çətin vəziyyətlə üzləşməzdik”



***Məlum olduğu kimi, koronavirus pandemiyası ilə əlaqədar yenidən sərtləşdirilmiş karantin tətbiq olunmağa başalanılıb. Qərara görə bir sıra müəssisələrin fəaliyyəti dayandırılıb. Təbii ki, bu da ciddi iqtisadi problemlərə səsbəb olur. “Unikal” qəzetinə müsahibə verən Real Patiyanın icra katibi, iqtisadçi ekspert Natiq Cəfərli ilə söhbətimiz də bu mövzu ətrafında oldu.***

***-Natiq bəy, koronavirus pandemiyasının bütün dünyada iqtisadiyyata ciddi təsirləri oldu. Amma deyəsən, Azərbaycanda daha ağır vəziyyət yaranır?***

-Bəli. Koronavirus pandemiyası ciddi iqtisadi problemlərə yol açıb. Bu baxımdan, 2020-ci il iqtisadi və sosial anlamda çöküş ilidir. Biznes can verir, vətəndaşın gəlirləri azalıb, alıcılıq qabiliyyəti düşüb, ÜDM 4%-dən çox azalıb. Görəsən, Hökumət bəs nə fikirləşir? İnsanlar dözdü, hamı Qələbəyə kökləndi, hamı Qarabağ eşqi ilə bütün çətinliklərə göz yumdu . Əsgərimiz və Ordumuz möhtəşəm hərbi qələbə qazandı, bəs ölkə yaşamalı, hərbi qələbəni iqtisadi, sosial, siyasi üstünlüyə çevirməlidir axı. Təəssüf ki, bu gün bunu deyə bilmirik.

Ola bilməz ki, hökumət qadağaların əvəzini verməsin, belə olmur, evdə uşağa TV yə çox baxmağı qadağan edəndə də əvəzinə 1 şokolad verirsən - qadağalar ancaq belə işlək olur. İndi nə etsin millət?! Orta sinif yox olmaq üzrədir, halbuki istənilən ölkənin sabitliyini ”zopa” yox, məhz orta sinif təmin edir - bu zümrə məhv olsa, sabitliyi necə qoruyacağıq? Kasıblardan heç danışmıram da. Hər dəfə marketə gedəndə heç vaxt dilənçilik etmədiyi hər halından bəlli olan onlarla adam görürəm. Belə vətəndaşlar çoxdur, nə olacaq onların halı? Kiçik-orta sahibkarlardan danışmağa dəyməz - ən yaxşı halda onların 30%-i pandemiyadan ”sağ”, yəni ayaqda qalmaqla çıxa biləcək. İtirilmiş 70% isə yüzminlərlə iş yerinin də itməsi deməkdir.

Maraqlıdır, hökumət nümayəndələri nə fikirləşirlər. Yaxşı, Neft Fondunda bir az pul var, ona arxayındırlar? Fond rezindəndi ki, həm işğaldan azad edilən torpaqları bərpa etsin, həm pamdemiyanın fəsadlarını təmin etsin, həm də bir ”durbadan” asılı olan büdcəni doldursun. Məncə, hökumət nümayəndələri papaqlarını çıxarıb qabaqlarına qoysunlar və yaxşı-yaxşı fikirləşsinlər, vəziyyət çox qəlizdi.

***-Yaxşı, Sizin vəziyyətdən çıxış üçün təklifiniz nədir?***

-Çıxış yolu ilə bağlı hər hansı təklif verməzdən öncə keçmişə dönüb baxmaq lazımdır. Uzun illərdir, Azərbaycanda iqtisadiyyatın çoxşaxəli olması, ixracatın çoxşaxəli modelə keçidi üçün, kiçik və orta sahibkarlığın daha dayanıqlı inkişafı üçün müxtəlif təkliflər vermişik, məsələlər gündəmə gətirmişik. Pandemiyadan öncə bu addımlar atılsaydı, belə bir ağır vəziyyət yaranmazdı.

***-Axı, digər ölkələrdə də ciddi problemlər yaranıb...***

-Bəli. Bütün ölkələrdə pandemiyanın vurduğu ciddi zərərlər var, amma harada kiçik və orta sahibkarlığın daha dayanıqlı modeli varsa, o ölkələrdə bu sürəc daha rahat keçir. Yəni, biz pandemiyaya qədər olan dövrdə görməli olduğumuz işləri görməmişik. Ona görə də pandemiyanın vurduğu dalğavari zərbələr iqtisadiyyata daha mənfi təsir göstərir. İndi artıq fakt qarşısında qalmışıq. Mart ayından etibarən ölkə iqtisadiyyatı demək olar ki, durma nöqtəsinə gəlib. Çalışan ancaq neft-qaz sektorudur və demək olar ki, ölkə onun hesabına dolanır. Bir də ərzaq ticarətidir. Yəni, insanlar maaşını, təqaüdünü, qazancını ərzağa xərcləyir. Bunun hesabına da ticarət dövriyyəsi ayaqda qalır. Qeyri-ərzaq ticarəti, turizm, xidmət sektorları demək olar ki, sıradan çıxıb, yaxud da ciddi zərbələr dəyib. Onların özlərinin ayağa qalxmasına imkan yoxdur. Görünən odur ki, 2021-ci ildə də bu problemlər davam edəcək. Çünki xroniki problemlər var idi ki, həll olunmadı. Biz aprel ayında təklif eləmişdik ki, icarə ilə bağlı məsələ həllini tapsın. Bu da vaxtında həll olunsaydı, indi böyük problemə çevrilməzdi. Özünüz də monitorinq aparıb baxa bilərsiniz. Şəhərin mərkəzində və mərkəzə yaxın hissələrdə son iki-üç ayda icarə elanlarının sayı artıb. Çünki insanlar icarə haqqını verə bilmirlər, obyekt sahibləri onları çıxarmaq məcburiyyətində qalır. Sonra da başqa kimsə gəlib icarəyə götürmür deyə, obyektlər boş qalır.

***-Hökumət bu məqamda hansı addımları ata bilər? Hər sahibkara, hər obyekt yiyəsinə “əl atmaq” nə qədər mümkündür axı?***

-Biz mart-aprel aylarında deyirdik ki, biznes kreditlərinin verilməsi ilə bağlı həll yolu tapılmalıdır. Dövlət, dövlət və özəl banklar, bir də vətəndaşlar arasında işlək bir mexanizm yaradılmalıdır. Doğrudur, dövlət özəl banklara borcları silməyi tələb edə bilməz, amma elan edərdi ki, qarşıdakı dövrdə onların borclarından çıxa bilər. Vergi yükündən güzəşt edə bilərdi. Yaxud dövlət özəl banklara faizsiz kredit verə bilərdi ki, onlar sahibkarlara və əhaliyə güzəşt eləsinlər.

Vətəndaşlara sosial yardımlarla bağlı çox qəribə bir mexanizm təklif olundu. Nəyə görə say məhdudiyyəti qoyuldu? 190 manatla bağlı ilkin 200 min elan elədilər, sonra 600 minə qaldırdılar. Bu 600 min rəqəmi hardan tapıldı, bu günə qədər izahı yoxdur. İndi yenə həmin səhvlər təkrar olundu, elan edildi ki, 600 min adama o vəsait veriləcək. Bəs martdan bu yana işsiz qalanlar yoxdurmu, təbii ki, var. Amma yenə minlərlə insan işsiz ola-ola o pulu ala bilməyəcək. Bu kimi bir çox problemlər ortaya çıxıb, biz bunu zaman-zaman gündəmə gətirdik. Təəssüf ki, biz hökumət tərəfindən bunların institusional həllini görmədik.

***-Natiq bəy, pandemiya səbəbindən tətbiq olunan karantin rejimindən bir çox obyektlər qapadılır. Görünən odur ki, bu qapanma hələ uzun çəkəcək. İndi bu sahibkarlar krediti götürüb nə edəcəklər, harda, nəyə, necə xərcləyəcəklər? Bundan əlava, iş yeri bağlanan, yaxud işsiz adam 190 manatla nə edəcək, ailəsini necə saxlayacaq?***

-Qəbul etməliyik ki, ağır bir dönəmdir. Amma bunun çox qəliz həll yolları yoxdur. Dünyanın bir çox qəliz iqtisadi sistemləri olan ölkələr də bu çətinliklərlə üzləşdi. Amma onlar çox asan həll yolları təklif elədilər. Çünki qəliz həll yolları işləmir. Sadə yolu seçdilər, insanlara, şirkətlərə pul payladılar. Amerikada hər varlı-kasıb, hər kəsə, uşaqlara min dollara yaxın, böyüklərə 2500 dollar pul verdilər. İsveçrədə də, Almaniyada da, bir çox ölkələrdə bu praktika tətbiq edildi. Şirkətlərə 0 faizli, uzun müddətli kreditlər verirlər ki, ayaqda qala bilsinlər. Yaponiyada da, Koreyada da eyni tədbirlər görüldü. Belə baxanda, çox asan və primitiv görünən yoldur, amma başqa yol yoxdur. Ona görə dünyada təşviq paketlərinin həcmi tarixində görünməyən bir səviyyəyə qalxıb - camaata 15 trilyon dollar pul paylayıblar.

***-Azərbaycan dövləti o pulu haradan alsın? Bir tərəfdən heç yer işləmir, pul qazanılmır, üstəlik ötənilki vergilər sahibkarlara qaytarılır. O biri tərəfdən də deyirsiz ki, neft pullarını elə-belə xərcləmək olmaz. Yaxşı, bizdə hansı pulu camaata paylayaq?***

-Razıyam sizinlə, tamamilə doğrudur. Amma suala cavab vermək üçün yenidən əvvələ qayıdırıq. Əgər bu 20-25 il ərzində dayanıqlı iqtisadi sistem qurulsaydı, indi belə bir çətin vəziyyətlə üzləşməzdik. İndi elə bir vəziyyətə gəlmişik ki, yuxarı tüpürürsən, bığıdır, aşağı tüpürürsən saqqal. İndi Neft Fondundan başqa bizim “təhlükəsizlik yastığı”mız yoxdur. Ya böyük həcmdə beynəlxalq kreditlər götürülməlidir, bu da gələcək üçün ağır yükdür. Ya da Neft Fondundan xərcləməyə məcburuq, başqa yol qalmayıb.

Devalvasiyaya getməkdən başqa da yol yoxdur. Mən bunu deyəndə tənqidlərə, bəzən təhqirlərə də məruz qaldım. Neft Fondundakı vəsaitlərin dollar ekvivalentində qorunması üçün müəyyən devalvasiya proseslərinə getmək lazımdır. İxracatın önü tam açılmalıdır. Bütün maneələr aradan qaldırılmalıdır. Rusiya bizə pomidorla, almaya ixracat qadağası qoydu. Biz niyə Rusiyadan asılı vəziyyətdəyik? Kənd təsərrüfatımızın 80 faiz ixracatı niyə Rusiyadır ki, belə bir qadağa olanda çətinliyə düşək? Bəzən də belə siyasi təzyiq vasitəsi kimi istifadə edir. Niyə Orta Asiyaya, Uzaq və Orta Şərqə, Avropa bazarlarına açılmadıq? Niyə Avropa Birliyi ilə saziş imzalamırıq. Ümumdünya Ticarət Təşkilatına üzv olmuruq? Bu niyələr var ki, onlar vaxtında həll olunsaydı, indi bu dövrü daha yüngül keçirəcəkdik. Azərbaycanın iqtisadiyyatı son illər ərzində o immuniteti formalaşdıra bilmədi. Bir borudan asılı vəziyyətdə qaldıq. Neçə ildir bu barədə danışırıq, təəssüf ki, eşidən yoxdur. İndi elə bir məqama gəldik ki, vətəndaşlara pul paylamaqdan başqa yol yoxdur.

***Z.Məmmədli***

# Bakıda möhtəşəm Zəfər paradı keçirildi

***Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Zəfər paradında iştirak ediblər.***

"Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına müdafiə nazirinin müavini, "Zəfər" ordenli general-leytenant Kərim Vəliyev komandanlıq edib.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi nəzərdə tutulur. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş olundu.

Hərbi orkestr "Azərbaycan fanfarası"nı ifa etdi.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verdi.

Dövlət başçıları əsgərləri salamladılar.

Hərbi orkestr Azərbaycanın və Türkiyənin dövlət himnlərini ifa etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış etdi.

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

Dövlət başçılarının çıxışlarından sonra Zəfər paradı başladı. Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət bayrağı və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirildi.

Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Məmmədovun başçılıq etdiyi döyüş bayraqdarları qrupu Böyük Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarını Azadlıq meydanına gətirdi.

Sonra Vətən müharibəsində müqəddəs döyüşlərdə əsl qəhrəmanlıq, şücaət, rəşadət və yüksək peşəkarlıq nümunələri göstərərək xalqımıza Böyük Qələbənin sevincini yaşadan Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları tribunanın önündən keçdilər. Üç kolondan ibarət parad heyətinə Xüsusi Təyinatlı Qüvvələrin komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq edir.

Ardınca Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları birinci dərəcəli kapitan Zaur Quliyevin başçılığı ilə tribuna önündən keçdilər.

Sonra Xarici Kəşfiyyat Xidmətinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət parad heyətləri tribunanın önündən addımladılar. Dövlət Təhlükəsizliyi Xidmətinin parad heyətinə general-mayor Rövşən Muxtarov başçılıq edirdi.

Daha sonra polkovnik Səid İsayevin başçılığı ilə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, polkovnik Taleh Məşədiyevin rəhbərliyi ilə Birinci Ordu Korpusunun döyüşçüləri, polkovnik Nemət Müseyibovun başçılığı ilə İkinci Ordu Korpusunun, polkovnik-leytenant Kamran Ağabalayevin rəhbərliyi ilə Üçüncü Ordu Korpusunun, polkovnik İlham Məmmədovun başçılığı ilə Dördüncü Ordu Korpusunun və polkovnik-leytenant Dəyanət Müslümovun rəhbərliyi ilə Altıncı Ordu Korpusunun hərbi qulluqçuları tribuna önündən keçdilər.





Raket və Artilleriya Qoşunlarının hərbi qulluqçuları da tribuna önündən mətin addımlarla irəlilədilər. Parad heyətinə polkovnik İsmixan Məmmədov başçılıq edirdi.

Zəfər paradında qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən keçdilər.

Dövlət Sərhəd Xidmətinin parad heyətləri general-mayor Rəsul Tağıyevin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının parad heyəti general-mayor İnqilab Muradovun, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularından ibarət parad heyəti isə mayor Eldar Quliyevin rəhbərliyi ilə mətin addımlarla Azadlıq meydanına daxil oldular.

Sonra general-mayor Füzuli Salahovun rəhbərliyi ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyəti, general-mayor Bəkir Orucovun başçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursant və zabitlərinin keçidi oldu.

Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına Hərbi Liseyin kursantları ilk dəfə olaraq Azadlıq meydanında keçirilən paradda iştirak edirdilər.

Parad heyəti general-mayor Məhəmməd Həsənovun başçılığı ilə tribuna önündən keçdilər.

Vətən müharibəsində Böyük Qələbəyə həsr olunmuş Zəfər paradını Əməkdar incəsənət xadimi polkovnik-leytenant Rüfət Axundzadənin dirijorluğu ilə birləşmiş hərbi orkestr müşayiət edirdi.

Daha sonra hərbi texnikaların keçidi başladı.

Vətən müharibəsində Qələbəyə həsr olunan Zəfər paradına Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri dənizdən dəstək verdi. Dənizdə fəxri keçid edən hərbi gəmilərimiz yüksək döyüş hazırlığı nümayiş etdirdi.

"Dəmir yumruq" əməliyyatının - Vətən müharibəsinin qazilərinin Zəfər paradında tribuna önündən keçidi oldu.

Azadlıq meydanına 44 günlük Vətən müharibəsində düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qismi gətirildi. Döyüşlərdə qənimət götürülmüş istifadəyə yararlı texnikalar - "KamAZ" markalı avtomobilin qoşqusunda D-30, "Ural" markalı avtomobilin qoşqusunda D-20 topları, qoşqu üzərində zenit qurğuları, "ŞİLKA", "OSA-1T", "KUB" zenit-raket kompleksləri, piyadaların döyüş maşınları (PDM), "T-72" tankları, eləcə də istifadəyə yararsız texnikalar - zirehli "UAZ Patriot", "UAZ Hunter" minik, "ZİL-131", "Ural", "KamAZ" markalı yük avtomobilləri, 122 millimetrlik "Qvozdika" özüyeriyən artilleriya qurğusu, BM-21 "Qrad" qurğuları, PDM-1 və PDM-2 texnikaları, T-72 tankları qəhrəman Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr vurduğunun əyani təsdiqidir.

Bundan sonra xüsusi təyinatlı avtomobil, zirehli texnika və silah sistemləri kolonu Azadlıq meydanına daxil oldu. Kolona "Qarabağ" ordenli general-leytenant Nizam Osmanov başçılıq edirdi.

Azadlıq meydanında keçid edən, üzərində 12,7 millimetrlik NSV pulemyotları, tank əleyhinə idarə olunan "SPIKE-ER", "NLOS", "LAHAT" raketləri, 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılan "SandCat-Stormer" zirehli idarəetmə, çevik hərəkət maşınları, piyada daşıyan zirehli maşınlar, "Kobra" və "BTR-82A" zirehli transportyorları, PDM-2 və PDM-3 texnikaları, "T-72", "T-90S" tankları Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirdi.

Daha sonra Azadlıq meydanında Hava Hücumundan Müdafiə silahları sistemləri kolonunun keçidi oldu. Kolona müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı, "Zəfər" ordenli general-leytenant Ramiz Tahirov başçılıq edirdi. Tribuna önündən modernləşdirilmiş "OSA-1T", "S-125 TM", "BUK-MB", "İldırım" zenit-raket komplekslərinin, "S-300 Favorit" sistemlərinin keçidi oldu. Ardınca Vətən müharibəsində Qələbənin əldə edilməsində çox mühüm rol oynayan "Orbiter-1KM" - "İti qovan", "Orbiter-2B", "Orbiter-3B", "Orbiter-4", "Aerostar-BP", "Heron" pilotsuz uçuş aparatları (PUA), eləcə də ən müasir PUA-lar - "Bayraktar-TB2", habelə "Hermes-450", "Hermes-900", "Quzğun" və "Harop" PUA-ları nümayiş olundu.

Ardınca Azadlıq meydanına artilleriya silahları sistemlərinin kolonu daxil oldu. Kolona "Zəfər" ordenli general-mayor Ağamir Sultanov başçılıq edirdi. Meydanda özüyeriyən haubitsa və artilleriya qurğuları - 152 millimetrlik "Akasiya", 152 millimetrlik "MSTA-S", 203 millimetrlik "Pion", eləcə də 220 millimetrlik "TOS-1A" ağır odsaçan, tank əleyhinə "Xrizantema-S" kompleksləri, "DANA" özüyeriyən top-haubitsaları, "Qrad", "RM-70/85", "BM-21", "Smerç" yaylım atəşli reaktiv sistemləri, "TR-300 Qasırğa", "Ekstra" taktiki, "Polonez" və "LORA" əməliyyat-taktiki raket sistemlərinin keçidi oldu.

Bundan sonra Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başladı. "Qarabağ" ordenli polkovnik Həsən Əlövsətovun rəhbərlik etdiyi "Mİ-17" hərbi nəqliyyat-desant helikopterləri cütlüyü Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları ilə Bakı buxtasının üzərindən uçaraq Zəfər paradının iştirakçılarını salamladı. Bunun ardınca Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Rəşad Nadirovun başçılığı ilə "Mİ-35" hücum helikopterləri qrupunun uçuşu oldu. Polkovnik-leytenant Rəhim Quluzadənin başçılığı ilə "LAHAT" və "SPAYK" uzunmənzilli raketləri ilə silahlanmış "Mİ-17" helikopterlərinin və "Qarabağ" ordenli polkovnik Zaur Rüstəmovun rəhbərliyi ilə "MİQ-29" çoxməqsədli qırıcı təyyarələr qruplarının uçuşları da maraqla qarşılandı. Zəfər paradında döyüş təyyarə və helikopterlərinin çıxışını müasir silahlarla təchiz olunmuş "Su-25" hücum və hava dəstək təyyarələr qrupu tamamladı. Vətən Müharibəsi Qəhrəmanı general-mayor Namiq İslamzadənin başçılıq etdiyi qrupun səmada Azərbaycan Respublikasının dövlət bayrağının təsvirini yaratması üçrəngli şanlı bayrağımızın daim yüksəklərdə dalğalanacağını təcəssüm etdirdi.

Vətən müharibəsinin iştirakçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu Zəfər paradı 44 günlük müharibədə Azərbaycan Ordusunun Böyük Qələbəsini bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi. "Dəmir yumruq" əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan Vətən müharibəsində Rəşadətli Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı Böyük Qələbə müasir müstəqil Azərbaycan dövlətinin hərbi qüdrətinin, iqtisadi gücünün nümayişi ilə yanaşı, xalqımızın qələbə əzminin də əyani təsdiqidir.

Yaşasın, müstəqil Azərbaycan Respublikası! Yaşasın, müzəffər Azərbaycan Ordusu! Yaşasın, sarsılmaz və əbədi Azərbaycan-Türkiyə qardaşlığı!

***İnformasiya şöbəsi***




## Onlara "Milli Qəhrəman təqaüdü" təyin edildi

***Prezident İlham Əliyevin dünən imzaladığı Sərəncamla "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmiş general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və ehtiyatda olan baş çavuş İbad Hüseynov üçün Prezidentin aylıq təqaüdü təyin edilib.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) "Unikal"a verilən məlumata görə, digər sosial təminat növləri kimi, "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmiş şəxslər üçün Prezidentin aylıq təqaüdünün təyinatı da bu təqaüdə hüquq yaranan anda proaktiv xidmət olaraq elektron qaydada, avtomatik təyin olunur. Bunun üçün vətəndaşın və ya ailə üzvlərinin müraciətinə və hər hansı sənəd təqdim etməsinə də ehtiyac qalmır.

Aylıq təqaüd (1500 manat) Milli Qəhrəmanlarımızın özlərinə, şəhidlik zirvəsinə ucalmış Milli Qəhrəmanlarımızın isə ailə üzvlərinə təyin olunaraq ödənilir.

## "YAŞAT" Fonduna ianə köçürmə imkanları genişləndirildi

***Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli fərmanı ilə, ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədi ilə yaradılmış "YAŞAT" Fonduna ediləcək ianələrin Azərbaycan Mərkəzi Bankının operatoru olduğu "Hökumət Ödəniş Portalı" vasitəsilə də qəbulu imkanı yaradılıb.***

Bu barədə "Unikal"a AMB-dən məlumat verilib. İctimaiyyətin diqqətinə çatdırılıb ki, bütün hüquqi və fiziki şəxslər ölkədə fəaliyyət göstərən bankların və milli poçt operatoru olan, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə məxsus "Azərpoçt" MMC-nin "Hökumət Ödəniş Portalı"na inteqrasiya olunmuş filial və şöbələrində istər nağd formada, istərsə də nağdsız ödəniş alətləri vasitəsilə, o cümlədən portalın internet səhifəsindən (https://gpp.az/yasat) və mobil tətbiqindən (Android və iOS platformalı) istifadə etməklə 24/7/365 rejimində Fondun hesablarına vəsaitlərini köçürə bilərlər.

AMB-də açılmış hesabların rekvizitləri barədə məlumatlar Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin rəsmi internet səhifəsində (https://azvision.az/redirect.php?url=http://vxsida.gov.az/az/article/1484) yerləşdirilib.

"YAŞAT" Fondunun bank rekvizitləri

Bankın adı: Azərbaycan Respublikası Beynəlxalq Bankı Mərkəzi filial

Bankın ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, Z.Tağıyev küç. 3

Bankın telefonları: (+99412) 937

Kod: 805722

VÖEN: 1701393691

Müxbir hesab:
AZ03NABZ01350100000000002944

S.W.İ.F.T Cod: IBAZAZ 2X

Benefisiarın adı: YAŞAT FONDU

VÖEN: 1701393691

Hesablaşma hesabları:
AZN AZ76IBAZ38090019447968925204
TRY AZ98IBAZ38190019497968925204
USD AZ66IBAZ38190018407968925204
EUR AZ46IBAZ38190019787968925204
RUR AZ83IBAZ38190018107968925204
GBP AZ61IBAZ38190018267968925204

# Ziya Məmmədovun yeni ümidi...

## Sabiq "nəqliyyat şefi" Trampın prezident seçilməməsinə sevinib?

***Gələn ilin yanvar ayının 20-də Donald Tramp Ağ Evi ABŞ prezidenti kimi tərk edəcək. Prezident seçkilərində rəqibi Co Baydenə məğlub olan Trampın yenidən fəal biznesə qayıdacağı gözlənilir.***



Tramp hələ prezident kimi toxunulmazlığını saxlasa da, onun hakimiyyətdən çəkiləndən sonra xüsusilə, vergilərdən yayınmaqla bağlı ciddi sorğu-suala çəkiləcəyi gözlənilir. Məsələn, Nyu-York ştatının vergi orqanları Donald Trampın atasından qalan mirası qeyri-qanuni şəkildə mənimsəməsi ilə bağlı araşdırmaya yenidən start verməyə hazırlaşır.

Bildirilir ki, ölkə başçısı vergilərdən boyun qaçırmaqla 413 milyon dollar mənimsəyib. İki gün əvvəl isə prezidentin qızı İvanka Tramp 2017-ci ildə atasının "Trump Hotel"də keçirilmiş andiçmə mərasimi zamanı yüksək qiymətlərlə əlaqədar dindirilib. O, beş saat ərzində Kolumbiya dairəsinin Baş Prokurorluğunda ifadə verdiyini bildirib. Xanım Tramp hesab edir ki, onun dindirilməsi siyasi motivli qisasdır. Qeyd edək ki, daha əvvəl İvanka atasının prezidentlik müddəti bitdikdən sonra öz siyasi karyerasına başlaya biləcəyini söyləmişdi.

Lakin Azərbaycanın sabiq nəqliyyat naziri Ziya Məmmədovu hazırda bütün bunlardan daha çox düşündürən məsələ var. Məlumdur ki, Bakıda da Trampın adını daşıyan hotel inşa edilmişdi. 2014-cü ildə ABŞ-ın hazırkı prezidenti bəyan etmişdi ki, "Trump International Hotel & Tower Baku" "Trump Organization"un standartlarını daşıyan ən yaxşı qlobal inkişaf layihələrindən biridir. Trampın qızı İvanka Tramp isə 2014-cü ildə Bakıda olmuş, 33 mərtəbəli "Trump International Hotel & Tower Baku"nun inşası ilə maraqlanmışdı.

Trampın adını daşıyan binaların çoxu kimi Bakıdakı hotel də birbaşa ona məxsus deyildi. Bina sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlunun nəzarət etdiyi "Garant Holding" tərəfindən tikilmişdi. Tramp isə adının bu hoteldə istifadə edilməsinə və layihə ilə bağlı təcrübəsinə görə sərfəli komisyon qazanmışdı.

ABŞ prezidentliyinə iddiaçı olanda açıqladığı maliyyə hesabatına əsasən, Tramp "quru adı üçün" Məmmədovlardan ən azı 2,5 milyon dollar almışdı. Çünki hotelin Trampın dəbdəbəli hotellər zəncirinin bir hissəsi kimi idarə olunması nəzərdə tutulurdu. Donald Tramp prezident seçkisi kampaniyası dövründə Azərbaycandakı biznes sazişindən çıxdığını elan etdi və Bakıda tikilmiş göydələndən "Trump" lövhəsi çıxarıldı.

Ölkə KİV-ində 2015-ci ildən hazır olsa da, qapısı hələ də bağlı olan "Yelkən-hotel"i Məmmədovların Türkiyədən olan bir iş adamına satdıqları barədə iddialar səslənib. İndi isə söz-söhbət gəzir ki, Tramp prezidentlik müddətini başa vurduqdan sonra Bakıdakı "bəxti bağlanmış" hotelə yenidən adını verə bilər. Ancaq bu dəfə ona əlavə pul verəcək biznesmen olub-olmayacağını demək çətindir. Məhz belə məqamda yenə də keçmiş nəqliyyat nazirinin adı gündəmə gəlir.

"Unikal"a daxil olan məlumatlar bu yöndədir ki, 72 apartament və 189 hotel otağından ibarət olan hotelin gələcək aqibəti məhz 2021-ci ilin ilk aylarında, Tramp vəzifədən getdikdən sonra aydınlaşacaq. Bir vaxtlar sahələri 84-dən 890 kvadrat metrədək dəyişən 70-dən çox apartamentin uzunmüddətli icarəyə verilməsi nəzərdə tutulurdu. Hotelin ərazisində qapalı hovuzlu SPA-kompleks, fitnes mərkəzi, biznes mərkəzi və təmtəraqlı restoran inşa olunub. Birinci mərtəbəsində isə konfrans zalı, nahar zalı və bar, 500 kvadrat metr sahəsi olan qəbul zalı yerləşir.

Əgər hotelə ilk adı - "Trump International Hotel & Tower Baku" qaytarılarsa, bu, onun "bəxtinin də açılmasına" kömək edə bilər. Hətta sabiq nəqliyyat nazirinin hoteli geri almaq istədiyi də deyilir. Bildirilir ki, məhz buna görə də o, Trampın yenidən prezident seçilməməsini sevinclə qarşılayıb.

İddialara görə, Z.Məmmədov ümid edir ki, hotel həmin adla fəaliyyətə başlasa, yaxşı gəlir gətirəcək. Lakin Məmmədovun bu addımının reallaşıb və ya reallaşmayacağını zaman göstərəcək. Çünki sabiq "nəqliyyat şefi" əvvəlki maddi imkanlardan da məhrumdur, nüfuz dairəsindən də...

***Sənan Mirzə***

## Səfir Azərbaycan xalqını təbrik etdi



***Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Serjan Abdukərimov Azərbaycan xalqını təbrik edib. "Unikal"ın məlumatına görə, təbrikdə deyilir:***

"Mən bütün Azərbaycan xalqının bu sevincli günü, Vətən Müharibəsində qazandığı möhtəşəm Zəfər münasibəti ilə qardaş qazax xalqı adından təbrik edirəm, xalqımın səsmimi arzularını sizə çatdırıram. Azərbaycan tarixi ədaləti və çoxdan gözlədiyimiz ərazi bütövlüyünü bərpa etdi. Biz hamımız bu şərəfli və parlaq uğurun şahidi olduq. Biz hamımız başda Ali Baş Komandan, Prezidenti İlham Əliyev olmaqla rəşadətli Azərbaycan Ordusunun şücaəti ilə qazanılan qələbənin şahidi olduq. Onun taktiki gedişləri, effektiv strategiyası, dəmir iradəsi və xalqın yenilməz qüruru ilə bu qələbə qazanıldı. Azərbaycan öz ərazi bütövlüyünü beynəlxalq hüquqa, BMT-nin Təhlükəsizlik Şurasının çıxardığı qətnamələrə uyğun olaraq öz ərazi bütövlüyünü təmin etdi. Mən bu Zəfər günündə Vətən müharibəsində canlarını qurban verən şəhidlərin ailələrinə başsağlığı verir, döyüşlərdə yaralananlara isə tezliklə sağlamlıqlarına qovuşmasını arzulayıram".



## Polad Həşimovun anası Milli Qəhrəman adına görə təşəkkür etdi

***Ötən gün ölümündən sonra Milli Qəhrəman adına layiq görülən general-mayor Polad Həşimovun anası Səmayə Həşimova təltifə görə ölkə rəhbərinə təşəkkür edib.***

"Unikal" xəbər verir ki, S. Həşimova AzTV-yə müsahibəsində bildirib ki, oğlu general-mayor Polad Həşimov öz canını ordumuzda, torpaqlarımız uğrunda fəda edib: "Torpaqlarımız uğrunda özünü fəda etməyinə görə bizim dövlətimizin başçısı Ali Baş Komandan İlham Əliyevə onun əziyyətini qiymətləndirdiyinə görə öz ailəmiz adından təşəkkürümüzü bildiririk. Sağ olsun ki, mənim oğlumun əziyyətini belə qiymətləndirib".

# Emin Əmirullayevin mübahisə yaradan açıqlamaları...

## Təhsil nazirinin söylədikləri niyə dartışmalara səbəb oldu?

***2020-ci ilin iyununda Təhsil naziri vəzifəsinə gətirilən Emin Əmirullayev bu posta təyin olunduqdan sonra ilk dəfə səsləndirdiyi fikirlərlə ictimai müzakirələrə səbəb olub. Nazirin yola salmaq üzrə olduğumuz həftə söylədikləri bir çoxları tərəfindən narazılıqla qarşılanıb və tənqidi mülahizələrin ortaya çıxması ilə nəticələnib.***

Nazirin xüsusi olaraq "valideynlərin məktəbə kömək etmə hüququ və səlahiyyəti var" sözləri birmənalı qarşılanmayıb. Əksəriyyətin düşüncəsinə görə, həmin sözlər faktiki olaraq təhsil müəssisələrində rüşvətə dolayısıyla yaşıl işıq yandırmaqdır.

Məsələn, iqtisadçı ekspert Samir Əliyev deyib ki, nəzarət mexanizmləri, şəffaflıq, hesabatlılıq olmayan bir sistemdə istənilən maliyyə axını təyinatından kənarlaşmaya gətirib çıxarır.



Ekspertin sözlərinə görə, nazir qeyd edir ki, valideyn məktəbə pul ödəməyə məcbur edilməməlidir, ancaq onların məktəbə kömək etmə hüququ və səlahiyyəti var. E.Əmirullayevin fikrincə, pul yığılması həmişə o qədər də xoşagəlməz hal kimi qiymətləndirilməməlidir. Söylədiklərindən hiss olunur ki, nazirin bizim təhsil sisteminin real vəziyyəti barədə məlumatı məhduddur. Sanki ABŞ və Avropa ölkələrinin təhsil naziri kimi fikir bildirir. Nazirin vizyonunun Qərb təhsil sisteminə yönəlik olması müsbət haldır, ancaq bizim təhsil sistemi hazırda sovet standartından da aşağıdır. Bütün dünyada İCMA TÖHFƏSİ mexanizmi sosial sferanın bütün mərhələlərində tətbiq edilir və bu mexanizm hazırda geniş yayılıb. Bunu o təhsil sistemində edirlər ki, orda valideyndən "süpürgə pulu" yığılmır, repetitor xidmətinə ehtiyac qalmır, bir sinifdə 30-40 nəfər iştirak etmir. Azərbaycan valideyni onsuz da bu "töhfələri" həmişə edib. Ancaq əvəzində keyfiyyətli təhsil görə bilməyib.

Unudulmamalıdır ki, dövlət büdcəsindən təhsilə hər il milyardlarla həcmdə pul ayrılır. Məsələn, 2020-ci ildə 3 milyard manatdan çox vəsait ayrılması nəzərdə tutulub ki, bunun da 1,7 milyard manatı nazirin valideynlərdə pul yığmaq istədiyi ümumi təhsil sisteminin payına düşür. Bundan əlavə investisiya xərcləri xətti ilə milyonlarla vəsait məktəb tikintisinə və ya təmirinə ayrılır. Həmin vəsaitlər vasitəsilə məktəblər təmir də olunur, stadionlar da tikilir, süpürgə də alınır. O pulların kağız üzərində və ya real olaraq ayrılması da başqa müzakirə mövzusudur.

S.Əliyevə görə də, nazirin pul yığımına "beynəlxalq don" geyindirməsi yolverilməzdir və rüşvətə dolayısı ilə yaşıl işıq yandırmaqdır. Nəzarət mexanizmləri, şəffaflıq, hesabatlılıq olmayan bir sistemdə istənilən maliyyə axını təyinatından kənarlaşmaya gətirib çıxarır.

E.Əmirullayevin mübahisələrə yol açan başqa bir fikri isə budur: "Valideynlər elə düşünürlər ki, uşaqlar nə qədər çox oxusalar bir o qədər yaxşıdır. Bəzi hallarda uşaqları lazımsız yükləyirlər, repetitor yanına göndərirlər".

Əslində nazirin məktəblilərin hədsiz yüklənməsi ilə bağlı dediklərini əksəriyyət bölüşür. Hətta bu, Azərbaycan təhsilinin ən yaralı yerlərindən biri sayılır. Lakin Əmirullayevin repetitorlarla bağlı söylədiklərini bölüşməyənlər xeyli çoxdur. Belələrinin fikrincə, əvvəla, çox oxumaqdan indiyədək ziyan görən olmayıb. Problem sistemsiz, ehtiyac olmayan mövzuları oxumaqdadır.

O ki qaldı repetitorlarla bağlı məqama... Sosial şəbəkələrdəki müzakirələr zamanı tez-tez vurğulanıb ki, məktəblilər elə repetitorların yanında oxuyurlar, məktəblərdə isə gün keçirirlər. Hətta "Dövlət büdcəsindən məktəblərə ayrılan pulu havaya xərclənir" deyə düşünənlər də var.

Əmirullayevin aşağıdakı fikirləri də polemika mövzusuna çevrilib: " Ölkədə 1 milyon 500 min şagird var. Amma Azərbaycan bazarında heç bu qədər sayda kompüter satışda yoxdur. Sonra da qeyd edir ki, Bakı və Sumqayıt kimi iri şəhərlərdə təxminən 74-75 % təhsilalanı qeydiyyatdan keçirib onlayn təhsilə cəlb edə bilmişik".

Təhsil eksperti Kamran Əsədov bu məqamla bağlı maraqlı rəqəmlər paylaşıb: Bakı şəhərində 440 min, Sumqayıt şəhərində 58 min, Abşeron rayonunda 45 min şagird təhsil alır ki, bu da üç ərazidə cəmi yarım milyondan çox (təxminən 543 min) şagird təhsil alır deməkdir. Onlarla ümumilikdə 40 minə yaxın müəllimin çalışdığını nəzərə alsaq, bu 600 min şəxsin aktiv tədris prosesinin iştirakçıları olduğu deməkdir.

Nazir deyir ki, onların 75 faizi online dərslərə qoşulub. Bu da axı 450 min alət (kompüter, planşet, telefon) deməkdir.

Həqiqətənmi bu qədər alət bu ərazilərdə var?

Bir də elektron portaldan qeydiyyatdan keçmə ondan daimi istifadə etmək demək deyil.

İkincisi, hər il orta məktəblərə azı 6000 ədəd kompüter, 3000 ədəd notebook verilir ki, bu da 100 mindən çox internetə çıxış aləti deməkdir. Bir neçə il əvvəl hər 20 şagirdə 1 kompüter var idi, sonradan bu rəqəm daha da az oldu.

Hazırda məktəblərdə dərs yoxdur və bu alətləri aztəminatlı ailələrə vermək olmazmı? Yoxsa bəzi direktorlar onları artıq özününküləşdirməyə nail olub və ya Təhsil Nazirliyi tərəfindən davamlı olaraq məktəblərin lazımi vəsaitlərlə "təmin etməsində" problemlər var? Yolda bu ləvazimatlar "Bermud üçbucağı"nın üstündən keçib yoxa çıxır?

Təhsil eksperti bildirib ki, onda olan rəsmi məlumata görə məktəblərdə 83 min kompüter var. Sevindirici haldır ki, bu gün respublika ərazisində hər 19 şagirdə bir kompüter düşür. Yəni orta məktəblərimizin əksəriyyəti kompüterlə tam təchiz edilib. Lakin bunlar təkcə kompüterlərdir. Axı 40 minə qədər də notebook Təhsil Nazirliyi tərəfindən məktəblərə verilib. Hələ bura bir neçə xarici ölkə tərəfindən hədiyyə edilənləri demirik. Misal üçün, Yaponiya, Koreya, Çin hökumətləri tərəfindən bir neçə dəfə notebooklar hədiyyə edilib...

Bir sözlə, E.Əmirullayevin son açıqlamalarında yetərincə ziddiyyətli, anlaşılmaz məqamlar yer alıb. Bu da onlar ətrafında ciddi mübahisələrə, kəskin tənqidi fikirlərin yaranmasına səbəb olub. Nazirin həmin tənqidlərlə, iradlarla bağlı nə düşündüyünü isə zaman göstərəcək.

***Elvin Rüstəmov***



# Azərbaycan ilk dəfə XKX-nin YARASA bölməsini göstərdi

***Bu gün Azadlıq Meydanında Zəfər paradında Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin YARASA xüsusi təyinatlılarını da müşahidə etmək mümkün olub.***

Unikal.org xəbər vetir ki, bu, Azərbaycan Silahlı Qüvvələrinin ən gizli xüsusi bölməsidir və Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının işğaldan azad edilməsində fəal iştirak edib. Üstəlik, bölmənin əsas fəaliyyəti düşmənin arxa cəbhəsində həyata keçirilib.

Qeyd edək ki, YARASA döyüşçüləri müharibə dövründə Azərbaycanın yaşayış məntəqələrinin azad edilməsində iştirak ediblər. Onlar xüsusən də Qubadlıya ilk girənlərdən olublar.

YARASA döyüşçüləri orden və medallarla təltif ediliblər. Onlar haqlı olaraq Azərbaycan ordusunun elit qüvvələri və qüruru sayılırlar.

# KİVDF qəzetlər üçün müsabiqə elan etdi

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu 2021-ci ilin I yarısı üçün qəzet redaksiyalarının maliyyələşdirilməsi ilə bağlı müsabiqə elan edir.***

KİVDF-dən "Unikal"a verilən məlumata Fondun Müşahidə Şurasının iclasında qəzet redaksiyalarının maliyyələşdirilməsi üçün müsabiqənin keçirilməsi ilə bağlı qərar qəbul edilib.

Beləliklə, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na müvafiq olaraq 19 sahə üzrə qəzet layihələrinin maliyyələşdirilməsi qərara alınıb.

Sənəd qəbulu 10 dekabr 2020-ci il tarixindən başlanır və 24 dekabr 2020-ci il tarixində saat 18:00-da bitir.

Müsabiqədə aşağıda göstərilən videotəlimata uyğun olaraq mib.kivdf.gov.az portalında qeydiyyatdan keçməklə və ya sənədləri Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna təqdim etməklə iştirak edə bilərsiniz.

# Düşməndən qənimət götürülən texnikalar paradda nümayiş olundu

***Azadlıq meydanında Vətən müharibəsində qələbəyə həsr olunan Zəfər paradı davam edir.***

"Unikal" xəbər verir ki, düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qismi Zəfər paradında nümayiş olunub.

Qeyd edək ki, sentyabrın 27-dən noyabrın 10-dək davam edən ikinci Qarabağ müharibəsində düşmənin xeyli sayda hərbi texnikası məhv edilib və qənimət götürülüb.

# Ermənistan Prezidenti Paşinyana qarşı ittifaq qurur

Politoloq: "Armen Sarkisyan isə Sarkisyan və Koçaryanla görüşməklə həm Paşinyandan məsafə saxladığını göstərməyə çalışır"



***Ermənistan prezidenti Armen Sarkisyan ölkənin keçmiş prezidenti Robert Koçaryanla görüşüb.***

"Unikal" Ermənistan KİV-ə istinadən xəbər verir ki, görüş bu gün baş tutub. Sarkisyanla Koçaryan görüş zamanı ölkədəki ümumi vəziyyəti, müharibənin nəticələrini və ictimai-siyasi gündəmi müzakirə ediblər. Həmçinin, Robert Koçaryanla Armen Sarkisyan arasında Nikol Paşinyan hakimiyyətinə qarşı yeni ittifaq barədə anlaşmanın müzakirə olunduğu deyilir. Ermənistanda Qarabağ klanına mənsub Robert Koçaryanın hazırkı Ermənistan prezidenti ilə sövdələşərək yenidən hakimiyyəti ələ keçirmək planları barədə məlumatlar dolaşır.

Xatırladaq ki, Armen Sarkisyan bir müddət öncə Serj Sarkisyanla da görüşmüşdü. Belə görünür ki, Ermənistan Prezidenti baş nazir Nikol Paşinyana qarşı yeni ittifaq qurmağa çalışır.

Məsələylə bağlı fikirlərini "Unikal"la bölüşən politoloq Elxan Şahinoğlu deyib ki, hazırda Nikol Paşinyan məğlub ölkənin baş naziri kimi qiymətləndirilir. Onun sözlərinə görə, Armen Sarkisyan özünü bu məğlubiyyətdən kənara çəkməyə cəhd edir. Guya onun bu məğlubiyyətdə heç bir rolu olmayıb.

Siyasi şərhçi qeyd edib ki, Armen Sarkisyan Paşinyanla arasında məsafə saxlamağa çalışır: "Çünki Nikol Paşinyan məğlub ölkənin baş naziri kimi qiymətləndirilir. Armen Sarkisyan özünü kənara çəkməyə cəhd edir. Ona görə də son günlər Nikol Paşinyana müxalif olan müxtəlif qüvvələrin təmsilçiləri ilə görüşməyə başlayıb. Baş nazirin istefasını da istəyib. Amma Nikol Paşinyan istefa vermir. O, Ermənistan cəmiyyətinin müəyyən qisminin dəstəyinə ümidlidir. Həmin dəstək də müəyyən qədər mövcuddur. Deyim ki, təqribən 30 faizə yaxın insan Nikol Paşinyanı dəstəkləyir. Nəzərə almaq lazımdır ki, bu, kiçik bir ölkə olan Ermənistan üçün heç də kiçik rəqəm deyil".

Elxan Şahinoğlu Qarabağ klanının reytinqinə də toxunub: "Ermənistan ictimaiyyəti arasında Robert Koçaryanla Serj Sarkisyanın heç bir böyük reytinqi yoxdur. Çünki onların reytinqi I Qarabağ Müharibəsinin üzərində qurulmuşdu. İndi biz onları darmadağın elədik və artıq onların heç bir qələbəsi yoxdur. Ona görə də bu qüvvələrin reytinqi yüksək deyil. Onlar Ermənistanda seçki yolu ilə xalqın səsini alaraq heç zaman hakimiyyət başına gələ bilməzlər. Onları dəstəkləyən kütlənin miqdarı ilə yalnız qarşıqlıq yaratmaq olar. Armen Sarkisyan isə Sarkisyan və Koçaryanla görüşməklə həm Paşinyandan məsafə saxladığını göstərməyə çalışır, həm də digər qüvvələrin səsini eşitməyə hazır olduğunu nümayiş etdirməyə cəhd göstərir".

***Coşqun Əli***

# Bu il 80-dən çox jurnalist öldürülüb

***2020-ci ilin əvvəlindən bəri dünyanın 30 ölkəsində 83 media işçisi öldürülüb.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bu barədə İsveçrənin qeyri-hökumət təşkilatı olan "Press Emblem Campaign"in (PEC) Cenevrədə yayımlanan illik hesabatında deyilir.

Hesabatda vurğulanıb ki, ən çox Hindistanda KİV əməkdaşının öldürülməsi faktı qeydə alınıb - 13 nəfər. Meksikada isə 11 jurnalist öldürülüb. Mətbuat üçün ən təhlükəli ölkələr arasında təşkilat həmçinin Pakistanı (8 nəfər), Əfqanıstanı (5), İraqı (5), Filippini (4) və Hondurası (4), Venesuelanı (3), Nigeriyanı (3), Suriyanı (3), Braziliyanı (2), Qvatemalanı (2), Liberiyanı (2) və Somalini (2) fərqləndirib. Daha 16 ölkədə isə 1 media işçisi öldürülüb.

PEC-nin məlumatına görə, ötən il 75, son 10 ildə isə 1 180 jurnalist öldürülüb. Bundan əlavə, 2020-ci ilin martından bəri 520-dən çox mətbuat işçisi koronavirusa yoluxma səbəbindən ölüb.

# İcra başçılarının çıxarmaq istəmədikləri dərs...

Doğrudanmı, bəzi məmurlar, heç olmasa, Vətən müharibəsində qazandığımız şanlı qələbədən, qəhrəman şəhidlərimizin ruhundan da utanmırlar?!



***Yola salmaq üzrə olduğumuz həftə Azərbaycanda daha bir icra başçısı həbs olundu. Belə ki, Cəlilabad Rayon İcra Hakimiyyətinin (RİH) binasında əməliyyat keçirildi və başda icra başçısı Namiq Zeynalov olmaqla, bir neçə vəzifəli şəxs saxlanıldı.***

Saxlanılanlar korrupsiya və rüşvət əməllərində təqsirli bilinir. Artıq N.Zeynalov barəsində həbs qətimkan tədbiri və o, tutduğu vəzifədən azad edildi.

Qeyd edək ki, ötən ilin sonlarından bu günədək Azərbaycanda bir neçə icra başçısı qandallanıb. Güman etmək olardı ki, həmin həbslərdən digər rayon rəhbərləri lazımi nəticə çıxaracaq, qanunsuz əməllərdən çəkinəcəklər. Lakin reallıq bir çox icra başçılarının hələ də "köhnə hamam, köhnə tas" prinsipi ilə işlədiyini göstərir. Yəni yenə də rüşvət, korrupsiya kimi cinayətlərə baş vururlar.

Halbuki ölkə başçısı çıxışlarında dəfələrlə vurğulayıb ki, xalqın, dövlətin malına göz dikmək vicdansızlıqdır. Dövlət rəhbəri yeyintiyə, mənimsəməyə bulaşmış icra başçılarını nəzərdə tutaraq bir çıxışında belə demişdi: "İndi yaxşı, xalqdan qorxmursansa, Allahdan qorx. Belə şey etmək olarmı? Ona görə, bax, bu, onu göstərir ki, bu, məmurun mənəvi deqradasiyasıdır, bu, insanın mənəvi deqradasiyasıdır. Belə məmurlar bizə ləkədir, ölkəmizə ləkədir, iqtidara ləkədir. Hamı bilsin, eşitsin ki, belə hallara qarşı mübarizə daha ciddi aparılacaq. Hamı ibrət götürsün, dərs götürsün, hər kəs üçün dərs olsun. Dövlət məmuru olmaq istəyirsənsə, vicdanla xidmət et dövlətə. Yox sən dövlət vəzifəsinə gəlir mənbəyi kimi baxırsansa, heç getmə o vəzifəyə. Çünki bədbəxt olarsan. Bunu anlamayanlar, hesab edirəm, anlamalıdırlar ki, yeni dövrdə, yeni çağırışlar qarşısında olan ölkədə başqa cür ola da bilməz".

Ancaq bəzi rayon rəhbərləri belə açıq mesajlardan da dərs almaq iqtidarında olmadıqlarını nümayiş etdirirlər. Nəticədə isə haqlı olaraq1 qandallanır, həbsə göndərilirlər.

Üstəlik, görünən odur ki, şanlı qələbəmizlə yekunlaşan Vətən müharibəsi də həmin vəzifə sahiblərinin islah etmək üçün yetərli olmayıb. Buna nə ad verəsən? İnsan deməyə söz tapmır.

Gözləmək olardı ki, məmurlar heç olmasa, işğaldakı torpaqlarımızın azad edilməsinə yönəlmiş son hərbi əməliyyatlardan ibrət alacaq, Azərbaycanın daha da güclənməsinə mane olan işlərdən uzaq dayanacaqlar. Məsələn, dövlət vəsaitlərini müxtəlif hiylələrlə, fəndlərlə öz ciblərinə yönəltməkdən əl çəkəcəklər. Nəhayət, başa düşəcəklər ki, büdcədən oğurlanan hər manat, hər qəpik əslində düşmən dəyirmanına su tökməkdir. Çünki bu pulların təyinatı nə olursa olsun - yol çəkmək, körpü tikmək, məktəb, xəstəxana inşa etmək və s. və i.a! - həmin vəsaitlər eyni zamanda həm də işğaldan aad edilən Qarabağın yenidənn qurulmasına, abadlaşdırılmasına yönəlib.

Məhz bunu nəzərə alıb anlamaq lazımdır ki, büdcə vəsaitlərini havaya sovurmaq, onları təyinatsız şəkildə, qeyri-şəffaf xərcləmək, özünə, ailə üzvlərinə biznes qurmaq üçün xərcləmək ol-maz! Bu yalnız cinayət deyil, eyni zamanda Vətənə və Dövlətə xəyanətdir.

Lakin acınacaqlı haldır ki, bir sıra məmurlar, o cümlədən icra başçıları belə bir sadə həqiqəti dərk və qəbul etməkdən uzaqdır. Cəlilabad Rayon İcra Hakimiyyətinin sabiq başçısı Namiq Zeynalovun timsalında nə yazıq ki, biz bunu əyani gördük.

N.Zeynalovlar anlaya bilmirlər ki, korrupsiya səmərəli dövlət idarəçiliyini sarsıdır, bərabərlik və sosial ədalət prinsiplərini pozur, təmiz rəqabəti təhrif edir, iqtisadi inkişafı çətinləşdirir, qanunun aliliyinə, demokratiya, insan hüquqlarına, demokratik təsisatların sabitliyinə və cəmiyyətin mənəvi dəyərlərinə təhlükə yaradır. Sadaladıqlarımız isə illər uzunu Qarabağa qovuşmağımızı çətinləşdirən amillər idi.

Təsadüfi deyil ki, torpaqlarımızın erməni quldurlarından təmizlənməsinə hökumət həm də dövlət aparatını rüşvət və korrupsiya meyllərindən təmizləməyə kəskin şəkildə start verdikdən sonra başladı. O da təsadüfi deyil ki, məhz həmin təmizləmədən sonra Qarabağ artıq azaddır. Bu yolda minlərlə insanımız canından keçib. Barı onların xatirəsinə hörmət əlaməti olaraq artıq korrupsiyadan, rüşvətdən əl çəkmək olmazmı?! Doğrudanmı, hələ də mənimsəməyə, yeyintiyə əl atanlar, heç olmasa şəhidlərin ruhundan, qazilərin canında gəzdirdiyi qəlpələrdən xəcalət çəkəcək qədər vicdana sahib deyillər?! Heyf, çox heyf!

***Sənan Mirzə***

# Daha bir dövlət şirkəti zərər bataqlığında...

## Yaşar Həsənovun rəhbərlik etdiyi "Azəristiliktəchizat"ın ziyanı şok effekti yaradıb



***Yola salmaq üzrə olduğumuz həftə "Azəristiliktəchizat" ASC-nin 2019-cu ili 21,431 milyon manat zərərlə başa vurduğu açıqlandı. Halbuki qurum 2018-ci ildən 67,959 milyon manat mənfəətlə çıxmışdı. Bu barədə qurumun maliyyə hesabatından məlum olub.***

Sənədə əsasən, ötən il səhmdar cəmiyyətinin yığılmış zərəri 31,45% artaraq 89,58 milyon manata çatıb.

Bu il yanvarın 1-nə "Azəristiliktəchizat"ın aktivləri 187,852 milyon manat olub ki, bu da 1 il əvvələ nisbətən 3,5% çoxdur. Hesabat dövründə qurumun öhdəlikləri 2 dəfə artaraq 48,968 milyon manata çatıb, balans kapitalı isə 12,9% azalaraq 136,884 milyon manata düşüb.

Xatırladaq ki, "Azəristiliktəchizat" ölkə prezidentinin "İstilik təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 8 iyun 2005-ci il tarixli sərəncamı əsasında yaradılıb. Onun nizamnamə kapitalı 136,685 milyon manatdır. Səhmdar cəmiyyəti Bakıda və regionlarda yaşayış evlərini və binaları, təhsil, səhiyyə müəssisələrini və digər sosial təyinatlı obyektləri istiliklə təchiz edir.

Lakin dövlət şirkətinin fəaliyyəti davamlı şəkildə narazılıqlarla müşayiət olunur. Hesab edilir ki, bu ASC öz vəzifələrinin öhdəsindən gəlməkdə çətinlik çəkir. Bunu hər ilin payızında mənzillərin istiliklə təchizatının yubanmasından tutmuş bir çox məqamlarda aydın görürük.

Elə "Azəristiliktəchizat"ın zərərinin 90 milyon manat kimi şok rəqəmlə ifadə olunması da bu narazılıqların, tənqidlərin boşuna olmadığını göstərir.

Bəs bu dövlət şirkəti necə zərərlə işləyə bilər? Axı ötən yazıların birində də vurğuladığımız kimi, Yaşar Həsənovun rəhbərlik etdiyi "Azəristiliktəchizat" yarandığı vaxtdan - 2005-ci ildən bu yana dövlətdən on milyonlarla manatlıq dotasiya alıb. Məsələn, təkcə elə ki, 2006-2013-cü illərdə dövlət büdcəsindən bu quruma 110 milyon manat ayrılıb. Təkcə 2013-cü ildə adıçəkilən ASC-yə 25 milyon manat vəsait yönəlib. Onun 10,3 milyonu Bakı şəhərində qazanxanalarda, yaşayış evlərində və sosial obyektlərdə istilik təchizatı sistemlərinin təmir-bərpasına, 10 milyon manatı isə "2011-2013-cü illərdə Bakı və onun qəsəbələrinin sosial iqtisadi inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulmuş təchizatın yaxşılaşdırılması tədbirlərinə, 4,7 milyon manatı Xətai rayonu, Əhmədli yaşayış məntəqələrində 10 ədəd istilik paylayıcı məntəqələrinin yenidən qurularaq məhəllə qazanxanalarına çevrilməsinə xərclənib.

Ümumiyyətlə, 2011-2016-cı illərdə şirkət dövlət büdcəsindən 123 milyon manat subsidiya vəsait əldə edib.

Sonrakı illərdə də "Azəristiliktəchizat"a dövlət ayırmaları davam edib və yəqin ki, bundan sonra da davam edəcək.

Üstəlik, nəzərə alsaq ki, istilik tarifləri də ötən illərdə bahalaşıb, o zaman bu ASC-nin zərərinin 90 milyona çatması, həmçinin borclarını qapada bilməməsi maraq və təəccüb doğurur. Şübhə qalmır ki, sözügedən dövlət şirkətində idarətmə islahatlarının aparılması qaçılmazdır. Əks halda "Azəristiliktəchizat"ın növbəti illərdəki zərəri daha da yüksələcək.

Adıçəkilən ASC ətrafında yaranmış durum eyni zamanda ölkə başçısının bir müddət səsləndirdiyi fikirlər ətrafında daha dərindən düşünməli olduğumuzu göstərir. Prezident avqustun 6-da ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirilən müşavirədə çıxışı zamanı demişdi ki, dövlət şirkətləri elə bil ki, sosializm iqtisadi modelində işləyir.

"Dövlət şirkətləri tərəfindən ödənilən vergilər hansı səviyyədədir? Əgər onların vergilərini, dövlət tərəfindən onlara verilən subsidiyaları və birbaşa vəsaitin qoyuluşunu götürsək, görərik ki, nə qədər böyük fərq var. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, dövlət şirkətləri bizim ölkəmizi, bizim iqtisadiyyatımızı aşağı aparır. Bunun başqa izahı ola bilməz" - deyə ölkə başçısı bəyan etmişdi.

"Azəristiliktəchizat"ın borc və zərəri ilə bağlı rəqəmlər bir daha göstərir ki, dövlət şirkətləri ilə bağlı durum heç də ürəkaçan deyil, proses isə həmin şirkətlərin onların köhnəlmiş idarəetmə sistemindən qaynaqlanır. Yaşar Həsənovun rəhbəri olduğu ASC-nin mövcud vəziyyətdən çıxması üçün ölkədə həyata keçirilən genişmiqyaslı islahatların bu qurumu da əhatə etməsi qaçılmazdır...

*Toğrul Əliyev*

# Ədliyyə işçiləri və hakimlərdən "YAŞAT"a dəstək

***Vətən müharibəsi iştirakçılarının sosial müdafiəsinin və rifahının yaxşılaşdırılması ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin fəaliyyətinin əsas prioritetlərindən olmaqla hərbi qulluqçular və şəhid ailələri hərtərəfli dövlət qayğısı ilə əhatə olunurlar.***

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən "Unikal"a bildirilib ki, dövlət başçısının və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yaralı hərbçilərimizə baş çəkmələri, onların qayğıları ilə maraqlanmaları böyük ruh yüksəkliyi və təsəlli olub.

Eyni zamanda, xalqımız tərəfindən dövlətimiz və ordumuzla həmrəylik nümayiş etdirilərək hərbçilərimizin zəruri ehtiyaclarının təmin edilməsi məqsədilə xeyirxah addımlar atılıb.

Ali Baş Komandanın ətrafında sıx birləşən ədliyyə işçiləri və hakimlər də bu şərəfli dönəmdə ordumuza dəstək göstərərək xüsusi fonda əmək haqlarından könüllü vəsaitlər köçürüblər. Həmçinin



nazirliyin tibb xidmətinin həkimləri müharibə dövründə yaralananlara zəruri tibbi yardım göstərib, ədliyyə və məhkəmə orqanlarında qanvermə aksiyaları keçirilib, nazirliyin əməkdaşları tərəfindən döyüşlərdə yaralanaraq hərbi hospitallarda müalicə alan hərbçilərimizə mütəmadi baş çəkilib və sovqatlar təqdim olunub.

Eyni zamanda, ədliyyə və məhkəmə orqanlarının 100-dək əməkdaşı hərbi əməliyyatlarda, o cümlədən könüllü kimi iştirak edib, onların sırasında yaralananlara və şəhid olmuş şəxslərin ailələrinə lazımi yardım və mənəvi dəstək göstərilib.

Ölkə Prezidentinin 08.12.2020-ci il tarixli Fərmanı ilə ərazi bütövlüyümüzün müdafiəsi uğrunda yaralananların və şəhid ailələrinin təminatı ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması məqsədilə "YAŞAT" Fondu yaradılıb və müxtəlif təşkilatlar, fiziki və hüquqi şəxslər tərəfindən fonda könüllü ianələr edilir.

Ədliyyə işçiləri və hakimlər də dövlətimiz, xalqımız və ordumuzla hər zaman həmrəy olaraq əmək haqlarından "YAŞAT" Fonduna 1.000.000 (bir milyon) manat məbləğində vəsait köçürüblər.




## Milli Qəhrəman İlqar Mirzəyevin oğlu: "Bütün dostlarıma dedim ki..."

***"Mən atamla fəxr edirəm. Mən fəxr edirəm ki, atamın, bütün şəhidlərimizin qisası alındı, Ordumuz torpaqlarımızı geri qaytardı".***

Unikal.org xəbər verir ki, bunu Milli Qəhrəman adına layiq görülən İlqar Mirzəyevin oğlu Elvin Mirzəyev deyib.

E.Mirzəyev atasına bu adın verilməsinə görə Ali Baş Komandan İlham Əliyevə də təşəkkür edib: "Ali Baş Komandanımızla fəxr edirəm. Atama layiqli adı verdi. Ali Baş Komandanın əmri altında torpaqlarımızı geri qaytardıq. Mən bütün dostlarıma sevinə-sevinə dedim ki, atam Milli Qəhrəmandır. Mən çox sevinirəm" .

## "Qələbə hər zaman bizimlədir!" - Leyla Abdullayeva

***Unikal.org-un xəbərinə görə, bunu Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva "Twitter"də bildirib.***

"Ali Baş Komandanımızın rəhbərliyi altında Müzəffər Azərbaycan Ordusunun şanlı Qələbəsini bu gün paytaxtımızda Zəfər Paradı ilə qeyd edirik. Qələbə hər zaman bizimlədir! Parlaq gələcək, inkişaf və tərəqqi bizimlədir! Yaşasın bu Qələbənin səbəbkarı olan məğrur Azərbaycan Xalqı!", - deyə Leyla Abdullayeva qeyd edib.

## Zəfər paradında Vətən müharibəsi qaziləri keçid etdi

***Torpaqlarımızın işğaldan azad olunmasında, Vətən müharibəsində düşmən üzərində qələbənin qazanılmasında müstəsna xidmətləri olan qazilərimiz Azadlıq meydanında keçirilən Zəfər paradında iştirak edib.***

"Unikal" xəbər verir ki, "Dəmir yumruq" əməliyyatının qaziləri Silahlı Qüvvələrimizə məxsus hərbi avtomobillərin üzərində əyləşərək tribuna önündən keçid ediblər.

Zəfər paradında Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak edir.

## Hikmət Mirzəyev XTQ-in heyəti ilə paradda

***Azadlıq meydanında Vətən müharibəsində qələbəyə həsr olunan Zəfər paradı davam edir.***

Unikal.org xəbər verir ki, qələbənin qazanılmasında müstəsna xidmətləri olan Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları hərbi paradda keçid edib.

Parad heyətinə Xüsusi Təyinatlı Qüvvələrin komandanı, "Vətən müharibəsi qəhrəmanı", general-leytenat Hikmət Mirzəyev başçılıq edib.

# DMX ölkəmizdəki əcnəbilərə müraciət etdi

***Dövlət Miqrasiya Xidməti (DMX) Azərbaycanda olan və yaşayan əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciətdə ölkədə olan və yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin DMX-nin fəaliyyəti ilə bağlı Nazirlər Kabinetinin 8 dekabr 2020-ci il tarixli, 488 nömrəli Qərarı ilə Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisində, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzlərində (kənd və qəsəbələr istisna olmaqla) 2020-ci il 14 dekabr saat 00:00-dan 2021-ci il 18 yanvar saat 00:00-dək xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı müəyyənləşdirilmiş tədbirlərə uyğun olaraq aşağıdakıları nəzərə almaları xahiş edilir:

Əcnəbilərin miqrasiya xidmətlərindən istifadə etmək üçün evdən çıxmamaları, elektron xidmətlərdən istifadəyə üstünlük verməleri tövsiyə olunur (elektron xidmətlərə keçid: https://eservice.migration.gov.az/?lang=az).

Qəbul şöbələrinə yaxınlaşmaqla müvafiq sənədləri təqdim etmək istəyən şəxslər yaşadığı ərazilərdə "ASAN xidmət" mərkəzlərinə, olmadığı təqdirdə regional miqrasiya idarələrinə müraciət edə bilərlər.

Bakı, Gəncə, Quba, Şəki, Lənkəran, Şirvan, Mingəçevir, Yevlax şəhərləri istisna olmaqla, digər şəhər və rayonların ərazisində yaşayan əcnəbilər tərəfindən müvəqqəti və daimi yaşama, həmçinin iş icazələrinə müraciət edilməsi zamanı müvafiq tibbi arayışların təqdim olunması tələb edilmir (hazır icazə vəsiqələrinin fiziki olaraq götürülməsi zamanı müvafiq tibbi arayışların təqdim edilməsi zəruridir).



Daimi yaşamaq icazəsinin alınması üçün müraciət edən əcnəbilərin Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hüquq və vəzifələri, habelə dövlət dili ilə bağlı biliyinin yoxlanılması, eləcə də, bununla bağlı kursların keçirilməsi təxirə salınır. Kurs ilə əlaqədar material əldə etmək istəyənlər iş günləri saat 09:00-dan 18:00-a qədər (012) 566-37-74 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Həmçinin qeyd olunan tarixlərdə olduğu yeri və ya yaşayış yerini müvəqqəti tərk etmək istəyən əcnəbilər bunun üçün icazə almaq məqsədilə 8103 nömrəsinə SMS-məlumat göndərməlidirlər. Bu zaman müvafiq olaraq 1 (2) rəqəminin ardınca ölkədə olma və yaşama statusuna uyğun OYQ (olduğu yer üzrə qeydiyyat), MOM (müvəqqəti olma müddəti), MYI (müvəqqəti yaşama icazəsi) və ya DYI (daimi yaşama icazəsi) abreviaturasından sonra müvafiq sənədin nömrəsini qeyd etməklə 8103 nömrəsinə SMS-məlumat göndərilir. Abreviaturalar mütləq ingilis şriftləri ilə yazılmalıdır. Göstərilən linkdə video təlimat vasitəsilə proses izahlı formada təqdim olunur (https://www.youtube.com/watch? v=Jx-9NZK3xV4).

Əcnəbilərin hərəkət zamanı şəxsiyyətlərini təsdiq edən sənədlərinin üzərilərində olması məcburidir.

Olduğu yer üzrə qeydiyyata alınmış, həmçinin müvəqqəti olma müddətinin uzadılması barədə qərar qəbul edilmiş əcnəbilər yuxarıda qeyd olunan sənədlərin nömrəsini əldə etmək üçün Dövlət Miqrasiya Xidmətinin rəsmi internet səhifəsindən "müraciətlərin izlənilməsi" elektron xidmətindən (https://eservice.migration.gov.az/public/application-track) istifadə edə bilərlər. Bu zaman pasport nömrəsi, doğum tarixi və vətəndaşlıq barədə məlumatların daxil edilməsi vacibdir. Əcnəbilər bununla bağlı videotəlimatla buradan tanış ola bilərlər.

Ölkədə müvəqqəti və daimi yaşama icazələri ilə yaşayan əcnəbilərin həmin icazələrin etibarlılıq müddəti bitmədən "ASAN xidmət" mərkəzləri və regional miqrasiya idarələri vasitəsilə və ya elektron qaydada bu müddətin uzadılması üçün müraciət etmələri zəruridir.

Əlavə olaraq qeyd edirik ki, müvəqqəti olma müddəti (viza müddəti və ya 90 gün) artıq 60 gün uzadılmış (dövlət rüsumu ödəyənlər) əcnəbilərin ölkədə olması, dövlət sərhədində hərəkətlə bağlı məhdudiyyətlər aradan qaldırılanadək əlavə müraciət olmadan və dövlət rüsumu ödənilmədən qanuni hesab olunur.

Daha ətraflı məlumat üçün (012) 919 Çağrı Mərkəzinə zəng edə, Xidmətin rəsmi internet səhifəsindəki onlayn bələdçi, həmçinin MigAz mobil tətbiqi vasitəsilə sorğu göndərə bilərsiniz. Dövlət Miqrasiya Xidmətinin Çağrı Mərkəzi sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunan müddətdə fasiləsiz xidmət göstərməkdə davam edəcəkdir.

# Zəfər paradında olan deputatlar: "Ordumuz qarşısında baş əyirik"

***Azərbaycan Zəfər paradı keçirir. Bir azdan hər kəs Zəfər paradını izləyəcək. Zəfər paradını izləyənlər arasında Milli Məclisin deputatları da olub.***

"Unikal" xəbər verir ki, modern.az bir neçə deputatın paradla bağlı təəssüratlarını öyrənməyə çalışıb.

Milli Məclisin vitse-spikeri Fəzail İbrahimli özünü dünyanın ən xoşbəxt adamlarından hesab etdiyini bildirib: "Qalib millətin övladıyam. Dünyada başını dik tutmağı bacaran bir millətin nümayəndəsi kimi burada dayanmışam. Tariximizin bu gündən uca ikinci bir anı olmayıb. Vaxtilə Cümhuriyyət Azərbaycan dövlətini elan edib. Amma uğursuz bir sonluqla bitib. Düzdü, bizim üçün bir dövlət, paytaxt qoyub getdilər, amma onu görə bilmədilər. Onlar da mayın 28-də bu ruhu yaşamaq istəyirdilər. Bir azdan isə hər bir Azərbaycan insanı himnin sədaları altında paradı izləyəcək. Azərbaycan xalqı ən uca anını yaşayır. Bir azdan Ali Baş Komandan fateh obrazında bura gələcək. Azərbaycanın güvən yeri olan Türkiyə prezidenti Ərdoğanla birgə onların qoşa dayanması dünyanı məhvərindən oyadacaq".



Deputat Fəzail Ağamalı hər kəsin çox yüksək əhval-ruhiyyədə olduğunu deyib: "Bütün vətəndaşlarımız bu gün çox sevinclidir. Bu gün bizim qürur günümüzdü. Tariximizin ən şərəfli səhifələrindən biridir. Düşünürəm ki, Azərbaycan dövlətinin gücünün və imkanlarının dünya miqyasında nümayiş etdirilməsi ciddi təqdimatdır. Bu mərhələyə gəlib çıxmağımız çətin və ağır olub. Şükürlər olsun ki, artıq qələbə paradını izləmək hər kəsə nəsib oldu".

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva bu gün zəfərimizin paradına toplaşdıqlarını qeyd edib: "Bir azdan bu qələbəni əldə etməkdə böyük yardımçı olan ordu birliyini, əsgərlərimizi salamlayacağıq. Dünyaya səs salan hərbi texnikamızı görəcəyik. Bu gün tribunada toplaşmışıq. Bunun özü qürurverici hissdir. Bir azdan Ali Baş Komandan İlham Əliyev, Birinci Vitse-prezident Mehriban Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayib Ərdoğan və xanımı Əminə Ərdoğan bura gələcək. Eyni zamanda, əsgər və zabitlərimizi də salamlayacağıq. Bu qüruru bizə yaşatdıqları üçün qarşılarında baş əyirik. Şəhidlərimizə Allah rəhmət eləsin, yaralılarımıza can sağlığı versin. Biz bu qələbəni onlara borcluyuq. Həmçinin bu qələbəni ölkə başçısının dəmir əli və qətiyyəti sayəsində qazandıq. Həm də xalqımızın birliyi sayəsində biz qələbə çaldıq. Tanrı xalqımızı, birliyimizi, bütövlüyümüzü qorusun. Bizə sevənlər sevinsinlər.

Uğurlarımıza paxıllıq edənlər, sevinməyənlər yansınlar, daha da təşvişə düşsünlər. Bölgədə güclü Azərbaycan var. Bunu hər kəs eşitsin".

Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli də çox sevincli olduğunu dilə gətirib: "Birinci dəfədir ki, bu formada ürəkdən sevinirəm. Bu qələbə xalqımızın haqqıdır. Bir azdan Azadlıq meydanı daha möhtəşəm olacaq. Dünya Azərbaycanın qələbəsini görəcək".

# Ermənistan Azərbaycana təzminatı necə ödəyə bilər? - Ekspert rəyi

***Ermənistanın ödəməli olduğu təzminatın 50 milyard dollar həcmində göstərilməsi həqiqəti əks etdirmir. 30 ilə yaxın müddətdə Ermənistanın vurduğu zərərin bir trilyonu ötəcəyi halda niyə təzminat məbləğinin 50 milyard dollar həcmində olması haqqında fikirlər tez-tez səsləndirilir.***

“Unikal” xəbər verir ki, bunu Azvision.az-a iqtisadçı ekspert Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, söhbət bu trilyonluq zərərin bütünlüklə təzminata aid edilməsindən getmir. Təzminatın ayrıca hesablanma mexanizmi var. Amma yenə də bu məbləğ 50 milyard dollardan dəfələrlə böyük olmalıdır.

“Gəlin, təzminatın tərkib strukturunda yer ala biləcək istiqamətləri xatırlayaq: 30 il müddətində istismar etdikləri torpaqlarımıza və yeraltı sərvətlərimizə görə təzminat, dağılmış infrastruktura görə təzminat, 27 senyabrda başlamış müharibə xərclərimizə və itkilərimizə görə təzminat, fərdi şəxslərin iddialarına görə təzminat, ekoloji terrora görə təzminat və s. Bu siyahını uzatmaq olar. Təkcə infrastrukturun bərpası üçün ilkin qiymətləndirilmələrdə 50 milyard dollara yaxın vəsait tələb olunursa, ümumi təzminat üçün bu qədər məbləğ səsləndirilməməlidir. Təzminat və infrasturkturun bərpa xərcləri konqruyent ola bilməz. Təəssüf ki, bəzən rəsmi şəxslərimizin də bu məbləğin 50 milyard olaraq vurğulaması sonrakı qiymətləndirmələrdə və beynəlxalq məhkəmələrə müraciətlər zamanı bizə problem yarada bilər. Təsəvvür edin, bir müddət əvvəl hətta Ermənistanın sabiq prokuroru belə Ermənistanın 50 milyard təzminat ödəməli olduğu barədə açıqlama verib. “Ermənistan müflis durumdadır”, “Verməyə pulu yoxdur” və s kimi səbəblərə görə real təzminat məbləğindən yayınmamalıyıq. Onun bu təzminatı ödəmək qabiliyyətinin olub-olmaması sonrakı məsələdir. Bu gün biz sübut edə biləcəyimiz maksimal təzminat hesabatı hazırlayıb, beynəlxalq səviyyədə təsdiqinə nail olmalıyıq. Onsuz da, beynəlxalq təcrübə göstərir ki, təzminat məsələsində zərərçəkmiş tərəfin iddia etdiyi məbləğ beynəlxalq məhkəmədə bütünlüklə təsdiqini tapmır. Bəzən 50%, bəzən isə daha az məbləğ təsdiq edilir. Buna görə də biz real faktlara söykənərək, sübut edə biləcəyimiz maksimal məbləğin iddiasını irəli sürməliyik”.



Təzminatın ödənilmə məsələsinə gəldikdə isə, ekspert əlavə edib ki, Ermənistan sivilizasiyanın sonuna qədər bizimlə qonşu ölkə olaraq qalacaq: “Əgər bu gün ödəniş qabiliyyətini itirmiş bir ölkədirsə, o zaman bunun qarşılığında digər konpensasiya üsulları yaranacaq. Məsələn, gələcəkdə respublikamızın karbohidriogen ehtiyatlarının beynəlxaq bazarlara çıxarılması zamanı Ermənistandan tranzit ölkə kimi istifadə ediləcəyimiz şübhəsizdir. Çünki, Türkiyə vasitəsilə dünyaya çıxış, Gürcüstanla müqayisədə Ermənistan xətti ilə daha əlverişlidir. İstər neft-qaz boru kəmərləri, istər dəmir yolu daşımaçılığına görə Ermənistan tranzit ölkə kimi Azərbaycandan milyonlar qazanacaq. Zamanı gələndə bu vəsaitlər təzminatın bərabər məbləğ hissəsinə uyğun kompensasiya edilə bilər. Bu yarım əsrdən çox güzəştli (və ya tam qarşılıqsız) tranzit ölkə kimi istifadə etmək potensialı yaradacaq. Təzminatın digər ödəniş vasitəsi kimi torpaqlar çıxış edə bilər. Ötən əsrin əvvələrində ərazilərimizin Ermənistana verilməsi tarixi fakt olsa da, müasir dünyada tarixi faktların real gücü olmur. Buna görə də həmin ərazilərin geri qaytarılması popilist çıxışlarla, hətta müharibə ilə həll olunacaq məsələ deyil. Amma təzminat məsələsi gələcəkdə bu mövzuya yenidən qayıtmaq üçün son dərəcə əlverişli imkan yaradır. Ölkələrin pul qarşılığında torpaqlarını satması təcrübəsi də planet üçün yad deyil. Bu təcrübə dünyanın iki nəhəngi arasında belə baş vermişdi. 1867-ci ildə 1.5 milyon kv.km-dən son ərazisi olan Alyaska Rusiya hökuməti tərəfindən Amerikaya cəmi 7.2 milyon dollara satılmışdı. Çünki Rusiya boşalmış xəzinəsini doldurmaq üçün bu addımı atmağa məcbur olmuşdu. İndiki pulla bu yüz milyonlara bərabər bir məbləğ idi. Aydın məsələdir ki, hazırda münaqişə tərəfləri və şərtlər başqadır, lakin ortada oxşar bir mənzərə var. Bu boş qalmış xəzinə probleminə uyğun davranmaqdır. Odur ki, bu gün təzminatın beynəlxalq məhkəmələrdə təsdiqinə nail olmaq üçün hökümət maksimum səy göstərməlidir. Ola bilər ki, bu məbləği 100 milyardlar həcmində qəbul etdirə bilmədik. Hətta 50 milyardlıq bir təzminat məbləği təsdiqlənsə belə, bu böyük avantaj deməkdir. Bu məbləğ Arazın sol sahilində Zəngilanla Ordubadı birləşdirən 25 km enində bir ərazinin qarşılıq olaraq verilməsi üçün kifayətdir. Bu təxminən 950-1000 kv km sahə deməkdir. Eyni zamanda qeyd etməliyəm ki, bu məbləğ həmin torpaq səhəsinin normativ və ya bazar qiymətinə uyğun hesablanmış bir göstəricisi deyil. Bu məbləğə normativ qiymətləndirmələr əsasında Ermənistanda 100 dəfə çox ərazi satın almaq olar. Sadəcə, iki ölkə münasibətlərində siyasi şərtlər daha önəmli rol oynadığından iqtisadi kriteriya arxa planda qalır. Düzdür, hazırda geosiyasi vəziyyət elədir ki, Ermənistan bunu istəsə belə digər “steyholder” ölkələr buna imkan verməzlər. Amma geosiyasi vəziyyətin bu gün belə olması, o demək deyil ki, bu tarazlıq əbədi qalacaq. 4-5 ay əvvəl kimsə düşünə bilərdi ki, Azərbaycan öz torpaqlarını müharibə ilə azad edərkən Rusiya və İran susmaqla buna “xeyir-dua” verəcək. Geosiyasi maraqlar heç vaxt statistik qalmır, orada daim hansısa dinamika baş verir. Buna görə də biz hazırkı yaranmış vəziyyətdən istifadə edərək, Azərbaycana ödənilməli olan təzminat məbləğinin beynəlxalq hüququn prinsiplərinə uyğun maksimal təsdiqinə nail olmalıyıq. Hətta ödəmək gücündə olmasa və torpaqla ödəniş etməkdən də imtina etsə belə, bu təzminat ən azı Ermənistanın növbəti iddiaları qarşısında böyük səddi olacaq”.

***Pərvanə Sultanova***

# Səttar Möhbalıyev: “AHİK “YAŞAT” Fondunun maliyyələşməsində fəal iştirak edəcək”

***Bu gün Azərbaycanda yürüdülən dövlət siyasətinin əsasında duran ən mühüm amillərdən biri ölkə vətəndaşlarının rifah yüksəlişidir. O cümlədən son illər ərzində davamlı olaraq həyata keçirilən iqtisadi və siyasi islahatlar, qəbul olunan qanunlar, uzunmüddətli dövlət inkişaf proqramları da ilk növbədə məhz bu məqsədə - Azərbaycan vətəndaşının sosial müdafiəsinin daha da yüksəldilməsinə, insanlarımızın rifah yüksəlişinin daha da sürətlənməsinin təmin edilməsinə yönəldilib.***



Əlbəttə ki, dövlətimiz tərəfindən həyata keçirilən bütün bu tədbirlərin əhatə dairəsində xüsusi qayğıya ehtiyacı olan vətəndaşlarımızın yeri daha önəmlidir. Məlumdur ki, Azərbaycan dövlətinin hər zaman xüsusi diqqət və qayğı ilə əhatə etdiyi təbəqələrdən biri də Vətən qarşısında öz borclarını verərkən yaralanmış və sağlamlığını itirmiş insanlarımız, eləcə də şəhid ailələridir. Bu insanların mövcud problemləri daima Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən şəxsən diqqət mərkəzində saxlanılır və onların həlli məqsədilə bütün zəruri tədbirlər müntəzəm olaraq həyata keçirilir.

Bilirik ki, 27 sentyabr - 10 noyabr 2020-ci tarixlərində davam etmiş Vətən müharibəsinin nəticəsində Azərbaycanda qazilərimizin və şəhid ailələrinin sayı da artmışdır. Əlbəttə ki, Azərbaycan dövləti tərəfindən həmin insanlara tələb olunan bütün yardımların göstərilməsi üçün artıq əhatəli tədbirlər həyata keçirilməkdədir. Düşünürəm ki, bu yönümdə xüsusi əhəmiyyət kəsb edən layihələrdən biri də “YAŞAT” Fondunun yaradılmasıdır.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 8 dekabr 2020-ci ildə imzaladığı fərmanla Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu yaradılmışdır. Fondun adı qısa olaraq “YAŞAT” Fondu adlandırılmışdır. İlk növbədə deməliyəm ki, “YAŞAT” Fondu Ali Baş Komandanımızın qazilərə və şəhid ailələrinə qayğısının daha bir təzahürüdür. Həmçinin yeni fondun yaradılması ilə bağlı xüsusilə diqqəti cəlb edən məqamlardan biri də budur ki, Fondun vəsaiti qanunla qadağan olunmayan digər mənbələrlə yanaşı Azərbaycan Respublikası vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar (ianələr) hesabına formalaşdırılacaq. Bu məqamın xüsusi əhəmiyyəti bundan ibarətdir ki, “YAŞAT” Fondu dolayısı ilə dünya azərbaycanlılarının 44 günlük Vətən müharibəsi dövründə bütün dünyaya nümayiş etdirdikləri möhtəşəm birlik və həmrəyliyin bundan sonra da eyni təşəbbüskeşliklə davam etdirilməsi üçün əlavə bir platforma kimi də çıxış edəcək. Heç şübhəsiz belə bir təsisatın yaradılması son dərəcə müdrik və əhəmiyyətli bir addımdır.

Öz növbəmdə deyə bilərəm ki, dövlətimiz tərəfindən irəli sürülən bütün bu kimi təşəbbüslər Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və quruma daxil olan bütün təşkilatlar tərəfindən hər zaman ən yüksək səviyyədə dəstəklənib. Konfederasiya və üzv təşkilatlar mütəmadi olaraq belə sosial yönümlü fondların hesabına ianələr köçürüb və əlbəttə ki, bu fəaliyyət bundan sonra da davam etdiriləcək. O cümlədən bəyan edirəm ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası “YAŞAT” Fondunun da maliyyələşməsində hər zaman fəal iştirak edəcəkdir.

Biz qətiyyən unutmamalıyıq ki, Vətən müharibəsində əldə edilmiş möhtəşəm tarixi Qələbəyə görə biz hamımız ilk növbədə şəhidlərimizə və qazilərimizə borcluyuq. Cənab Ali Baş Komandanımızın da dediyi kimi, bu Qələbə bizə şəhid və qazilərimizin canları, qanları bahasına başa gəlib. Buna görə də həmin insanlara və onların ailələrinə qayğı göstərmək yalnız dövlətimizin işi deyil, hamımızın borcudur.

***Hüseyn***



# Co Baydenin oğlu ilə bağlı araşdırma başlanıldı

***ABŞ-ın Delaver ştatında prezidentliyə namizəd Co Baydenin oğlu Hanter Baydenin ödədikləri vergilərlə bağlı araşdırmalara başlanılıb.***

"Dünən Delaver prokurorluğunun vergi işlərimlə bağlı araşdırma aparılması barədə vəkilimdən məlumat aldım. Bu məsələyə çox ciddi yanaşıram. Hesab edirəm ki, peşəkar vergi məsləhətçilərinin köməyi ilə işimi düzgün və qanuni şəkildə apardığım məlum olacaq"- deyə, Hanter bildirib.

Öz növbəsində Co Baydenin seçki qərargahı Hanter Baydeni dəstəklədiyini bəyan edib.

# ""S-400"ün alınması Türkiyənin NATO-dan uzaqlaşması demək deyil" - Hulusi Akar

***"Türkiyə Rusiyadan "S-400" zenit raket komplekslərinin tədarükünün bütün aspektlərini diqqətlə izləyir. Burada siyasi, müdafiə, iqtisadi və texnoloji komponentlərdən söhbət gedir".***

Bunu Türkiyənin müdafiə naziri Hulusi Akar 2021-ci il dövlət büdcəsi layihəsinin parlament müzakirələrində çıxış edərkən deyib.

Nazirin sözlərinə görə, Rusiya ilə "S-400" müqaviləsi seçim məsələsi deyil, Türkiyənin milli maraqlarının təcili bir tələbi idi.

O bildirib ki, komplekslərin sınaqdan keçirilməsi və yerləşdirilməsi təsdiqlənmiş plana uyğun olaraq davam edir.

Akar vurğulayıb ki, Rusiya komplekslərinin alınması Ankaranın NATO-dan uzaqlaşması demək deyil.

ABŞ-ın "S-400" kompleksləri və beşinci nəsil "F-35" təyyarələrinin uyğunsuzluğu ilə bağlı iddialarının əsassız olduğunu qeyd edən Akar "NATO nümayəndələrinin iştirakı ilə ortaq işçi qrupu çərçivəsində Amerika tərəfi ilə bu məsələni hazırlamağa hazırıq. Türk tərəfinin bu təşəbbüsü hələ də aktualdır",-deyə o bildirib.

# Belarus vətəndaşların ölkədən çıxışını məhdudlaşdırır

***Belarus hökuməti koronavirusla mübarizə tədbirləri çərçivəsində vətəndaşların quru sərhəd keçid məntəqələri vasitəsilə ölkədən çıxışına müvəqqəti olaraq qadağa qoyur.***

Bu barədə hökumətin rəsmi saytında bildirilib. Qeyd olunur ki, yeni qərar Belarus vətəndaşları ilə yanaşı, ölkəyə müvəqqəti və ya daimi olaraq gəlmiş əcnəbilərə də şamil olunacaq.

Vurğulanır ki, söhbət avtomobil, dəmir yolları və çay keçid məntəqələri ilə hərəkətdən gedir.

Qərar rəsmi dərc olunduqdan 10 gün sonra qüvvəyə minəcək.

# Türkiyə-Azərbaycan hərbi ittifaqı qaçılmaz reallığa çevrilir

***Azərbaycanın paytaxtı Bakıda tarixi bir mərasim keçirildi. Bu, sadəcə sözdə deyil, həqiqətən, tarixə düşəcək bir hadisə ilə bağlıdır. Azərbaycan və Türkiyə Qarabağın (7 rayonun və Şuşa şəhərinin) işğaldan azad edilməsi münasibətilə dünyaya genişmiqyaslı bir mərasimlə mesaj vermiş olacaq.***



Yəqin ki, 1990-cı illəri yaşayanlar Azərbaycan torpaqlarının necə işğal edildiyini, tankların və bombaların insanları necə hədəf aldığını, yaşanan Xocalı soyqırımını xatırlayırlar. Aradan keçən təqribən 30 il ərzində Azərbaycanın diplomatik səyləri nəticə vermədi və bir çox beynəlxalq təşkilat işğalçıların lehinə olan mövqeyini davam etdirdi. Ancaq bu müddətdə Türkiyə-Azərbaycan münasibətləri sürətlə inkişaf etdi. İqtisadi və siyasi münasibətlər ortaya hərbi sahədə də nəticələr çıxardı. Türkiyənin SPUA (SİHA) texnologiyası sahəsində qət etdiyi məsafə döyüş meydanında Azərbaycanın üstünlüyünü təmin etdi. Və uzun illərdir öz torpaqlarını işğaldan azad etməyə hazırlaşan Azərbaycan xalqı ordusu ilə bütünləşdi. Bu tablo qarşısında tutarsız qalan və anlaşmadan uzaq olan Ermənistan hakimiyyətinin nəticə alması imkansız idi. Əgər Rusiya dövrəyə girməsəydi, Xankəndini də itirəcəklərini özləri deyirlər.

Bununla birlikdə, Azərbaycan Türkiyənin də dəstəyilə Qafqazda geri döndərilməsi çətin olan bir strateji qapını aralamışdır. Şübhəsiz, bunun uğrunda verilən şəhidlər gedən güc mübarizəsinin ağırlığını da ortaya qoyur.

Əslində, açığa çıxan bir başqa hadisə də Türkiyə ilə Azərbaycanın bütünləşməsinin türk dünyasında bir dirilişin, bir yeni sıçrayışın təməllərini atmış olmasıdır. Bu gün çox gözə çarpan olmaya bilər, lakin orta vədədə anlaşılacaqdır.

Dünən Bakı küçələrində Türkiyədən qələbənin qeyd edilməsi üçün gedən "Mehmetcik"lərin bir ağızdan "Nə xoşbəxt türkəm deyənə" hayqırışmasını eşitdik. Sosial mediada bu kadrlara baxış qısa müddətdə milyonlara çatdı. Ardınca Azərbaycan ordusunun yürüşündə "Hər şey Vətən üçün!" şüarları ilə qarşılaşdıq. Və bu görüntülərdə bir hərbçinin "Bozqurd işarəti"lə verdiyi mesaj, sanki, məni daima həyəcanlandıran bir ehtimala işarət edirdi...

Nihal Atsızın "Bozqurdların dirilişi" adlı əsəri bir dövrə öz möhürünü vurmuşdur. Osman Sınav, Türküstana etdiyimiz bir ziyarət zamanı ən böyük xəyalının bu roman əsasında film çəkmək olduğunu ifadə etmişdi. Rəhmətlik atam da bu əsərə bir başqa önəm verər, ilk fürsətdə oxumağımızı istərdi. Oxuyan zaman anlamışdım ki, burada vurğulanmaq istənən şey yalnız cəbhə savaşına deyil, hər anlamda mübarizəyə hazırlaşmaq və daima hazır olmaqdır. Türk tarixində əldə edilən uğurlar da bu dirilişə bənzəyir.

Baqa önəmli bir xüsus isə "Bozqurd" anlayışının, bütün siyasi dəyərləndirmələrin xaricində və sərhədlərindən kənarda, tarixi anlamda yer tutmasıdır. Bu simvolu Bakıda, Afrində, Krımda, Kiprdə və Böyük Çöldə ortaqlaşdıran tərəf onun zaman və məkanın sərhədlərindən kənarda bir məna kəsb etməsidir.

İndi tarix türk dünyasına yeni bir fürsət təqdim edir. Həm də azadlıq uğrunda aparılan bir mübarizə ilə birlikdəg Bu nailiyyəti inkişaf etdirərək gələcəyə doğru irəliləmək üçün birləşdirici, rasional, konstruktiv olmaq və demokratiyanı qucaqlamaq zamanıdır.

***Professor Kürşad Zorlu***
***"Habertürk", Türkiyə,***
***09 dekabr 2020-ci il***

# Türkiyə İsraillə əlqələri normallaşdırır

## ANKARANIN YƏHUDİ DÖVLƏTİNDƏ YENİ SƏFİRİ KİM OLACAQ?

***Türkiyə yəhudi dövləti ilə münasibətləri normallaşdırmaq və ABŞ-ın yeni seçilmiş prezidenti Co Baydenin gözündə ucalmaq üçün İsrailə yeni bir səfir təyin edib. Bu, 40 yaşlı Ufuk Ulutaşdır - Qüdsdəki İbrani Universitetində İbrani və Yaxın Şərq siyasətini öyrənmiş Türkiyə Xarici İşlər Nazirliyinin Strateji Araşdırmalar Mərkəzinin sədri. O, hökumətpərəst düşüncə mərkəzi olan SETA-nın direktoru vəzifəsində çalışıb, Yaxın Şərq siyasəti və yəhudi tarixi ilə bağlı çoxsaylı kitablar yazıb. Ulutaş həm də İran üzrə mütəxəssisdir. Ulutaşla tanış olan mənbələr onu "çox cilalanmış", "çox ağıllı" və "ifrat Fələstin tərəfdarı" kimi qələmə veriblər.***

Qəzzada fələstinlilərə qarşı artan hücumlara və Donald TrAmp administrasiyasının ABŞ səfirliyini Qüdsə köçürmək qərarından sonra Ankara İsrail səfirindən "məzuniyyətə getməsi"ni istədiyi 2018-ci ilin mayından bəri hər iki ölkədə elçi olmayıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan özünü müsəlman dünyasında Fələstin hüquqlarının müdafiəçisi kimi göstərib və bir zamanlar Türkiyə ilə İsrail arasında yüksələn münasibətlər Ədalət və İnkişaf Partiyasının (AKP) 2002-ci ildə hakimiyyətə gəlməsindən sonra getdikcə pisləşib.



Ankara getdikcə təcrid olunmuş və iqtisadi cəhətdən sıxılmış vəziyyətdə qalır. ABŞ və Aİ sanksiyalarının yaxınlaşdığı bir vaxtda, eyni davranışa - tənqidçilərin ağzını yummaq, Rusiya ilə flört etmək və əzələlərini Aralıq dənizində sərgiləmək kimi davranışlar davam etsə də, Türkiyə bəzi münasibətləri düzəltməyə çalışır.

İsraillə yaxşı münasibətlər də bu məqsədlə normallaşdırılır. MİT rəhbəri Hakan Fidan İsrail rəsmiləri ilə gizli danışıqlar aparıb və səfir səviyyəsində əlaqələri bərpa etmək fikrinin ortaya atıldığı bildirilir.

Ulutaşın namizəd göstərilməsi türk səfirlərinin rutin rotasiyası ilə üst-üstə düşüb. Amma Vaşinqtona və BMT-yə yeni təyin olunanların siyahısında onun adı görünməyib.

AKP-nin qurucu üzvü və hazırda Tokiodakı səfiri olan Murat Mercan ABŞ səfiri təyin olunub. Xarici işlər nazirinin müavini Sedat Önal BMT-nin Nyu-Yorkdakı səfiri olacaq. Amma Ulutaşın təyinatı hələ rəsmi olaraq elan edilməyib. İsrailin tezliklə Ankaraya səfir göndərib-göndərməyəcəyi də bəlli deyil.

***Amberin Zaman***
***"Əl-Monitor", 09.12.2020***

# Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğu həqiqətini bütün dünya qəbul etdi

## Teyyub Qənioğlu: “Xristian təəssübkeşliyi edən ermənipərəst, türk düşməni olan bəzi dövlətlər Azərbaycanın möhtəşəm qələbəsini həzm edə bilmirlər”



***Azərbaycan 27 sentyabrda Ermənistan silahlı birləşmələrinin təxribatçı hücumuna cavab olaraq başlatdığı Vətən Müharibəsini qələbə ilə başa vurdu. Onu da xüsusi qeyd etmək lazımdır ki, bu savaş təkcə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, işğalda olan torpaqların geri qaytarılması ilə nəticələnmədi.***

Əslində bu savaşla 30 ildir kağız üzərində qalan beynəlxalq sənədlərin, BMT-nin qətnamələrinin icrasına nail olundu. İllərdir ki, beynəlxalq aləm Qarabağın Azərbaycan ərazisi olduğunu , Ermənistan tərəfindən işğal edildiyini qəbul etsə də, amma bu ədalətsizliyin üzərinə getmədi. Əksinə, müxtəlif müstəvilərdə ermənilərə dəstək verildi. Bu 44 günlük savaşda da, ondan sonrakı dönəmlərdə də bəzi dövlətlər məsələyə birtərəfli yanaşdılar, hətta Ermənistana dəstək oldular. Bu məsələdə Fransanın adını çəkmək olar ki, bu günlərdə Senatda bütün beynəlxalq hüquq prinsiplərinə zidd olan qətnamə qəbul edilərək hökumətlərini buna dəstək verməyə çağırdı. Təbii ki, Azərbaycan dövləti, xüsusən də Prezident İlham Əliyev hər zaman bu kimi təhdidlərə layiqli cavab verib. Prezident İlham Əliyevin müharibə dövründə verdiyi müsahibələr, etdiyi çıxışlar buna sübutdur. Ölkə başçısı hər zaman ən yüksək tribunalardan beynəlxalq təşkilatların, bəzi dövlətlərin Qarabağ məsələsində ədalətli mövqedən çıxış etməmələrini açıq şəkildə ifadə edib:

“Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik. Bu qətnamələr 27 il idi ki, kağız üzərində qalırdı. Bu qətnamələr 27 il idi ki, sadəcə olaraq, bir çoxları üçün kağız parçası idi, təkcə Ermənistan üçün yox, başqaları üçün də. Biz deyirdik ki, beynəlxalq hüquq bizim tərəfimizdədir, BMT Təhlükəsizlik Şurasının qətnamələri tələb edir, işğalçı qüvvələr torpaqlarımızdan çıxsın. Amma bunun nəticəsi olmadı. Biz beynəlxalq hüquq praktikasında və bölgəmizdə yeni reallıq yaratdıq. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdik. Biz ərazi bütövlüyümüzü bərpa etdik. Biz işğala son qoyduq. Mən bu məsələ ilə məşğul olan vasitəçilərə dəfələrlə demişdim ki, siz buna diqqət yetirin. Siz indi bu məsələnin sülh yolu ilə həll olunmasından danışırsınız. Amma biz bunun tam əksini görürük. Görürük ki, Azərbaycan irsi bu torpaqlarda silinir, Azərbaycan abidələri, tarixi abidələr erməniləşdirilir, Azərbaycan məscidləri dağıdılır, bizim bütün tarixi-mədəni irsimiz silinir, yeni xəritələr tərtib edilir. Ermənistan məktəbləri üçün hazırlanan dərsliklərdə qondarma “Dağlıq Qarabağ respublikası”nın xəritələri dərc edilərkən orada işğal edilmiş bütün torpaqlar bu qondarma quruma aid edilir. Ermənistan xarici dillərdə nəşr etdiyi kitablarda, bukletlərdə qondarma qurumu təqdim edərkən işğal olunmuş bütün torpaqlar əhatə edilir. Onlar qanunsuz yollarla beynəlxalq sərgilərdə iştirak edərkən də eyni hərəkətləri edirlər. Yaxşı, bəs, necə olacaq, siz deyirsiniz ki, bu, sülh yolu ilə həll ediləcək. İndi nə oldu bu xəritələr? İndi bu xəritələr cəhənnəmə getdi, bu xəritələr artıq yoxdur. İndi Kəlbəcər rayonunu boşaldan işğalçılar bütün evləri, binaları, məktəbləri dağıdırlar, sökürlər, öz vəhşiliklərini göstərirlər. Bütün beynəlxalq aparıcı media qurumları bunu lentə alır və dünyaya yayır, biabır edir onları. Onlar özləri özlərini biabır edirlər, qorxaqcasına qaçıblar bizim qabağımızdan. Bizim qabağımızda duruş gətirə bilmədilər. Özlərini yenilməz ordu adlandıranlar, döyüşkən xalq adlandıranlar, bəs nə oldu sizin döyüşkən ordunuz? Haradadır bu? Pərən-pərən oldu, vurduq, dağıtdıq, məhv etdik. Yoxdur Ermənistan ordusu, biz onu məhv etmişik. Bizim döyüş meydanındakı qələbəmiz siyasi qələbəmizi də şərtləndirdi. Ağdam rayonu bizə bir güllə atmadan, bir nəfər də şəhid vermədən qayıtdı. Bu, böyük siyasi uğurumuzdur. Amma əgər o hərbi qələbə olmasaydı, bu da mümkün olmazdı”.

30 ilə yaxın müddətdə Azərbaycana qarşı sərgilənən ədalətsizlik, ikili standart nəhayət ki, arxada qaldı. Azərbaycan Ordusunun gücü, Ali Baş Komandanın siyasəti nəticəsində bütün ədalətsizliklər aradan qaldırıldı və ədalət bərqərar olundu.

Bu barədə fikirlərini “Unikal”la bölüşən Azərbaycan Təkamül Partiyasının sədri Teyyub Qənioglu deyib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və qəhrəman əskər və zabitlərimizin 44 gün ərzində qaniçən, mənfur düşmən üzərində misilsiz qələbəsi ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi ilə yanaşı, öz vətəninin azadlığı uğrunda ölüm-dirim mübarizəsinə qalxmış Azərbaycan xalqının məğlubedilməziliyini bütün dünyaya nümayiş etdirməkdədir. Müsahibimiz təəssüflə qeyd edir ki, özlərini beynəlxalq hüququn, insan hüquqlarının qoruyucusu, dünyada demokratiyanın keşikçisi kimi sırımağa çalışan, əslində xristian təəssübkeşliyi, islamafobiya mövqeyindən çıxış edən ermənipərəst, türk düşməni olan bəzi dövlətlər Azərbaycanın bu möhtəşəm qələbəsini həzm edə bilmirlər: “Onlar heç bir vəclə Cənubi Qafqazı öz təsir dairəsində saxlamaq, bu coğrafiyada söz sahibi olmaq üçün erməni faşistlərindən bir maşa kimi istifadə etmək imkanlarının itirilməsi ilə barışmaq istəmir, regionumuzda yaranmış yeni geosiyasi reallığı qəbul etmirlər. Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsi nəticəsində regionumuzda yaranmış real vəziyyətdə də öz istəklərinə nail olmaq, bu coğrafiyanı yenə də qeyri-sabitliyə düçar etmək, öz təsir dairəsində saxlamaq üçün bu üzdəniraq ”demokratlar, hüquq müdafiəçiləri” yenə də erməni kartından istifadə etməyə can atırlar. Öz məqsədlərinə çatmaq üçün müxtəlif yollarla Dağlıq Qarabağda yaşayan bir ovuc erməni tör-töküntüsünə hansısa bir ”status” verilməsinə nail omaq istəyirlər. Və hələlik tez-tələsik ”qaçqın” ermənilərin Dağlıq Qarabağa qaytarılmasını bunun ilkin yolu hesab edirlər və bu prosesi sürətləndirməyə start veriblər. Bunun üçün Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin 10 noyabrda atəşkəs haqqında imzaladıqları bəyanatın 7-ci maddəsinin yaratdığı imkanlardan istifadə edirlər. Bu bəyanatın 7-ci maddəsində qeyd edilir ki: ”Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır”. Bu maddədə təkcə ”qaçqın”, qatı və israrolunmaz türk düşməni olan ermənilərin deyil, eyni zamanda azərbaycanlıların da doğma yurdlarına qayıtması nəzərdə tutulsa da, hələlik ”sülhməramlıların” hərtərəfli dəstəyi ilə yalnız ermənilər qaytarılır. Həm də KİV-də yayılan məlumatlara görə bunların arasında təkcə keçən əsrin 90-cı illərinə qədər bu ərazilərdə yaşayanlar deyil, işğal illərində xaricdən gətirilmiş çoxsaylı ermənilər də vardır. Təbii, başa düşülür ki, azğın, bütün insani hisslərdən uzaq olan, faşistpərəst, yırtıcı, vandal ermənilər işğal etdikləri bütün ərazilərdə yaşayış məskənlərini darmadağın ediblər və hələlik oralara köçmək üçün şərait yoxdur. İnşAllah yaxın zamanlarda bu ərazilərimiz yenidən qurulacaq, daha da abad ediləcəkdir. Ancaq, axı Xankəndi demək olar ki, dağıntılara məruz qalmayıb və ya onun miqyası o qədər də yüksək deyil. Deməli, Xankəndindən didərgin salınmış soydaşlarımızın ora qayıtmaları mümkündür! Statistik məlumatlara görə işğaldan əvvəl Xankəndində 15 minə yaxın azərbaycanlı yaşayıb. Onların yaşadıqları ünvanlar da məlumdur. ”Sülhməramlılardan” tələb etmək lazımdır ki, erməniləri bu unvanlardan çıxarsınlar və soydaşlarımızın Xankəndinə maneəsiz qayıdışını və təhlükəsiz yaşayışını təmin etsinlər! Bununla yanaşı, soydaşlarımızın Dağlıq Qarabağda öz doğma yurdlarına qayıtmalarının tezləşdirilməsi üçün bərpa işlərinə ilk növbədə Suşada, Xocalıda, Xocavənddə başlamaq lazımdır”.

Partiya sədri onu da qeyd edib ki, Dağlıq Qarabağın hələ də ermənilərin nəzarətində qalan hissəsinin quldur silahlılardan təmizlənməsini tezləşdirmək lazımdır. Onun fikrincə, bu, gecikdikcə üzdəniraq ”arsaxın” cinayətkar ”rəhbərləri” ”sülhməramlıların” hərtərəfli dəstəyi ilə öz yerlərini daha da möhkəmləndirirlər, Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi görüntüsünü yaratmağa çalışırlar: “Hal-hazırda ”sülhməramlılar” Dağlıq Qarabağı de- fakto Rusiya ərazisi hesab edirlər və burada bütün hakimiyyəti öz əllərinə alıblar. Buna son qoymaq üçün tezliklə Xankəndində, Xocalıda, Ağdərədə, Əskəranda, Xocavənddə Azərbaycanın suveren hüquqları bərpa edilməli, erməni havadarlarının Dağlıq Qarabağ ermənilərinə hansısa ”status” qazandırmaq cəhdlərinə son qoyulmalıdır! Onların nəzərinə bir daha çatdırılmalıdır ki, Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, ”Dağlıq Qarabağ münaqişəsi” anlayışı artıq yoxdur, Dağlıq Qarabağ ermənilərinə heç bir status verilməyəcəkdir. Cəhənnəmə getdi status, gorbagor oldu status. Əminəm ki, Qarabağın Azərbaycan ərazisi olduğu həqiqətini bütün dünya bir daha qəbul etdi. Bunu Azərbaycan öz gücünə etdi. Bütün ikiüzlü siyasət yürüdən beynəlxalq təşkilatlar və ermənipərəst, türk düşməni olan dövlətlər isə bu həqiqəti qəbul etmək zorundadırlar”.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı

# "Mesajları ərimə göstərdim ki, məni boşasın..." - Şok olay

***Abşeropn rayonunda arvadına xəsarət yetirməkdə ittiham olunan Yardımlı rayon sakini, 1981-ci il təvəllüdlü Dəyanət Salayevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***

Teleqraf.com-un xəbərinə görə, Dəyanət Salayev Qobu qəsəbəsində fərdi yaşayış evində qısqanclıq zəminində arvadı Sveta Salayeva ilə mübahisə edib, döyərək ona xəsarət yetirib.

Dəyanət Salayev barəsində Cinayət Məcəlləsinin 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma) maddəsi ilə ittiham elan edilib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadəsində Dəyanət Salayev bildirib ki, Sveta onun arvadıdır: "Sveta ilə 2003-cü ildən rəsmi nigahda olmaqla birlikdə yaşayıram və bu münasibətdən 3 övladımız var. Münasibətlərimiz əvvəllər normal olub. Hadisə baş verən günü, səhər saat 9 radələrində yaşadığımız evdə Svetanın mətbəxdən çıxmadığını gördüm, narahat olaraq mətbəxə keçdim. Bu zaman onun küncdə oturmuş vəziyyətdə hansısa bir işlə məşğul olduğunu gördüm.

Ona yaxınlaşdım, Svetanın mətbəxdə olan qab-qacağın içinə nəsə qoyduğunu gördüm. Ondan bu barədə maraqlandım. Sveta mənə aqressiv cavab verdi. Svetanın qəribə davranışlarından şübhələnərək həmin əşyanı götürməyə cəhd etsəm də, Sveta mənə mane olmağa çalışdı".

Təqsirləndirilən şəxsin sözlərinə görə, bu zaman əsəbləşib və Svetanın qollarından tutaraq kənara çəkib: "Sifət nahiyəsindən 4-5 dəfə şillə zərbəsi vurdum. Telefonu götürdükdən sonra Svetanın bir nəfər şəxslə danışdığını gördüm, mübahisəmiz bir qədər də böyüdü, daha ağır nəticələrin baş verməməsi üçün evdən bayıra çıxdım. Bir qədər sonra Svetanın qardaşı bizim yaşadığımız evə gələrək Svetanı özü ilə apardı. Daha sonra Svetanın xəstəxanaya müraciət etdiyi mənə məlum oldu".



Təqsirləndirilən şəxs ifadəsində əlavə olaraq mübahisə zamanı Svetanın sifət nahiyəsindən bir neçə dəfə əli ilə vurduğunu, mübahisənin qısqanclıq zəmnində baş verdiyini, Svetanın telefonda başqa bir şəxslə yazışmasından şübhələnərək mübahisəyə başladığını, mübahisənin təxminən 5 dəqiqə davam etdiyini bildirib.

Dəyanət Salayev qeyd edib ki, sonradan zərərçəkmiş şəxslə barışıb. Əməlindən peşmançılıq çəkdiyini söyləyən Dəyanət Salayev barəsində olan cinayət işinə xitam verilməsini xahiş edib.

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verən Sveta Salayeva qeyd edib ki, təqsirləndirilən şəxs ilə 2003-cü il tarixdən rəsmi nigahda olmaqla birlikdə yaşayır: "Münasibətlərimiz əvvəldən normal olmayıb. Dəyanətdən dəfələrlə boşanmaq istəsəm də, mənimlə razılaşmayaraq ayrılmaq istəmədiyini bildirib. Yalnız xəyanət edəcəyim halda məndən ayrıla biləcəyini dediyi üçün internet saytlarının birində tanımadığım şəxslə mesaj vasitəsilə danışdım, sonradan həmin mesajları Dəyanətə göstərməyi düşündüm".

Sveta Salayeva bildirib ki, bu məqsədlə hadisə baş verən günü, səhər 9 radələrində birgə yaşadıqları evdə olan zaman tanımadığı şəxslə olan mesajlarını Dəyanətə göstərib və boşanmaq istədiyini bildirib: "Dəyanət əsəbləşdi, telefonu əlimdən alaraq mesajlara baxdı və əsəbi halda mənimlə mübahisə etdi. Mübahisə zamanı Dəyanət əli ilə sifət nahiyəmdən bir neçə dəfə zərbə vurdu, taxta və digər məişət əşyaları ilə bel, ayaq və qol nahiyələrimdən də zərbələr endirdi.

Dəyanət bir qədər sonra evdən çölə çıxdı, qardaşım Elçinə zəng edərək yaşadığımız ünvana çağırdı. Elçin oraya gəldikdən sonra məni özü ilə apardı".

Dəyanət Salayevanın sözlərinə görə, həmin gün onun bədən və sifət nahiyələrində xəsarətlər olduğu üçün Sabunçu 3 saylı xəstəxanasına müraciət edib.

Abşeron rayon Məhkəməsinin hökmü ilə Dəyanət Salayevin barəsində olan cinayət işinə xitam verilib. O, cinayət məsuliyyətindən azad olunub.

# Polisin də ölümünə səbəb olan "Saxta içki" işi - "8 litr suya 5 litr spirt qatırdım"

***Bakının məşhur restoranlarında müştərilərə satılan saxta viski və araqlardan 4 nəfərin ölməsi, 6 nəfərin zəhərlənməsi hadisəsi ilə bağlı məhkəmə prosesi davam edir.***

"Qafqazinfo"nun verdiyi xəbərə görə, cinayət işi üzrə 12 nəfər məsuliyyətə cəlb edilib. Onlardan biri məşhur "Baku City" restoranının sahibi Füzuli Alıyev, digəri isə onu saxta içkilərlə təmin edən Xəyal Cəfərovdur. "Baku City" restoranında saxta viskidən vəfat edənlərdən biri də Nərimanov Rayon Polis İdarəsinin 18-ci Polis Bölməsinin əməliyyat müvəkkili, polis baş leytenantı Sərxan Bayramov olub.

Təqsirləndirilən F.Alıyev istintaqa ifadəsində özünü günahkar bilməyib.

O bildirib ki, 2018-ci ilin ortalarından Bakı şəhəri, Tibilisi prospekti, 32 ünvanında yerləşən "Baku City" restoranını Kamran Eyyubovdan icarəyə götürüb işlədir: "Son 7 ildə dostluq etdiyim Sərxan tez-tez restorana gəlirdi. Ötən il dekabrın 21-də Sərxanın dostu Ramin dostları ilə birlikdə restoranda çaxır içdilər. Gecə saat 2-3 radələrində Ramin onlarla birlikdə çıxıb getdi, Sərxan və Raminin qohumu Cəlal əyləşib "Chivas Regal 12" markalı viski, "Red Bull" içib meyvə yedilər, saat 04-05 radələrində Sərxan və Cəlal çıxıb getdi.



Dekabrın 23-ü saat 11 radələrində Sərxanın zəhərləndiyinə görə xəstəxanaya aparıldığını və orada spirtli içki içən daha 3 nəfərin zəhərləndiyini eşitdim".

F.Alıyev deyib ki, restorana baxış zamanı aşkar edilən aksiz markasız spirtli içkiləri ucuz olduğuna görə Xəyal adlı şəxsdən alıb:

"Xəyaldan "S?ivas Regal", "Jack Daniels", "Jameson" markalı viskilərdən, "Nemiroff", "Kremlin", "Beluga", "President" və digər adları yadımda qalmayan araqlar alırdım. Xəyal həftədə 2 dəfə restorana gəlmiş 0,5 litrlik viskini 18, 0,7 litrlik viskini 20 manata, 1 litrlik viskini 25 manata, araqları isə markasından aslı olaraq 8, 10, 12, 15 manata satırdı. Pulu Xəyala özüm ödəyirdim, amma Xəyal hər hansı qaimə-faktura vermirdi. Xəyaldan aldığım spirtli içkilərin saxta olduğunu bilmirdim, ucuz satdığına görə ondan alırdım, içkilərin boş şüşələrini isə Xəyala geri satırdım.

Hadisədən sonra Xəyala dostumun restoranda içdiyi viskidən öldüyünü dedim, o isə gətirdiyi spirtli içkilərdən zəhərlənməyin mümkün olmadığını dedi. Sərxan Bayramov və Cəlal Həmzəyev bizim restorana gələnə kimi Nərimanov rayonu ərazisində yerləşən başqa yerdə də spirtli içki içmişdilər və sərxoş idilər. Sərxan bizim restorandan gedəndən 28 saat sonra vəfat edib, bəlkə də sonra da başqa yerdə içki içib".

"Baku City" restoranını spirtli içki ilə təmin edən Xəyal Cəfərov özünü təqsirli bilərək deyib ki, 3 il əvvəl Bakı şəhərinin "Sovetski" adlanan ərazisində "Şərab evi" adlı mağazanı, il yarım əvvəl isə "Oazis" restoranının yaxınlığında yerləşən şərab evini icarəyə götürüb işlədib: "Lakin maddi səbəblərdən onları bağladım və sata bilmədiyim spirtli içkiləri Sulutəpədə yerləşən evimdə saxlayırdım. Müştəri düşdükcə satırdım, son 2-3 ildə müxtəlif marketlərdən ucuz içkilər alırdım.

Həmçinin tanışım Səxavəddindən bahalı "Chivas Regal", "Nemiroff" və digər spirtli içkilərin boş şüşələrini 1-5 manata, qapağını 1-2 manata alaraq ucuz aldığım içkiləri həmin şüşə qablara doldurub bahalı içki kimi restoranlara, o cümlədən "Baku City" restoranını işlədən Kamal (Füzuli Alıyev özünü Kamal kimi tanıdıb-red.) adlı şəxsə satırdım. Bunları Səxavəddin də bilirdi, içkilər çox keyfiyyətsiz olduğundan bazar qiymətindən çox ucuz satırdım. 2019-cu ilin noyabrında Hökməli dairəsi yaxınlığında yerləşən topdansatış yerindən 40 ədəd 0,5 litrlik 96%-li spirt aldım.

Şüşə butılkaları, qapaqları, başlıqları da Saxavəddindən aldım. Spirtli içki hazırlamağı da mənə Səxavəddin öyrətmişdi. İçki qapaqlarını isə Səxavəddin üçün Bərxudar Həsənov təşkil edirdi. Başlığının bərkidilməsində istifadə olunan örtük əsil içkilərdə alüminium folqadan ibarət olur, saxta içkilərdə isə bunlar polietilen material olur. Saxta araqları 8 litr suya 5 litr spirt qatmaqla, saxta viskiləri isə ucuz olanını alıb bahalı viski butılkularına doldurmaqla hazırlayırdım.

Saxta içkiləri "Baku City" restoranına və Füzulinin yönləndirməsi ilə "Everest" restoranına satırdım. 2019-cu ilin sonunda Səxavəddin dedi ki, tanışı Zaurdan ucuz qiymətə, litri 5 manata spirt ala biləcəm. 2019-cu ilin noyabr-dekabr aylarında Sumqayıt şəhərində yerləşən meyvə bazarının yaxınlığında təxminən 35-40 yaşlarında olan Zaurla görüşərək litri 5 manatdan hər dəfə 20 litrlik plastik qablarda spirt alırdım. Söhbət zamanı Zaur həmin spirti zavoddan götürdüyünü, musiqi müəllimi olduğunu, özünün sexində müxtəlif markalı içkilər də hazırlayıb satdığını dedi. Zaurdan aldığım spirtdən istifadə etməklə ayrı-ayrı vaxtlarda "Chivas Regal 12" viski və "Minsk" markalı araq düzəldərək "Baku City" restoranına satırdım".

# Ölkədə orta aylıq əmək haqqı 705 manata düşüb

***Bu il noyabrın 1-nə Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 44,3 min nəfər və yaxud 2,7 % artaraq 1 685,3 min nəfər olub, onlardan 914,9 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 770,4 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.***

"Unikal" bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir. Məlumata görə, muzdla işləyənlərin 19,5%-i təhsil, 18,2%-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,1%-i sənaye, 8,2%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 8%-i tikinti, 6,6%-i dövlət idarəetməsi və



müdafiə; sosial təminat, 4,5%-i nəqliyyat və anbar təsərrüfatı, 3,5%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4%-i peşə, elmi və texniki fəaliyyət, 1,8%-i maliyyə və sığorta fəaliyyəti, 13,2%-i isə iqtisadiyyatın digər sahələrində məşğul olub.

2020-ci ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 14,7% artaraq 704,5 manat təşkil edib. Amma bu rəqəm yanvar-sentyabr ayları ilə müqayisədə 0,3% azdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

# Azərbaycanda illik inflyasiya 2,8% qalıb

***Bu ilin yanvar-noyabr aylarında Azərbaycanda istehlak qiymətləri indeksi ötən ilin eyni dövrünə nisbətən 102,8 %, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 105%, qeyri-ərzaq məhsulları üzrə 101,3 %, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 101% təşkil edib.***

"Unikal" bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir. Məlumata görə, bu ilin noyabr ayında isə istehlak qiymətləri indeksi oktyabr ayı ilə müqayisədə 100,5 %, ötən ilin noyabr ayına nisbətən 102,4 % olub.

Ötən ay ölkədə ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki ayla müqayisədə 0,4 %, ötən ilin noyabr ayına nisbətən isə 3,9 % çox olub.

Noyabrda oktyabrla müqayisədə ayrı-ayrı ərzaq məhsullarından daha çox artım makaron məmulatlarının, toyuq ətinin, pasterizə olunmamış üzlü südün, yoqurtun, xamanın, kəsmiyin, brınza pendirinin, yumurtanın, günəbaxan və qarğıdalı yağlarının, bananın, üzümün, fındığın, xiyarın, pomidorun, bibərin, badımcanın, çuğundurun, göy lobyanın, soğanın, sarımsağın, şəkər tozunun qiymətlərində, azalma isə əsasən mal və qoyun ətinin, təzə və dondurulmuş balığın, limonun, portağalın, naringinin, almanın, armudun, heyvanın, narın, xurmanın, kivinin, şabalıdın, kələmin, balqabağın, yerkökünün qiymətlərində müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Ötən ay qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 %, ötən ilin noyabr ayı ilə müqayisədə isə 101,2 % təşkil edib. Noyabrda oktyabrla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri 100,9 %, ötən ilin noyabr ayına nisbə-



tən isə 101,1 % təşkil etib. Ayrı-ayrı xidmət növlərindən daha çox bahalaşma dişlərin müalisəsi, minik avtomobillərinin mühərrik yağının dəyişdirilməsi, bərbərxana və kosmetoloji xidmətlərdə müşahidə olunub. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

# Azərbaycan və İtaliya arasında İqtisadi əməkdaşlıq üzrə birgə görüşü keçirilib

***Dekabrın 9-da energetika naziri Pərviz Şahbazov ADA Universitetində İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefanonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə cari ilin fevral ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri zamanı İtaliya-Azərbaycan təhsil proqramının genişləndirilməsi və İtaliya-Azərbaycan Universitetinin yaradılması məqsədilə ADA Universiteti ilə Luiss Universiteti arasında imzalanmış sazişə əsasən bu istiqamətdə işlərin davam etdirilməsinin əhəmiyyəti vurğulanıb. ADA Universitetinin rektoru, professor Hafiz Paşayev tərəfindən qeyd edilmiş əməkdaşlıq çərçivəsində həyata keçirilmiş hazırlıq işləri ilə bağlı məlu-



mat təqdim edilib.

Görüşdə nazir Dağlıq Qarabağ münaqişəsinin gedişatında İtaliya hökumətinin mövqeyinə görə, həmçinin dövlət katibinə ünvanlanmış məktuba qısa zaman ərzində münasibət bildirildiyi üçün qonağa təşəkkürünü ifadə edib.

Manlio Di Stefano Ermənistanın işğalından azad edilmiş Ağdama səfərinin təəssüratlarını bölüşüb. O, İtaliya şirkətlərinin işğaldan azad olunmuş ərazilərdə həyata keçiriləcək quruculuq işlərində iştirakda maraqlı olduğunu bildirib. Həmçinin iki ölkə arasında iqtisadi-ticarət münasibətlərinə toxunulub, İtaliya şirkətləri ilə hazırda davam edən və gələcəkdə həyata keçiriləcək layihələr müzakirə edilib.

Cənub Qaz Dəhlizi və layihənin son komponenti olan Trans-Adriatik boru kəmərinin əhəmiyyəti vurğulanıb, dəhliz vasitəsi ilə tezliklə Azərbaycan qazının Avropaya nəqlinə başlanmasının nəzərdə tutulduğu bildirilib.

Yekunda Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın gələn il Bakı şəhərində keçiriləcək 6-cı iclasına hazırlıq işlərinin müzakirə edilməsi məqsədilə videokonfrans formatında görüşün keçirilməsi razılaşdırılıb.

# "Hökumət Ödəniş Portalı" ilə "YAŞAT" Fonduna ianələr mümkün olacaq

***Prezident İlham Əliyevin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə yaradılmış "YAŞAT" Fonduna ediləcək ianələrin Azərbaycan Mərkəzi Bankının (AMB) operatoru olduğu "Hökumət Ödəniş Portalı" vasitəsilə də qəbulu imkanı yaradılıb.***

AMB-dən "Unikal"a bildirilib ki, bütün hüquqi və fiziki şəxslər ölkədə fəaliyyət göstərən bankların və milli poçt operatoru olan "Azərpoçt" MMC-nin "Hökumət Ödəniş Portalı"na inteqrasiya olunmuş filial və şöbələrində istər nağd formada, istərsə də nağdsız ödəniş alətləri vasitəsilə, o cümlədən portalın internet səhifəsindən (https://gpp.az/yasat) və mobil tətbiqindən ("Android" və "iOS" platformalı) istifadə etməklə 24/7/365 rejimində fondun hesablarına vəsaitləri köçürə bilərlər.

Azərbaycan Beynəlxalq Bankında açılmış hesabların rekvizitləri barədə məlumatlar Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin rəsmi internet səhifəsində (http://vxsida.gov.az/az/article/1484) yerləşdirilib.

# "Qara qızıl"ın qiyməti son 9 ayın maksimum səviyyəsindədir

***Neft qiymətləri həftə ərzində aşağı düşməsinə baxmayaraq, hələ də son 9 ayın maksimum səviyyəsindədir.***

"Unikal" xəbər verir ki, ABŞ-da neft ehtiyatlarının rekord həcmdə artması fonunda COVID-19-a qarşı peyvəndlə bağlı müsbət inkişafların yaratdığı nikbin gözləntilərin təsiri ilə "qara qızıl"ın qiyməti də yüksəlir.

Ekspertlər peyvəndlə bağlı inkişafların qlobal enerji tələbatında canlanma yaradacağına ümid edirlər. Yaxın müddətdəki istehlak göstəriciləri isə gözləntilərə təzyiq göstərsə də, neftin fyuçers əyrisi investorların gələn il üçün ümidli olduqlarını göstərir.

Bazarlar investorların peyvəndin uzunmüddətli təsirlərinə diqqət yetirməsi ilə dəstəkləyici vəziyyətdədir.

Qeyd edək ki, hazırda "Brent" markalı xam neftin bir barreli Londonun ICE birjasında 48,81 dollara, "Light" neftinin bir barreli isə Nyu-Yorkun NYMEX birjasında 45,59 dollara alıcı axtarır.

# AZAL-dan beynəlxalq uçuşlarla bağlı açıqlama

***Azərbaycandakı bütün hava limanları 31 yanvar 2020-ci il tarixinə qədər müntəzəm sərnişin reyslərinin həyata keçirilməsi üçün bağlıdır.***

"Unikal" xəbər verir ki, bu barədə "Azərbaycan Hava Yolları" QSC-nin açıqlamasında (AZAL) bildirilir.

Məlumatda həmçinin deyilir ki, karantin dövründə Nazirlər Kabineti yanında Operativ Qərargahın icazəsi ilə xüsusi reyslərinin yerinə yetirilməsi davam etdirilir.



# "Özünü yaralı hərbçinin üzərinə atıb" - Şəhid olan ilk həkimimiz

***"Turqut hər ay maaşından 200 manat kimsəsiz, xəstə və ehtiyacı olan şəxslər üçün ayırırdı. Biz bunu o şəhid olandan sonra bilmişik".***

"Unikal"xəbər verir ki, bunu trend-ə açıqlamasında Vətən müharibəsində canından keçmiş şəhid Turqut Xəlilbəylinin atası Nadir Xəlilbəyli deyib.

Onun sözlərinə görə, oğlu hər zaman torpaqlarımızın işğaldan azad olunacağına inanırdı: "Turqut çox qeyri-adi övlad olub. Uşaq vaxtından hər kəslə dil tapardı, böyükdən-kiçiyə kimi hamı onun dostu idi. Mehriban, gülərüz bir uşaq idi, hər kəsə özünü sevdirmişdi. Məktəb illərindən istedadlı uşaq olub, altıncı sinifdən Türkiyə liseyinə gedib, oranı bitirdikdən sonra isə Tibb Universitetinə - hərbi həkimliyə daxil olub. Təhsil aldığı dövrdə yalnız həftə sonları evə gələrdi. Orada da yüksək nəticələri var idi. Universiteti bitirdikdən sonra isə Beyləqana təyinat verdilər. Elə orada da hərbçi kimi fəaliyyətə başladı və üç il işlədi".

N.Xəlilbəylinin sözlərinə görə, Turqut arxa cəbhədə hospitalda işləməli idi, ancaq öz istəyi və xahişi ilə yoldaşları ilə ön cəbhədə olmaq istədi.

Turqut Xəlilbəylinin anası Almaz Hüseynova isə bildirib ki, Turqut hərbçi yoldaşları ön cəbhədə ola-ola, özü arxada ola bilməzdi: "Mənim xəbərim yox idi ki, Turqut müharibədədir. Nə vaxt telefonla danışsam, deyirdi hər şey yaxşıdır. İstəmirdi ki, ona görə nigaran qalım. Ön cəbhədə olduğunu bildiyimdə mənə söylədi ki, yoldaşları orada yaralanarsa, mütləq onlara kömək olmalıdır. O, hospitalda əsgər-zabitlərə qulluq etməliydi, ancaq öz istəyi ilə döyüş bölgəsinə getdi. Hər gün telefonla danışırdıq, ancaq şəhid olan günü elə səhər danışdım, sonra xəbər ala bilmədim".

Turqutun döyüş yoldaşları onun hərbçi yoldaşlarından birini xilas edən zaman şəhid olduğunu söyləyiblər: "Bir gün hərbçi yoldaşları ilə Cəbrayılda mərmi yağışına düşüblər. Həmin an hamı özünü bir küncə sıxanda Turqut çətin bir şəraitdə yenə də yaralılara yardım edirmiş. Onlardan üçünü sürüyərək çökək bir yerə gətirib yığıb. Belə vəziyyət 3 dəfə olub, onlardan birində özü də yaralanıb, ancaq özünü digər yaralı hərbçinin üzərinə atıb ki, o, sağ qalsın, özü isə şəhid olub".

Xatırladaq ki, Turqut Xəlilbəyli oktyabrın 7-də Cəbrayıl uğrunda gedən döyüşlərdə şəhid olub. O, Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olan ilk həkimdir.

# Qalanı xatirədir...

***Həyatımızın ən şirin xatirələri uşaqlıq illəri ilə bağlıdır. Mən, qardaşım Valid və dayım oğlu Ramil. Necə də xoşbəxt idik. Bir oynayır, bir əylənir, bir şənlənirdik. Bizə elə gəlirdi, illər belə davam edəcək və biz bu həyatda istəyimizə nail olacaq, uğurlarımıza sevinəcək və valideynlərimizi də sevindirəcəyik. Nə gözəl arzular idi. Bu, arzular ürəyimizdə yuva salmışdı, çiçək açmışdı. Onların bir gün pərvazlanıb istədiyimiz ünvana çatacağına inanırdıq, sevinirdik. Bu uşaq təxəyyülü idi. Bu təxəyyül bizi zirvələrə səsləyirdi. Uçmağa qanadımız yox idi.***

Valideynlərimizin diqqət və qayğısından da kənarda qalmazdıq. Biz böyüdükcə arzularımız da böyüyür, çiçək açırdı. Lakin həyatın da, sən demə, amansız qanunları var imiş. Uşaqlıq vaxtı dərk etməzdik. Yaşa dolandan sonra anladıq ki, həyatın yolu heç də hamar deyil. Heç ağlıma gəlməzdi ki, bir gün öyündüyüm, fəxr etdiyim, özümdən də artıq çox istədiyim qardaşım Validi, dayım oğlu Ramili nə vaxtsa itirəcəyəm. Nə ağır dərd imiş bu. Nə amansız, ağlasığmaz yükü varmış bunun. İçim göynəyirdi, ürəyim əsirdi, qəlbim od püskürürdü, damarlarımda axan qan donurdu, gözlərimin işığı zəifləyirdi, özümü dünyanın ən zəif və köməksiz insanı sayırdım. Əlimdən nə gəlirdi? Əgər bir can tələb olunsaydı, canımı verərdim, kaş ki, qardaşlarım sağ qalaydılar.

Valid yaşca məndən böyük idi. Qardaşım olduğuna görə, onu tərifləmək fikrindən çox uzağam. Onu tanıyanlar - qohumlar, qonşular, oxuduğu universitetdə tələbə dostları onun nəzakətli, ağıllı, intizamlı olduğunu dəfələrlə söyləyirdilər. Bu da məni bir bacı kimi sevindirirdi. İndi o, yoxdur. Allahın dərgahındadır. Özü getdi, mənim də ürəyimin parasını özü ilə apardı. Sənsiz mən necə yaşayacağam? Qardaşın kimdir, sualına nə cavab verəcəyəm? Niyə məni tək qoydun, niyə? Suallara cavab tapmaq çox çətindir....Validin gözlərində yeganə balamın surətini həmişə görərdim. Çünki uşaq vaxtı onu çox əzizləmiş, sanki öz balası kimi qayğı göstərmiş, məhəbbətini ondan əsirgəməmişdir. Mən bir bacı kimi bunu ömrüm boyu unutmaram. Lakin tale qardaşıma qarşı amansız və qəddar oldu. Uşaqlıq vaxtında deyib-güldüyümüz anlar kədərə, qəmə büründü. Valid xəstələndi, xəstəliyi ilə də bizə böyük bir dərd, kədər gətirdi. Oktyabr ayının 5-də Valid 35 yaşında dünyasını dəyişdi və bütün xoş arzu və istəklərini özü ilə apardı, onu sevənləri gözüyaşlı qoydu. Yer-göy başıma fırlandı. Onu özümə qardaş kimi yox, atamdan sonra arxa, dayaq bilirdim. İndi arxamın bir tərəfi boşalıb, dayağımın bir tərəfi büdrəyib. Hərdən gecələr yatanda gözlərimi onun şəklinə zilləyib soruşuram: Hardasan, ay Valid? Cavab gəlmir. Gözlərim yaşla dolur.

Heç ağlıma gəlməzdi digər qardaşım (nadir hallarda ona dayı oğlu kimi müraciət edərdim. O, mənə Valid kimi doğma qardaş idi. Mən həyatda onları özümə iki qardaş bilmişəm) Ramili də oktyabr ayında itirəcəyəm. Bu da böyük bir dərd olub hamının ürəyindən ağır bir yük kimi sallandı. Ramil Lələtəpədə, aprel döyüşlərində düşmənə qarşı igidliklə vuruşmuşdu. Onun qəhrəmanlığını nəzərə alaraq, komandanlıq tərəfində xüsusi tərifnamə verilmişdi.

27 sentyabrda Vətən müharibəsi başlayanda könüllü surətdə müharibəyə yollandı. Onu bu yoldan çəkindirənlər də oldu. Lakin Ramili inadından döndərən olmadı. "Döyüş yoldaşlarım artıq yola düşüblər, getməsəm, məni qorxaqlıqda qınayarlar. Həm də arxayın olun, sağ və salamat qayıdacağam, özü də Qələbə ilə"



Ramil təkcə bizim yox, elimizin-obamızın sevimlisi idi. Özünün səmimiyyəti, şirin danışığı, incə yumoru, mərdliyi, cəsarəti ilə seçilirdi. Kim dara düşərdisə imkanı daxilində kömək əlini uzadardı. Bir sözlə, ona etibar etmək olardı.Müharibə başlayanda da öz xarakterini göstərdi. Ramil Hadrut rayonunun azad edilməsində igidcəsinə vuruşdu. Atışma gecəgündüz davam edirdi. Düşmən məkrli idi. Bu, Azərbaycan əsgərlərini qorxutmurdu. Ramili yuxusuzluq, susuzluq taqətdən salmırdı. Əksinə, erməni faşistlərini məhv etmək istəyi ilə yaşayırdı. Özünü düşmən gülləsindən qoruyurdu. Yaralı dostlarını hospitala çatdırdı.



Geri çəkilmək olmazdı. Hadrut alınmalı, ardınca digər rayonlar işğaldan azad edilməli, Şuşaya Azərbaycan bayrağı taxılmalı idi. Şanlı ordumuzun hər bir üzvü kimi, Ramil də bu arzu ilə yaşayırdı.

Döyüşlərin birində əsgər dostlarından biri yaralandı. Onu torpağın üstündə tək qoymaq olmazdı. Düşmən tərəfindən güllələr vıyıldayırdı. Gərgin döyüş gedirdi. Ölüm-dirim savaşı idi. Bizim əsgərlər yağı düşmənə layiqli cavab verirdilər. Hamı hücuma keçmişdi.

Ramil dostunu döyüş meydanından çıxartmaq istəyəndə, düşmən gülləsi igid, cəsur Azərbaycan əsgərini haqladı və o, mənim istəkli qardaşım həlak oldu, bununla da şəhidlik zirvəsinə yüksəldi. Mən inanıram ki, həmin an onun gözləri qarşısından anası, atası, bacısı gəlib keçib. Bu, şübhəsiz belədir.

Qardaşımın birisini itirmişdim. İkincisini eyni ayda itirəsi oldum. Yaxın adamı itirmək sanki özünü də bu həyatda itirmiş olur. Ölüm xəbərini yaxına buraxmaq istəmirdik. Lakin nə etməli?

Həmin günlər Ramil anası Güldanənin yuxusuna tez-tez girərdi. Oğlunun tezliklə qələbə ilə qayıdacağına böyük umidlər bəsləyirdi. İnanırdı ki, torpaqlar tezliklə şanlı ordumuzun qəhrəmanlığı nəticəsində azad olunacaq və onlar ailəlikcə doğma rayonlarına - Qubadlıya qayıdacaqdılar. Bu, böyük arzu idi. Bu arzunun 27 il həsrətinə son qoyulmalı idi. Torpaq həsrətinə son qoyuldu, lakin Ramilsiz. Onun ölüm xəbərini anasına çatdırmağı heç kim cürət etmirdi. Güldanənin yanına gələn qohum-əqrabənin hər gün sifətlərində bir işıq, aydınlıq, nikbinlik görərdi, indi isə, əksinə, qəmqüssə görürdü.Ana ürəyi hər şeyi görür, hiss edir. Onun gözləri yolda, oğlu Ramilin gəlişini gözləyirdi. Bir an sanki namərd gülləsi ürəyini deşdi.

-Verin mənim balamı, gizlətməyin məndən, verin balamı.... - Güldanənin qəfil səsi eşidildi. Bu səsdə dəhşətli bir ağrı var idi. Ana ürəyi öz balasının şəhid olduğunu duymuşdu. Çox çəkmədi Güldanə yeganə oğlu Ramilin yoxluğuna dözməyib dünyasını dəyişdi və oğlu ilə əbədiyyatda qovuşdu.

Mən qardaşlarımı itirsəm də, buna inana bilmirəm. Tez-tez pəncərə önündə dayanır, Validin işdən, Ramilin isə əsgər formasında cəbhədən qayıdacaqlarına həsrətlə baxıram. Lakin onların gəldiyi yollarda hələ ki, heç kim görünmür. Ramilin şəkili doğma baba yurdunda evin qarşısında asılıb. Kaş şəkili yox, Ramilin özü rayonun küçələrində addımlayardı. Biz də ona qoşulardıq.

Hərdən uşaqlıq illərimiz yadıma düşür. Necə də doğma və mehriban idik. Necə də gözəl, qayğısız günlər idi. Birbirimizi görməyəndə darıxardıq. Həyətdə bir yerdə oynayanda valideynlərimiz pəncərədən bizi səsləyərdilər. Həmin səslər hələ də qulağımdadır. :

-Valid, Ramil, tez olun, evə gəlin.

Kaş hər ikisi sağ olaydı, yenə anaları onları həmişəki kimi, səsləyərdilər. Bu mümkündürmü? Onları bir daha geri qaytarmaq olarmı? Bacılarının göz yaşlarını qurutmaq olarmı? Suallar sonsuz... sonsuz... Xatirələr isə yaşayır.

**Xalq artisti Alim Qasımovun "Xatirədir", adlı oxuduğu mahnıda belə misralar var:**

**Xəyaldı, yoxsa yalan,**
**Gəlib keçdi nə zaman?**
**Sevginin ömrü bir an,**
**Qalanı xatirədir...**

Nur üzlü qardaşlarım hər zaman hamımızın ürəyində, xatirələrində yaşayacaqsınız.

Allah sizə rəhmət eləsin!

***Nərmin Eyruzqızı***

# Adranikə qan udduran Sultan bəydən maraqlı faktlar

## Qarabağa ilk dəfə topu o gətirdi, dostu kürəyindən vurdu, Atatürk ona malikanə bağışladı

***"Unikal" kulis.az-a istinadən Laçın elindən olan, uzun illər ermənilərə qarşı döyüşən xalq qəhrəmanı Sultan bəy Sultanov haqqında maraqlı faktları təqdim edir.***

Sultan bəy Əlipaşa bəy oğlu Muradov Sultan bəy 1871-ci ildə Zəngəzur qəzasının Hacısamlı nahiyəsinin Qasımuşağı obasında (Hazırkı Laçın rayonunun Kürdhacı kəndində) doğulub. Paşa bəyin oğlu olub. Sultan bəy bir zamanlar Muradov soyadını daşıyıb. Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Xosrov bəy Sultanovun qardaşı olub.

***

Sultan bəy ilk təhsilini evdə xüsusi müəllimlərdən aldıqdan sonra Paşa bəy onu Gəncəyə gimnaziyaya qoyur. Gimnaziyada təhsilini başa vuran Sultan bəy daha mükəmməl hərbi təhsilə yiyələnmək arzusu ilə Sankt-Peterburqa üz tutur. Burada bir neçə ay yaşadıqdan sonra Sankt-Peterburq Hərbi Akademiyasına daxil olur. Sultan bəy haqqında olan mənbələrdən belə bəlli olur ki, o, hərbi təhsilini başa vura bilmir. Bu haqda müxtəlif fikirlər söylənilir. Bəzi mənbələrdə göstərilir ki, guya təhsilini atasının xahişi ilə yarımçıq qoyub vətənə qayıdır. Bəzilərində isə qeyd edilir ki, o zaman rusların qafqazlılara, müsəlmanlara qarşı apardıqları şovinist münasibətə dözə bilmədiyi üçün müəllimləri ilə arasında münaqişə yananır və nəticədə Sultan bəy Akademiyadan xaric edilir.

***

O, Laçına qayıdandan sonra bir müddət maldarlıqla məşğul olur. Fransadan avadanlıqlar gətizdirən Sultan bəy ilk olaraq Laçında yağ-pendir zavodu açır, taxta istehsal edən sex yaradır. Teymur bəy Həsənbəyovun qızı Dilruba xanımla ailə həyatı qurur. Bu nikahdan onun Ənvər bəy, Çingiz bəy, Yusifkamal bəy adlı oğulları və Bəyim xanım adlı qızı dünyaya gəlir.

***

Əslən Laçınlı olan Cəfərqulu Həsənovun xatirələrində Sultan bəy haqqında yazır:

"Laçın rayonu Qarakeçdi kəndində Sultan bəyin qardaşı İsgəndər bəylə yerli orqanlar arasında anlaşılmazlıq yaranır. Pristav İsgəndər bəyi nəzarətə saldırır. Sultan bəy tək-tənha, heç kimə xəbər vermədən atı minib Qarakeçdi kəndinə gəlir. Pristav onu görəndə həyəcanlanır və səhv etdiyini düşünür. Hər kəs Sultan bəyin qardaşını azad edəcəyini gözləyərkən, Sultan bəy tamamilə başqa addım atır. O, pristava deyir: "Qanun hamı üçün qanundur. Əgər qardaşım səhv edibsə, cəzasını çəkməlidir. Mən bura ona görə gəlmişəm ki, el-obam deməsin, Sultan bəy qardaşının yanına gəlmədi". Bu sözləri eşidən pristav Sultan bəyin qardaşını azad edir".

***

1905-ci ildə Qarabağda erməni-müsəlman münaqişəsi dözülməz həddə çatır. Bu zaman Paşa bəy könüllü dəstələr yaradaraq ermənilərlə vuruşmağa başlayır. Belə dəstələrin birinə oğlu Sultan bəy rəhbərlik edir. Günü-gündən bu könüllü dəstələrin sayı artır. Onlar Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarında düşmənə layiq olduğu cəzanı verirlər.

Sultan bəyin milli qəhrəmana çevrilməsi 1905-ci il erməni-müsəlman hadisələri ilə bağlıdır. Laçın bölgəsinin bir çox kəndlərində aparılan görüşlər sayəsində top və dövrün yaxşı silahlarını almaq üçün insanlar Sultan bəyin dəstəsinə kömək etməyə başlayırlar. Qaratel xanım Paşa bəy qızı danışırmış ki, Sultan bəyə bir ətək qızılgümüş verdik ki, top ala bilsin. Bu yardım sayəsində Sultan bəy bir ədəd top alıb Qaragöl tərəfdə qoymaqla Andranikin qoşunlarını Laçın (Abdallar kəndi) şəhərinin ətəyindəki Zabux çayında məhv edənə qədər Gorus şəhərini nəzarətdə saxlamaq mümkün olmuşdu. Elə bu top da Andraniki məcbur etmişdi ki, Sultan bəylə danışığa getsin.

***

Tədqiqatlara görə, 1918-ci ildə erməni quldur dəstəsinin rəhbəri Andranik Dağlıq Qarabağa keçmək üçün Qarabağ general-qubernatoru Xosrov bəy Sultanova icazə məktubu göndərir. Xosrov bəy qardaşı Sultan bəylə məsləhətləşir. Sultan bəy qardaşından icazə verməsini xahiş edir. İcazə alan Andranik tez bir zamanda 30 minlik ordu ilə müsəlmanlara qarşı hücuma kecir. Hərbi təhsilə yiyələnmiş Sultan bəyin uzaqgörənliyi nəticəsində Andranikin ordusu Zabux dərəsində mühasirəyə düşür və düşmən darmadağın edilir. Deyilənlərə görə, cəmi üç nəfər erməni qacıb canını qurtara bilir.

***

Sultan bəy igidliyinə və qoçaqlığına görə dastanlaşan qəhrəmanlarımızdandır. O, ədəbiyyatımıza mərd, qoçaq bir obraz kimi daxil olub. Yazıçı Süleyman Rəhimov özünün nəhəng epopeyası "Şamo"da Sultan bəy haqqında bəhs edib.



***

Azərbaycanda Şura hökuməti qurulduğu ilk gündən əsas diqqəti Sultanovlara yönəldir, onlarla haqq-hesab çürütmək əsas məqsədə çevrilir. 1921-ci il iyulun 23-də sovet qoşun hissələrinin dəstəsi Sultan bəyin üzərinə göndərilir, onun tərəfdarları tərksilah edilir, özü isə naməlum istiqamətdə yoxa çıxır.

***

Sultan bəy özünün qaldığı dağ evinin ətrafındakı təpələrə 12 pulemyot düzdürür. Sovet hakimiyyətindən qaçaq vəziyyətdə Kürdhacı kəndində "Gorgahat"ın meşəsində, dağda, yarğanda gizlənir.

***

Ermənilərin hiylələri ilə ruslar Sultan bəyə yeni sui-qəsd hazırlayırlar. Hər tərəfdən təqib olunduğunu bilən Sultan bəy, əvvəllər onun yanında xidmət göstərmiş Bülövlük bəylərindən olan Museyib bəyi çağırır, birbirlərinə sədaqətli olacaqlarına and içirlər. Sultan bəy öz andına sadiq qalır. Museyib bəy isə sovet hökumətinin verdiyi vədlərə uyur, bolşeviklərə qoşulur. Sultan bəyi aradan götürəcəyinə söz verir. Bu məqsədlə silahlanıb Sultan bəyin olduğu "dağ evi"nin yaxınlığında ona atəş açır. Güllə Sultan bəyin çiynini yaralayır. Hava işıqlanan kimi ruslar həmin yeri mühasirəyə almağı planlayırlar. Elə həmin gecə Sultan bəyi götürüb Qırxqız dağının dibində, qayaların içərisindəki bir kahaya gətirirlər. Vəziyyətin mürəkkəbliyini dərk edən Sultan bəy getməzdən əvvəl Azərbaycan İnqilab Komitəsinə müraciət edir. Buradan ümidverici cavab almadığına görə İrana keçmək qərarına gəlir.



***

Sultan bəy dostlarının bələdçiliyi və köməyi ilə Qarqar çayını keçərək dağ cığırları vasitəsilə Qarabulaq-Malaqan istiqamətilə irəliləyir. Sultan bəyi sağ-salamat Araz çayından İrana keçirirlər. Orada onun qardaşı İsgəndər bəy öldürülür. Sultan bəy gizləndiyi yer isə mühasirəyə alınır. Həmin günü Sultan bəyin ailə üzvlərini, həyat yoldaşı Dilruba xanımı və övladlarını həbs edərək Laçından çıxarırlar.

***

İran şahı təhlükəsiz həyat şəraitini təmin edə bilmədiyi üçün Sultan bəyə Türkiyə dövlətinə müraciət etməyi məsləhət görür. Müraciətə görə, türk dövləti 1923-cü ildə Sultan bəyi və Xosrov bəyi rəsmi keçidlə qarşılayır. Mustafa Kamal Atatürkün Sultan bəyə böyük hörməti olub. Bir bəy kimi yaşamasını təmin edib, ona Qars vilayətinin Köçqoy kəndində mülk və malikanə verərək təhlükəsiz həyat şəraiti yaradır.

***

Sultan bəyin mühacir həyatı barədə məlumat olduqca azdır. Bircə o məlumdur ki, 1955-ci ildə Qars ətrafında, Köçqoy kəndində vəfat edib. Bu barədə Türkiyə radiosu belə bir xəbər verib: "Tacirlər-taciri Sultan bəy 1955-ci ildə 79 yaşında vəfat etdi. Tanrı ona rəhmət etsin".

Sultan bəyin qızı Bəyim xanım anasına istinadən deyirmiş ki, atam bir dəfə Atatürkün görüşünə getmişdi. Bu o vaxt idi ki, Andranikin qoşununu məğlub etmiş, xeyli döyüş sursatı ələ keçirmişdi. Görüş vaxtı Atatürk deyib ki, "Yaşa, Sultan bəy, sən qurd dərisindən papaq qoyan əsgərlərinlə Andranikin anasını ağlatmısan. Ona görə də Türkiyənin qapıları sənin üzünə həmişə açıqdır".

***

Sultan bəy mühacirətdə olarkən onun ailəsi olmazın müsibətlər çəkir. 1923-cü ildə onlar bəyin Ağdamda olan mülklərinin birində qohumlarının himayəsində yaşayırlar. 1930-cu ildə bəyin qardaşı Rüstəm bəy ailəni Bakıya gətirir. Sultan bəyin xanımı ziyalı və qoçaq qadın olduğundan xeyli vaxt məsul vəzifələrdə işləyib. Bir müddət Bakı Şəhər Sovetinin deputatı da olub. 1937-ci ilə qədər kirayədə qalıblar. Otuzuncu illərin həyəcanlı gecələrinin birində qapı döyülür və Bəyim xanıma bildirirlər ki, həbs olunursunuz.

***

1937-ci il noyabrın 2-dən 3-nə keçən gecə Sultan bəyin ailə üzvləri, Leninqraddan yenicə qonaq gəlmiş qızı Bəyim xanım və hələ bir yaşı tamam olmamış uşağı həbs edirlər. Onları aparanlar yalnız evdən paltar və yatacaq götürməyə icazə verirlər. Bir də Sultan bəydən yadigar qalan Quranı və balaca xurcunu götürə bilirlər. Əvvəlcə Bayıl türməsinə, oradan Gəncə türməsinə və bir ay sonra isə Gəncədən əsgərlərin müşayiəti altında yük qatarı ilə bir ay səkkiz gün yol gedib Qazaxıstanın Çimkənd vilayətində, Suzak rayonunda Çulakkurqan kəndində yerləşirlər. Bəyim xanımın dediyinə görə, M.Ə.Rəsulzadənin ailəsi də onlarla həmin kənddə bir müddət qonşu olub. Sultan bəyin arvadı, üç oğlu və bir qızı 1955-cı ilə qədər Qazaxıstanda sürgün həyatı keçirdikdən sonra 1956-cı ildə Azərbaycana qayıda bilirlər.



## Xanlar Hacınəbi

Nə anlayar nadan, naşı, -
Ocaq yolu, pir yolu var!

Hacınəbiyev Xanlar Fikrət oğlu 1987-ci ildə Qazax rayonunun qədim-qayım İncə Dərəsində, Aslanbəyli kəndində doğulub. Ailəlidir, 2 övladı var. Hazırda Bakı şəhərində yaşayır.

### Kəndə gəlmişəm

Uşaqlıqdan bəri gələn dostlarım,
Yığışın bir yerə, mən də gəlmişəm.
Ay çubuq atları çapan dostlarım,
Peşiman qayıdıb kəndə gəlmişəm.

Eh... cavan olmuşam, səhv eyləmişəm,
Mən şəhəri kənddən üstün bilmişəm.
Karvanım qayıdıb, köçüm qayıdıb,
İndi məlul-məlul kəndə gəlmişəm...

Kənddə olanların qədrin bilməyib,
O qərib şəhərdə qonaq qalmışam.
Heç daha yaşım da o yaş deyil ki... -
Qara saçlarıma dən də salmışam!

Məni qınamayın, qəlbim kövrəlib,
Dumanda gəlmişəm, çəndə gəlmişəm.
Yığışın dostlarım, yığışın, yenə -
Mən sizi görməyə kəndə gəlmişəm!

***

### Sən də gəl öp...

Ay İncə dərəmi bəyənməyənlər,
Qoy danışım sizə od-ocağından.
Çox da sinənizə döyməyin belə,
Yoxdu xəbəriniz çox qoçağından.

Onun olub Uzun Allahverəni,
Qoruyub düşməndən bəndi, bərəni...
Bizlər unutmarıq heç vaxt dünəni,
Çünki su içmişik buz bulağından...

Şairlərin sayı çoxdu, sözü çox,
Hər birinin qəlbi böyük, könlü tox.
Bu mərd kəndin nəyi yoxdu, nəyi yox! -
Baxsaz görünəcək Avey dağından!!

Qonağına açıq olub qucağı,
Hər yerə yayılıb səsi-sorağı.
Hacı Mahmud Əfəndimin ocağı! -
Sən də gəl öp ziyarət torpağından...

***

### Gəraylı

Bizim kənd dağlı, meşəli,
Lalə, nərgiz, bənövşəli...
Mənzərəli, xoş guşəli,
İncə çayı, Kür yolu var.

Seyran nədi - bilmək üçün,
Gülüstanı görmək üçün,
Bizim kəndə gəlmək üçün
Bizim kəndin bir yolu var!

Ziyarətdir hər bir daşı,
Çox qədimdir onun yaşı...
Nə anlayar nadan, naşı, -
Ocaq yolu, pir yolu var!

# Yaratdığı obrazlar qalereyasına görə sevilən aktyor

## Dünən Xalq artisti Həsənağa Salayevin doğum günü idi

***Azərbaycan kinosunda özünəməxsus yaradıcılıq üslubu ilə fərqlənən və sevilən aktyorlardan biri də Həsənağa Salayev olub. Yaratdığı obrazlar qalereyasına görə onu haqlı olaraq romantik və realist aktyor məktəbinin estetik prinsiplərini yaşadan sənətkar adlandırırlar.***

Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, dünən romantik və realist personajları, mürəkkəb psixoloji dramatik obrazları məharətlə yaratmış Xalq artisti Həsənağa Salayevin anadan olmasının 99-cu ildönümü tamam oldu.

Bakıda dünyaya göz açan Həsənağa Salayev 1937-ci ildə orta məktəbi bitirdikdən sonra Bakı Teatr Texnikumuna daxil olub. Bir ildən sonra 1938-ci ildə Akademik Milli Dram Teatrının aktyor heyətinə qəbul edilib. 1941-ci ildə müharibəyə gedib, bir ildən sonra yenidən doğma teatra qayıdıb.

Həsənağa Salayev Akademik Milli Dram Teatrının aparıcı aktyorlarından biri kimi yaratdığı obrazların xarakterik cəhətlərinin bədii təcəssümünə görə sənətsevərlərin yaddaşında dərin iz qoyub. İstedadlı aktyor demək olar ki, teatrda səhnələşdirilən tamaşalarda baş və ikinci dərəcəli rolları ifa edib. Müxtəlif illərdə Səməd Vurğunun "Xanlar" (Mamulya), "Fərhad və Şirin" (Fərhad), "Vaqif" (Eldar, Qacar və Vaqif), Zeynal Xəlilin "Qatır Məmməd" (Əziz), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (Mustafa), Uilyam Şekspirin "Otello" (Montano), "Antoni və Kleopatra" (Sezar) və onlarla digər tamaşalarda xarakterik səhnə surətləri yaradıb.

Həsənağa Salayevin kinoda yaratdığı xarakterik rolları isə bu gün də tamaşaçılar tərəfindən baxılır, sevilir. Aktyor "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi bir çox filmdə rol alıb. O, "Fətəli xan", "Görüş", "O olmasın, bu olsun", "Onu bağışlamaq olarmı?", "Koroğlu", "İstintaq davam edir" bədii və "Aygün" televiziya filmlərində Süleyman, Musa, Əzim Əzimzadə, Qüdrət, Eyvaz, Mayor Rüstəmov, Əmirxan rollarına çəkilib.



Həsənağa Salayev çılğın ehtirası, vüqarlı görünüşü, sərbəst səhnə davranışı, əzəmətli boy-buxunu, tamaşada tərəf müqabillərinə diqqəti ilə seçilirdi. Gurultulu və cingiltili səsini məharətlə tənzimləyən aktyor romantik rollarla realist personajları, mürəkkəb psixoloji dönüşlü dramatik obrazları eyni məharətlə oynaya bilirdi. O, klassik və tərcümə əsərlərində ifa etdiyi obrazları çağdaş dövrün ictimai-sosial, mənəvi-əxlaqi problemləri ilə ustalıqla əlaqələndirirdi.

Görkəmli kinorejissor Rza Təhmasibin 1960-cı ildə çəkdiyi "Onu bağışlamaq olarmı?" bədii filmində aktyora ikinci planlı rol olan kapitan Qüdrət obrazı həvalə edilir. Filmdə ictimai asayişin keşiyində duran Qüdrətin sözü az olsa da, ictimai davranışın, nizam-intizam qaydalarının formal cəhətini, ailə və məişətdə, cəmiyyətdə şəxsiyyətini ali səviyyədə təsdiqləmək prinsiplərini peşəkar aktyor lirik və psixoloji nüanslarla göstərib. Filmdə biz Qüdrəti gah vəzifə başında cinayətin izinə düşərək araşdırma aparan, gah da dostu və məsləkdaşı olan Qayanın təlatüm, səksəkə içərisində yaşayan ailəsində təmkinli, səmimi davranışlarını görürük. Dram janrında çəkilən filmin bəzi kadrlarında gənclərin (Qüdrətlə Qumrunun) məhəbbət münasibətlərinə xəfif bir eyham da var. Bu kadrlarda aktyorun orijinal maneraları, replikaları, obraza uyğun vizual görünüşü dramatik hadisələrin gərginliyinin qismən də olsa azalmasına, məişətdə və ailədə mehribançılığın, qarşılıqlı anlaşmanın həyatın ən qiymətli hadisəsi kimi tamaşaçıya təqdim edilməsinə şərait yaradır. Dram aktyorunun psixoloji təsiretmə bacarığı filmin mahiyyətini genişləndirir, tamaşaçını bir anlıq da olsa, canilərin qaranlıq dünyasından, cinayət aləmindən uzaqlaşdırır, hadisələrin seyrçi yaddaşında hərtərəfli təhlil olunmasını təmin edir.



Aktyorun kino yaradıcılığındakı psixoloji nüansları dəqiq çatdırma bacarığını tamaşaçı Səməd Vurğunun "Aygün" poeması əsasında kinorejissor Kamil Rüstəmbəyovun 1960-cı ildə çəkdiyi eyniadlı bədii televiziya filmində də görür.

Əsərin televiziya filmi kimi ekranlaşdırılması nəzərdə tutulsa da, ssenarini yazan Kamil Rüstəmbəyov ona bədii film kimi quruluş verib. Bununla da Kamil Rüstəmbəyovun adı Azərbaycan kino tarixinə ilk bədii televiziya rejissoru kimi daxil olub. Filmdə əsas rollardan birini - Əmirxan obrazını yaratmaq H.Salayevə həvalə edilib. Az sayda aktyorun yer aldığı filmdə tərəf-müqabillərinin ekran dueti tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır.

"Aygün" bədii televiziya filmi yeni ailə qurmuş gənclərin sosial həyat şəraitindən, qarşılıqlı münasibətlərindən bəhs edir. Filmin mövzusu bu gün də aktualdır. Çünki bu gün də ailədə gender bərabərsizliyini yaradan, evdə öz hökmranlığını bayağı şəkildə yeridən Əmirxanlar az deyil.

Yüksək qazanc əldə etdiyinə görə özünü qüsursuz kişi sayan Əmirxan vaxtının çoxunu əyyaş dostlarına sərf edir, ali təhsilli xanımının cəmiyyət arasına çıxmasına lüzum görmür, yeganə övladı ilə maraqlanmağa vaxt tapmır. Əmirxanın ailədən uzaqlaşıb içki dostlarına yaxınlaşması onun sevgi ilə qurduğu yuvasını itirməsi ilə nəticələnir.

Filmdə Əmirxan köhnəliyin, mövhumatçılığın, Aygün isə tərəqqipərvərliyin, yeniliyin nümunəsi kimi göstərilib. Əmirxan gec də olsa, cəmiyyətin cılız şəxsiyyəti olduğunun fərqinə varır. O, karyerasına ciddi yanaşmaqla ətrafındakıların hörmətini yenidən qazandıqdan sonra ailəsinə qayıdır. Lakin buna qədər tamaşaçı filmdə yetkinlik yaşına çatan qızını tək böyüdən ananın - Aygünün (Nəcibə Məlikova) məşəqqətlərini görür. Bu gün də aktuallığını itirməyən filmin yaradıcı heyəti qarşılarına qoyduqları məqsədin, yəni Azərbaycan ailəsinin davranış etikasını, bütövlük, dağılmazlıq prinsipini maksimum səviyyədə tamaşaçılara çatdıra biliblər.

H.Salayev yaratdığı hər bir obrazın xarakterik cəhətlərini kiçik ştrixlərinə qədər açır. O, Əmirxan rolunun tipik cəhətlərini çox kadrda monoifası ilə göstərərək aktyorluq potensialının çoxcəhətliliyini, fərdi iş üslubunu göstərmiş oldu. Sonda həyata sağlam düşüncə ilə baxan Əmirxan yalnız müsbət xarakterlərin, sağlam psixologiyanın həmişə insanlığı dəyərləndirən əsas səbəb olduğunu göstərməklə vicdan təmizliyinin varlığını təsdiqləyir. Psixoloji dram janrında çəkilən filmdə hadisələrin ziddiyyətlərinin açılması, əsərin mənasının tamaşaçıya çatdırılması məhz Həsənağa Salayevin yaratdığı Əmirxan obrazının üzərinə düşür. Onun kino yaradıcılığında daim nəzərəçarpan obrazların dəqiq mövqelərini çatdırmaq prinsipiallığı çəkildiyi bütün filmlərdə özünü göstərib.

Aktyorun epizodik rolları da yaddaqalan olurdu. Məsələn, "Görüş" filmində aktyorun yaratdığı Musa obrazı mülayim, səmimi keyfiyyətlərə malik olan bir personajdır. Üçüncü planlı rol olan Musanın insani keyfiyyətləri, həyatdakı dəqiq mövqeyi filmin hadisələrinin axıcılığına rəvac verir, rejissor və müəllif ideyalarını səmimi formada tamaşaçıya çatdırır. Filmin baş qəhrəmanı Kamilin cahil hərəkətlərindən sonra ekranda görünən Musa obrazı mənfiliklə-müsbətin, yalanla-doğrunun təzadlı anlayışı kimi diqqəti cəlb edir. Musa məsləyinə, sevgisinə, insanlarla münasibətində dəqiq olan bir personajdır. Onun müsbət keyfiyyətləri, əsl azərbaycanlı kişisinə məxsus xarakterik cəhətləri filmin ideyasına tamlıq gətirirdi.



H.Salayev "Azərbaycanfilm" kinostudiyasında çəkilən bir neçə filmin səsləndirilməsində də iştirak edib. Aktyorun səsləndirdiyi rolların mənfi və ya müsbət olmasından asılı olmayaraq onun ahəngdar səs tembri obrazların şəxsi mənini, daxili aləmini tamaşaçıya tamlıqla çatdırır, dublyaj sənətinin ən azı kinonun özü qədər ciddi bir sənət növü olduğunu göstərirdi.

Həsənağa Salayev aktyorluq sənətində qazandığı uğurlara görə 1959-cu ildə Əməkdar artist, 1974-cü ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb.

Yaradıcılığının ən müdrik çağında, 54 yaşında Həsənağa Salayev qəfildən iflic xəstəliyinə düçar olub. Bir daha səhnəyə çıxmayan aktyor 1981-ci il oktyabrın 2-də dünyasını dəyişib.

# "Qarabağın musiqi xəzinəsi" layihəsinin növbəti buraxılışı Yaqub Məmmədova həsr olunub



***Beynəlxalq Muğam Mərkəzinin "Qarabağın musiqi xəzinəsi" layihəsinin növbəti buraxılışı Xalq artisti, görkəmli xanəndə Yaqub Məmmədova həsr olunub.***

Məmmədov Yaqub Məhəmməd oğlu 5 may 1930-cu ildə Ağcabədi rayonunda anadan olmuşdur. Qarabağ xanəndəlik məktəbinin XX əsrin II yarısında yetişmiş orta nəslinin görkəmli nümayəndəsi olmuşdur. Qarabağ torpağında boya-başa çatmış Yaqub Məmmədov peşəkar musiqi təhsilini Azərbaycan Dövlət Musiqi Məktəbində almışdır.

Görkəmli xanəndə Seyid Şuşinskidən muğam dəsgahları, xanəndəlik sənətinin sirlərini öyrənmiş, həmçinin musiqi və poeziya sahəsində dərin biliklər qazanmışdır. Yüksək ifaçılıq mədəniyyətinə malik xanəndə gözəl səsi, təkraredilməz oxuma tərzi ilə diqqəti cəlb etmişdir.

O, bütün muğam dəstgahlarının gözəl bilicisi olmaqla yanaşı, həm də Azərbaycan poeziyasını dərindən bilirdi. Yaqub Məmmədov uzun illər Azərbaycan Dövlət Filarmoniyasında solist olmuş, konsertlərdə çıxış etmişdir. Onun ifasında qrammafon vallarına yazılmış muğam dəstgahları bütün Yaxın və Orta Şərqdə yayılmışdır.

Ustad xanəndə kimi püxtələşmiş Yaqub Məmmədov sənətdə öz ənənələrini yaratmışdır. Öz dövrünün bir çox xanəndələri, eyni zamanda, yeni gələn nəsil onun yaradıcılığından bəhrələnmişlər.

5 iyun 2002-ci ildə dünyadan köçən sənətkar: "Qarabağ şikəstəsi"ni Cıdır düzündə oxuyacağam. Özü də elə oxuyacağam ki, Qarabağsız yaşadığımız illərdə çəkdiyimiz bütün ağrı-acılar yox olsun" - deyirdi. Qarabağa doğru uzanan yolu səsi ilə tutub getsə də, özü gedə bilməyən Yaqub Məmmədov bu arzu ilə yaşayırdı. Yaşayırdı ki, Qarabağı görsün.

Heyif ki, əcəl sənətkarı aramızdan apardı. Bu xoşbəxt gündə, Ali Baş Komandanın rəhbərliyi ilə Qarabağımızın qayıtdığı gün Yaqub Məmmədov aramızda olmasa da, ruhu şaddır . Həmişəyaşar, canlı səsi isə qəlblərdə yaşayır.

Qeyd edək ki, 16 iyun 2017-ci il tarixində BMM-də Yaqub Məmmədovun xatirə gecəsi keçirilib. Gecə "Mədəniyyət" kanalı vasitəsilə yayımlanıb.

# "Bu, çox vacib və vaxtında atılmış bir addımdır" - Mənsum İbrahimov



***"Mən cənab Prezidentə həm bu Fondun yaradılmasına görə, həm də məni Himayəçilik Şurasının tərkibinə daxil etdiyinə görə təşəkkür edirəm".***

Bunu Milli.Az-a açıqlamasında Xalq artisti Mənsum İbrahimov deyib. Xalq artisti bildirib ki, "YAŞAT" Fondunun yaradılması çox vacib və vaxtında atılmış bir addımdır:

"Bilirsiniz ki, müharibədə yaralanan döyüşçülərimizə, qazilərimizə, şəhid ailələrimizə bir mərkəzdən qayğı göstərilməsi, bir mərkəzdən idarə olunması çox vacib haldır. Bu Fond çox şəffaf şəkildə həm Himayəçilik Şurasının üzvlərinin, həm də dövlətimizin nəzarətində olacaq. Bu, çox vacib bir qərardır. Yaralılarımız var, onların səhhətinin bərpası prosesi var, onlara çox ciddi dəstək lazımdır. Sonra, şəhid ailələrinin sosial şəraitlərinin yaxşılaşdırılması, onların banklarla bağlı olan kredit məsələlərinə baxılması, yəni hamısına şəffaf şəkildə dövlətimiz, bu "YAŞAT" Fondu nəzarət edəcək və hamısına kömək olacaq.

Düşünürəm ki, bu, çox vacib və vaxtında atılmış bir addımdır. Müharibədən sonra buna zərurət yaranmışdı. Bizim kifayət qədər yaralılarımız da, şəhid ailələrimiz də var. Bizim bir azdan Şura üzvləri ilə birlikdə onlayn şəkildə birinci iclasımız olacaq. Təbii ki, yəqin burada atılacaq addımlar, görüləcək işlər müzakirə olunacaq. Bildiyiniz kimi, mənim qardaşımın oğlu da XTQ üzvü idi, 44 günlük müharibədə o da şəhid oldu. Yəni, bu şəhidlər hamısı bizim başımızın tacıdır. Hər birimiz onların qarşısında borcluyuq.

Təbii ki bu, bir mərkəz olarsa, özü də onlayn qaydada, şəffaf şəkildə kömək ediləcək, diqqət göstəriləcək. Düşünürəm ki, bu, çox vacib məsələdir. Bu da o insanların maddi rifahının yaxşılaşdırılması üçün çox gözəl bir hadisə olacaq. Mən bir daha buna görə cənab Prezidentə təşəkkür edirəm.

Ağlım kəsəndən xalqımıza xidmət etməyə çalışmışam, hətta 30 il bundan qabaq "Qarabağ Muğam Qrupu" yaratmışam. O qrupla mən öz sözümü demişəm. Biz ailədə yeddi qardaşıq. Yeddi qardaşın beşi I Qarabağ müharibəsinin iştirakçısıdır, qazidirlər. Mən də gücüm çatan qədər vətənimə xidmət etmişəm. Bir daha mənə bu etimada görə təşəkkür edirəm. Təbii ki mən həmişə olduğu kimi bu işimdə də çalışacam üzərimə düşən bütün vəzifəmi layiqincə yerinə yetirim".

Xatırladaq ki, Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında fərman imzalayıb. Yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) Himayəçilik Şurasının tərkibi də təsdiq edilib. Şuranın tərkibində Abdullayev Çingiz Akif oğlu, Alızadə Sevinc Əsgərxan qızı, Aslanov Novruzəli Davud oğlu, Aşina Məsud, İbrahimov Mənsum İsrafil oğlu, İsgəndərov Anar Camal oğlu, Qasımov Balakişi Ələkbər oğlu, Novruzov Cahangir Mütəllib oğlu, Ramaldanov Şair Ramaldan oğlu, Səfərəliyeva Rəna Teymur qızı, Zəkiyev İlham Əzizağa oğlu kimi tanınmışlar, ziyalılar yer alıb.

# "Uşaqlıq"ın onlayn premyerası keçiriləcək...



***Sumqayıt Dövlət Dram Teatrı COVİD-19 pandemiyası ilə bağlı elan olunmuş karantin rejimi dövründən doğma tamaşaçıları ilə ünsiyyəti sosial şəbəkə üzərindən gerçəkləşdirir. Artıq xeyli müddətdir ki, virtual repertuar planımızla üzərimizə düşən missiyamızı yerinə yetiririk. Yaradıcılıq prosesinin dayanmaması üçün rejissorlar məşqləri onlayn şəkildə aparır. Belə vəziyyətlərdə yaradıcı heyət daha çox kamera əsərlərinə, monotamaşalara üstünlük verir.***

Teatrın baş rejissoru Xalq artisti Firudi Məhərrəmovun gənc yazar Ülviyyə Heydərovanın "Uşaqlıq" əsəri əsasında hazırladığı eyni adlı monotamaşanı istedadlı aktrisa İlahə Səfərova ifa edir. Tamaşa sirk artisti olan və sənətini dəlicə sevən qadının bətnindəki körpəsi ilə xəyali söhbəti üzərində qurulub. Gərgin psixoloji məqamların fonunda gənc qadının çırpınışları, kritik seçim qarşısında qalışı İlahə Səfərovanın mükəmməl oyun tərzi ilə maraq doğurur.

Sözügedən səhnə əsərinin 13 dekabr, saat 18-də onlayn premyerası keçiriləcək.

# Alman faşistləri tərəfindən yandırılan tarixi məkan



***Poltava Diyarşünaslıq Muzeyi, 1898-1892-ci illərdə Poltava vilayətinin torpaqları üzərində tədqiqat aparan məşhur Peterburq alimi, torpaqşünaslıq professoru Vasili Kriçevskinin təşəbbüsü ilə 1891-ci ildə qurulub. Hazırda bu muzey onun adını daşıyır.***

"Unikal" AZƏRTAC-a istinadən bildirir ki, muzeyin ilk eksponatları Poltava quberniyası ərazisində toplanan 4000-dən çox torpaq nümunəsi və 500-dən çox eksponatdan ibarət geoloji kolleksiya idi. O dövrlərdə həm məşhur insanlar, həm də Poltava bölgəsinin sadə sakinləri yerli tarix muzeyinin fondlarına eksponatlar bağışlayırdılar. Xüsusilə Poltava sakini, çar ordusunun polkovniki Pavel Bobrovski Yaxın Şərq, Asiya və Afrika ölkələrinə səyahətləri zamanı topladığı eksponatları muzeyə hədiyyə edib.

Bina Poltava bölgəsində Ukrayna memarlıq üslubunun ilk nümunəsidir.

Böyük Vətən müharibəsi illərində əksər eksponatlar talan edilib, muzeyin binası yandırılıb. Müharibədən sonra 118 min eksponatdan yalnız 37 mini qaldı. 1950-ci illərdə bina yenidən memarlar P.Kostrik, V.Kraçmer, N.Kvitka və başqalarının layihələrinə əsasən inşa edilib.

Ümumilikdə muzeyin 300.000-dən çox eksponatı var.

# Mehriban Ələkbərzadə xəstəxanaya yerləşdirilib

***İnsanlara tövsiyəm odur ki, maksimum dərəcədə özlərini qorusunlar, maskasız çölə çıxmasınlar.***

Bu sözləri koronavirusa yoluxan Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Yuğ Teatrının baş rejissoru Mehriban Ələkbərzadə kulis.az -a açıqlamasında deyib. O qeyd edib ki, bir neçə gün ev şəraitində müalicə alsa da heç bir xeyri olmayıb. Hazırda xəstəxanada müalicəsini davam etdirən rejissor nəfəs almaqda çətinlik çəkdiyini bildirib:

"Havam heç cür çatmır. Nəfəs ala bilmirəm. Beynimə kislaroduoksigen almalıyam. İnsanin canı möhkəm ağrıyanda, dünya rəngini dəyişir. İnsanlara tövsiyəm odur ki, maksimum dərəcədə özlərini qorusunlar. Maskasız çölə çıxmaq olmaz. Yaxın məsafədən qaçsınlar. Xəstəliyi yüngül keçirənlərə baxıb ehtiyatı əldən buraxmasınlar".

# İnsan həyatını uzadan çox qədim ressept



***Bu resept 1971-ci ildə Tbilisi monastırında tapılmışdır. Əlyazma b.e.ə. V əsrdə yazılıb. Əlyazma dünyanın bütün dillərinə tərcümə edilib və paylaşılıb.***

**Reseptdə aşağıdakılar qeyd edilib:**

- 100 qram çobanyastığı
- 100 qram dəvədabanı
- 100 qram solmazçiçək
- 100 qram ağcaqayın toxumu

Məhsullar qəhvəüyüdəndə üyüdülür, şirli qaba tökülür. Hər axşam 1 xörək qaşığı qarışıma yarım litr qaynar su əlavə edilir, 12 dəqiqə ərzində dəmlənir. Dəmləmə tənzifdən süzülür və 1 stəkana 1 çay qaşığı bal əlavə edilib içilir. Dəmləməni içdikdən sonra heç bir qida qəbul edilməməlidir.

Səhər bankada qalan 1 stəkan suya yenidən 1 çay qaşığı bal əlavə edilir və acqarına içilir. Müalicə qarışım qurtarana kimi davam etdirilir. Müalicə 5 ildən bir təkrarlanır.

# Ədviyyatlarla arıqlama üsulları



***Bir ay ərzində zəncəfillə darçını qarışdırıb çay dəmlədi bir ayda 5 kq artıq çəkidən azad oldu və qaraciyərində baş verən dəyişikliyə özü də inanmadı***

1. Zəncəfillə darçın qarışımından dəmlənmiş çay artıq çəkidən xilas olmağa yardım edir. Hər gün davamlı olaraq zəncəfillə darçınlı çay içmək bir ayda 5 kq arıqlamağa yardım edir.

**Lazım olanlar:**

* 1 çay qaşığı üyüdülmüş darçın
* 1 xörək qaşığı üyüdülmüş zəncəfil
* bir neçə mixək və ya hil (olmasa da olar)
* 1 ədəd limon
* sarıkök

**Hazırlanması:**

Ədviyyatlar şirli qazana tökülür. Qazana bir litr soyuq su tökülüb qaynamağa qoyulur. Su zəif odda isinir, qaynadıqdan 10 dəiqə sonra çay hazır olur. Limon çaya soyuduqdan sonra əlavə edilir. Çayı içərkən ona sarıkök əlavə edə bilərsiniz. Sarıkök çayın orqanizmə təsirini artırır.

2. Qazana yarım litr su tökün və 1 stəkan zəncəfil əlavə edin. Suya yarım limonun şirəsini də əlavə edin. Suyu qaynadın və odun üstündən götürdükdən sonra bir çimdik sarıkök əlavə edib isiti halda için. İstəsəniz çaya dadlandırıcı yerinə şəkər və ya az miqdar bal əlavə edə bilərsiniz. Bal ədviyyatlı çaya ılıq halda əlavə edilməlidir.

# Həzm sistemi nədir?

***Həzm sistemi dedikdə qidanın ağız boşluğundan daxil olmasından başlayaraq həzm edilməsi, bağırsaqlardan sorulması və lazım olmayan qidaların xaric edilməsində iştirak edən prosesor nəzərdə tutulur. Bu prosesdə iştirak edən orqanlar isə həzm sistemi orqanları sayılır.***

İnsanın həzm kanalı 8-10 metr uzunluğunda olur və bir-neçə hissəyə bölünür. Həzm prosesində ağız boşluğu, dil, udlaq, mədə, nazik və yoğun bağırsaq, qara ciyər, öd kisəsi, mədəaltı vəz, düz bağırsaq daxildir.

Həzm sisteminin işi ağız boşluğundan başlayır. Qida ağız boşluğuna daxil olur, orada çeynənir və mədəyə düşür. Burada çeynənmiş qidanın üstünə öd və müxtəlif mədə şirələri əlavə olunur. Sonra qida mədədən onikibarmaq bağırsağa, oradan da nazik bağırsaqlara ötürülür. Nazik bağırsaqlarda həzm bir-biri lə əlaqəli olan 3 mərhələdə gedir. Nazik bağırsaqda qidanın üzərinə nazik bağırsaq şirəsi əlavə olunaraq həzm davam etdirilir. Həzmin sonrakı fəaliyyəti yoğun bağırsaqlarda davam edir. Yoğun bağırsaqda gün ərzində 1 litrə qədər suyun və mineral maddələrin qana sorulması prosesi baş verir. Yoğun bağırsaqlarda həzmin baş verməsinə mikoorqanizmlər və bağırsaq çöpləri səbəb olur. Yoğun bağırsaq həll olmayan qida qalıqlarını parçalayır, K və B vitaminləri sintez edir. Yoğun bağırsaq lazımsız qida qarıqlarını düz bağırsaq vasitəsilə xaric edir.

# Xərçəng xəstəliyi spermatozoidlərlə müalicə olunacaq



***Almaniyanın Elmi Tədqiqat Universitetinin alimləri spermatozoidlərlə şiş toxumalarının müalicə edilməsi üzrində uzun illər işləyiblər. Uzun illərdir ki, xərçəng xəstəliyinin müxtəlif dərmanlarla və radio şüaları ilə müalicəsi tətbiq edilir. Xərçəngin müalicəsi zamanı istifadə bilən müalicə vasitələri xəstə hüceyrələri məhv etdiyi kimi, orqanizmdə sağlan hüceyrələrin də məhvinə səbəb olur. Xərçəngin müalicəsi zamani xəstə toxumalar məhv olduqda peptid, lipid və qızılı lpid hissəciklər və modifikasiya olunmuş limfositlər, eritrositlər, kök hüceyrələri və virus makrofaqları da zərər görür.***

Almaniyalı alimlər ayrıca hərəkətli bakterioyalarla ekpriment keçirmişlər. Onlar bu bakteriyaların hərəkətini maqnit və müxtəlif kimyəvi birləşmələrin vasitəsilə idarə ediblər. Bu zaman onlar bakteriyaların orqanizmdə autoimmun reaksiyanın inkişaf etməsinin şahidi olublar. Alman alimləri qadınarda baş verən onkoloji xəstəliklərin kişi sprmatozoidləri ilə müalicə edilməsinə qərar veriblər.

Spermatozoidlər orqanizmin ən kiçik hissəcikləridir və onlar lazım olduqları yerdə hərəkətli ola bilirlər. Spermatozoid baş hissə, orta hissə və quyruqdan ibarətdir. Onun hərəkətli olmasını mitoxondrinə görə baş verir. Bu spermatozoidin orta hissəsində yerləşir və quyruğa enerji verir. Spermatozoidlər öz sahiblərinin bədənində hərəkərsiz olurlar, amma başqa orqanizmə daxil olduqda aktiv şəkildə hərəkətlənməyə başlayırlar. Spermatozoidlər 1 saatda 30 santimetr yol gedə bilirlər. Mayalanma üçün isə spermatozoidin 20 santimetr irəli getməsi yetərli sayılır. Bu da eyakulyasiyada 1-2 saat sonra baş verir.

Alimlər 3D nanolitoqrafiya vasitəsilə xüsusi konstruktor -" tetrapodlar" əldə etmiş, qatları dəmir və titanla əhatə etmiş, konusşkilli forma vermişlər. Onlar kompyuter vasitəsilə bu həndəsi fiquru dəqiq hazırlamışlar. Burada spermatozoidlərin hərəkəti normadakından 2 dəfə zəif olur və o xaricdən maqnitlə idarə edilir. Mexaniki yolla spermatozoidin şiş toxumasına daxil edildiyi zaman onların membranı şişə dərman kimi təsir edir.

Alimlər apardıqları eksperiment zamanı buğa spermatozoidindən istifadə ediblər. Çünki, buğa spermatozidinin tərkibin insanın spermatozoidinə daha yaxındır. Şiş toxumasında spermatozoidlərin aktiv olması üçün onları daxil edərkən progestron hormonu da içəri ötürülür. Eksperimentlər zamanı əvvəlcə süni şiş toxuması üzərində əməliyyat aparılmış və spermatozoidləri şiş toxumasının yarısını məhv etdiyinin şahidi olmuşlar. Onların araşdırmaları spermatozoidlərin hərəkətliliyinin şiş toxumasının daxili strukturuna təsir etdiyini sübut etmişdir.

Dərman əvəzinə spermatozoidləri şiş toxumasına yeridilməsi orqanizmi toksiki təsirlərdən qoruyur. Çünki, spermatozoidlər orqanizm üçün patogen sayılmır. Onlar özləri çoxalıb asanlıqla özgə orqanizminda yaşaya bilirlər.

Alimlər bu kəşfin qadınların cinsiyyət orqanlarnın onkoloji xəstəliklərin sağala biləcəyinə ümid edirlər.

# Orqanizmdən artıq mayeni hansı təbii vasitələrlə çıxarmaq olar?



***Orqanizmə artıq mayenin yığılması insanın sağlam həyat tərzinə mənfi təsir edir. Şişkinlik, köpmə orqanizmdə artıq mayenin yığılmasının əlamətlərindən biridir. Orqanizmdə artıq su yığıldıqda üz daxil olmaqla bütün bədəndə şişkinlik əmələ gəlir. Şişkinliyin əmələ gəlməsi orqanizmin çox su qəbul eləməsinin əlaməti deyil. Bu böyrəklərin suyu süzüb çıxarmaq qabiliyyətinin azalmasıdır. Dünya Səhiyyə Təşkilatı orta yaşlı kişiyə gün ərzində 3,7 litr, qadınlara isə 2,7 litr su içməyi norma hesab edir. Bu normanı isə 30% insan sağlam şəkildə qəbulı edib, orqanizmdən xaric edə bilir.***

Əgər orqanizm qəbul etdiyi suyun hamısını çıxara bilmirsə, o zaman qanda natriumun miqdarı artır. Bu sizin ürək-damar, hormonal və böyrək sisteminizdə müxtəlif problemlərin əmələ gəlməsinə səbəb olur. Bu zaman siz su içməkdən qorxmayın, amma, müxtəlif təbii vasitələrin köməyi ilə qəbul etdiyiniz suyu orqanizminizdən xaric etməyə çalışın. Bunun üçün aşağıdakı vasitələrdən istifadə edin:

1. Uzanarkən ayaqlarınızı hündürə qaldırın. Bu zaman hər iki ayağınızı yuxarı qaldırın və suyun aşağı ətraflarda yığılıb qalmasının qarşısını alın.

2. Duzdan az isitfadə edin. Çalışın dadlandırmaq üçün duz əvəzinə pozmarin, timyan və müxtəlif ətirli bitkilərdən istifadə edin.

3. Şirniyyatdan az istifadə edin. Bu barədə ən çox diabetiklər risk alıtında sayılırlar. Şirniyyatlar orqanizmdə insulun ifrazının artmasını tələb edir və orqanizmin suya olan tələbatını artırır.

4. Ürəyiniz çox yanananda banan, ispanaq və ya başqa şəkəri az olan meyvə-tərəvəzlərdən istifadə edin.

5. Cəfəri çayı için. Bu sizin orqanizminizdən artıq mayenin çıxmasını sürətləndirir.

6. Bir-neçə stəkan suya olan ehtiyacınızı qırmızı yemişan şirəsi ilə əvəz edə bilərsiniz.

7. Sarımsaq yemək orqanizmdəki infeksiyaları öldürməklə yanaşı artıq mayenin də xaric olmasına yardım edir.

8. Piyada gəzinti, üzgüçülük, velosiped sürmək sizin ürək yanğınızı azalda bilər və siz qəbul etdiyiniz suyun miqdarını azalda bilərsiniz.

Əgər yuxarıda yazdıqlarımız sizin suya olan ehtiyacınızı azaltmırsa və siz tez-tez su içib köpürsünüzsə, o zaman mütləq həkimə müraciət edin.

# Azərbaycan Premyer Liqası və kubok matçları təxirə salındı




***Peşəkar Futbol Liqası (PFL) Azərbaycan Premyer Liqası və ölkə kuboku ilə bağlı qərarını açıqlayıb.***

"Unikal" qəzeti xəbər verir ki, qurum bu turnirlərin təqvimində dəyişiklik edib və matçların vaxtını dəyişib.

Aparılan müzakirələrdən sonra Premyer Liqanın XII turu dekabrın 20-nə, XIII tur dekabrın 24-nə və XIV tur yanvarın 21-nə keçirilib. Ölkə kubokunun 1/8 final mərhələsinin matçları isə yanvarın 25-də keçiriləcək.

"Qarabağ"ın 20 dekabr tarixdə "Qəbələ" ilə nəzərdə tutulan oyunu ilkin təqvimdə qeyd olunduğu kimi, Qəbələdə baş tutacaq.

Ölkə çempionatının və kubokunun digər oyunları PFL-in təsdiq olunmuş təqvimi əsasında baş tutacaq.

Mövsümdən öncə hazırlanmış Əsasnaməyə Əlavə və Tibbi Protokol mövsümün sonuna kimi qüvvədədir. Heyətində sonuncu COVID-19 testinin nəticəsi pozitiv çıxmış yeddi və daha çox futbolçu yer alan klubun oyunu təxirə salınacaq.

Həmin oyunçular 14 günlük təcrid müddəti başa çatdıqdan və testinin nəticəsi neqativ çıxdıqdan sonra həkimlərin rəyi ilə məşqlərə və oyunlara çıxa bilər.

Heyətində yetərli futbolçu olmadığı üçün "Vilyareal"la səfər qarşılaşmasına gedə bilməyən "Qarabağ"ın Avropa Liqası görüşü ilə bağlı daha üst qurumlar tərəfindən keçirilmə qərarı verilsə, "Qarabağ"ın yerli təqvim oyunu ilə bağlı dəyişiklik ediləcək.

# Azərbaycanın üç idmançısında koronavirus aşkarlandı: Millimiz Avropa çempionatından geri çəkildi

***Kişi idman gimnastikası üzrə yığma komandamızın üç üzvünün koronavirusa yoluxması səbəbindən, yığma komandamız Türkiyənin Mersin şəhərində başlayan və dekabrın 13-də başa çatacaq Avropa çempionatında iştirak edə bilmir.***

"Unikal" qəzetinin Azərbaycan Gimnastika Federasiyasının saytına istinadən verdiyi məlumata görə, bütün nümayəndə heyəti Mersinə yola düşməmişdən əvvəl koronavirusa görə testdən keçib və bütün üzvlərinin nəticəsi neqativ olub.

Pandemiya dövründə təşkil olunan yarışlarda bir qayda olaraq Yerli Təşkilat Komitəsi təkrarən test keçirir. Təəssüflər olsun ki, üç gimnastımızda artıq Mersində götürülən testin nəticəsi pozitiv olub. Hazırda onlar özlərini yaxşı hiss edirlər və sağaldıqdan sonra Bakıya qayıdacaqlar.




Nümayəndə heyətimizin digər üzvlərində Mersində ardıcıl olaraq götürülümş iki testin nəticəsi neqativ çıxdığından, onlar Bakıya qayıdacaq və karantin rejiminə riayət edəcəklər. Virusa yoluxmuş şəxslər arasında həm gənc, həm də böyük idmançılar olduğundan və testləri neqativ çıxmış gimnastların da onlarla təmas etməsi səbəbindən, təəssüflər olsun ki, yığma komandamız yarışlarda iştirak etməmək məcburiyyətində qalıb.

Xatırladaq ki, komandamız Türkiyəyə böyüklərdə Murad Ağarzayev, İvan Tixonov, Sərvər Əliyev, Cavidan Babayev, Ağamurad Qəhrəmanov, yeniyetmələrdə Anar Həsənov, Rəsul Əhmədzadə, Səməd Məmmədli, Mənsum Səfərov və Ramin Dəmirovdan ibarət heyətlə yola düşmüşdü.

Qeyd edək ki, idman gimnastlarımızın növbəti yarışı 21-25 aprel tarixlərində İsveçrənin Bazel şəhərində keçiriləcək Avropa çempionatı olacaq.

# Lukaşenko və oğluna Tokioya səfər etmək qadağan edildi

***Belarus prezidenti Aleksandr Lukaşenko Beynəlxalq Olimpiya Komitəsi (BOK) tərəfindən sanksiya alıb.***

"Unikal" qəzeti xəbər verir ki, Belarus Milli Olimpiya Komitəsinin (BMOK) də prezidenti olan Lukaşenkonun gələn il Yaponiyanın paytaxtı Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarında iştirakına qadağa qoyulub. Bu barədə BOK prezidenti Tomas Bax keçirilən videokonfransdan sonra qərarı açıqlayıb.

Qərara görə, BOK BMOK-a Tokio-2020 və Qış Olimpiya Oyunları olan Pekin-2022 istisna olmaqla, bütün yarışlar üçün maliyyə ödənişini dayandırıb. Bütün bu sanksiyalar Lukaşenkonun prezident seçkilərindən sonra etiraz aksiyasında iştirak etmiş yerli idmançılara qarşı cəza tədbirləri görülməsinə görə atılıb.

Həmçinin Aleksandr Lukaşenkonun oğlu Viktor (BMOK-un vitse-prezidenti) və Belarus Hokkey Assosiasiyasının prezidenti (BMOK-un İdarə Heyətinin üzvü) sanksiya alıb. Onlar noyabrın 12-də xəstəxanada ölən 31 yaşlı rəssam Roman Bondarenkoya hücumda şübhəli bilinir.

Onu da bildirək ki, bir qrup belaruslu idmançı BOK-dan BMOK-un fəaliyyətini dayandırmağa çağırıb.

# "Napoli"nin iki futbolçusunda koronavirus aşkarlandı

***İtaliyanın "Napoli" klubunun iki futbolçusunda koronavirus aşkarlanıb.***



"Unikal" qəzeti xəbər verir ki, bu barədə A Seriyası təmsilçisinin mətbuat xidməti məlumat yayıb. Xəbərdə, Elseyd Hyusay və Amir Rahmanidə koronavirus aşkarlandığı bildirilib. Hər iki futbolçu karantinə alınıb.

# Reytinq: Azərbaycan millisinin mövqeyi dəyişmədi

***FİFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb. "Unikal" qəzeti ali futbol qurumunun saytına istinadən xəbər verir ki, Azərbaycan milli komandasının mövqeyi dəyişməyib. Canni De Byazinin rəhbərlik etdiyi komanda 1180 xalla 109-cu pillədə qərarlaşıb.***

Azərbaycan yığmasının DÇ-2022-nin seçmə mərhələsindəki rəqibləri olan Portuqaliya 1662 xalla 5-ci, Serbiya 1495 xalla 30-cu, İrlandiya 1456 xalla 42-ci, Lüksemburq isə 1295 xalla 98-ci pillədə yer alıb.

Reytinq cədvəlinə 1780 xalla Belçika millisi başçılıq edir. 1755 xalla Fransa yığması 2-ci, 1743 xalı olan Braziliya isə 3-cüdür.

# İtaliyalı dünya çempionu vəfat etdi

***İtaliya milli komandasının və "Yuventus"un sabiq futbolçusu Paolo Rossi vəfat edib.***



"Unikal" qəzeti xəbər verir ki, bu barədə "La Gazetta dello Sport" nəşri məlumat yayıb. Keçmiş hücumçu 64 yaşında vəfat edib. Rossi ağciyər xərçəngindən əziyyət çəkirdi.

Rossi, İtaliya milli komandası ilə DÇ-1982-nin qalibi olub. Hücumçu, həmin ildə "qızıl top" mükafatını qazanıb.

# Azərbaycanda oynamış futbolçunun cəzası ləğv edildi

***Oyun alqı-satqısında ittiham edilən "Muğan", AZAL və "Rəvan" klubunun sabiq futbolçusu Samuel Barlayın cəzası ləğv edilib.***

"Unikal" qəzeti "BBC Sport Africa"ya istinadən xəbər verir ki, 34 yaşlı sierra-leoneli yarımmüdafiəçi ilə yanaşı, onun həmyerlisi İbrahim Koroma da əfv olunub.

Hər iki oyunçu Sierra Leone Futbol Assosiasiyası tərəfindən dəlil çatışmazlığına görə bağışlanılıb.

Onlar 2008-ci ildə Cənubi Afrika Respublikası ilə qolsuz heç-heçə ilə başa çatan Afrika Millətlər Kubokunun seçmə mərhələ görüşünün nəticəsini manipulyasiya etməkdə şübhəli bilinib. Barlay xəbəri eşidən kimi göz yaşlarını saxlaya bilmədiyini söyləyib: "Həmişə günahsız olduğumu bilirdim. Xəbəri alqışlayıram. Amma sevinmirəm. Çünki assosiasiya mənim imicimə zərbə vurdu və nəticədə karyeram ziyan gördü. Bu imic bərpa edilə bilməz. Mən karyeramı bitirəndə belə qərar verdilər. 2018-ci ildə bu iddiadan sonra karyeramı bitirməyə qərar verdim".

Müdafiəçi "Rəvan"da çıxış etdiyi dönəmi xatırladıb: "Rəvan" müqaviləni ləğv etdikdən sonra, heç kim mənimlə sözləşmə imzalamaq istəmirdi". Qeyd edək ki, Samuel Barlay 2010-cu ildə "Muğan", 2011 - 2013 və 2015/2016 mövsümündə "Rəvan", 2013/2014 mövsümündə isə AZAL-ın formasını geyinib.

Səhifəni hazırladı: Aygün İlqarqızı